


Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

1 aprel 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


**BDU rektoru BMT-nin Beynəlxalq Kosmik Hava Təşəbbüsü üzrə proqramının rəhbər heyətinin illik yığıncağında çıxış edib**

➔Səh.2

**BDU-nun Çin ali təhsil müəssisələri ilə əlaqələri genişlənir**

➔Səh.4

**BDU nümayəndə heyəti Pakistanın Ali Təhsil Komissiyasında müzakirələr aparıb**

➔Səh.4

**BDU-da "Elm günü" və AMEA-nın 80 illik yubileyinə həsr olunmuş konfrans keçirilib**

➔Səh.5

**Yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın Təbiət ixtisasları üzrə İşçi qrupunun BDU-da iclası keçirilib**

➔Səh.6

**Audiovizual Şura BDU tələbələri üçün növbəti seminar təşkil edib**

➔Səh.9

**"Ümumi dilçilik oçerkləri" kitabının təqdimatı keçirilib**

➔Səh.16



**BDU-da Qazaxıstanın K. Jubanov adına Aktobe Regional Universitetinin rektoru ilə görüş**

➔Səh.2



**Yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın Təbiət ixtisasları üzrə İşçi qrupunun BDU-da növbəti iclası**

➔Səh.2



**BDU və Pakistanın NUST Universiteti arasında akademik əməkdaşlıq genişləndirilir**

➔Səh.3



**BDU və Pakistanın COMSATS Universiteti arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb**

➔Səh.4

**BDU-da D.Serikbayev adına Şərqi Qazaxıstan Texniki Universitetinin rektoru ilə görüş**

➔Səh.11




## Təbiətin, həyatın oyanması Novruzdan başlanır

***Novruz bir bayram kimi baharın gəlməsi münasibətilə geniş miqyasda qeyd olunur və sevincli bir hala — qışın qurtarmasına və baharın gəlişinə həsr olunur.***

Novruz bayramını qeyd etmək təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Təqvimdə baharın ilk günü isə günəşin bir illik fırlanması ilə əsaslanır.

Alimlərin fikrincə bu bayramın tarixi çox qədimdir. Elmi araşdırmalar Novruz bayramının ibtidasını çox əski çağlarla Zərdüşt peyğəmbərin yaşadığı dövrlə bağlayır, onun yaşını ən azı 3700, ən çoxu 5000 ilə bərabər edirlər.

Qədim Vavilonada bu bayram Nisanın (mart, aprel) 21-ci günü qeyd olunurdu və 12 gün davam edirdi. Bununla belə bu 12 günün hər birisinin öz ritualları (mərasim, ayin), öz əyləncələri mövcüd idi. İlk yazılı mənbədə qeyd olunur ki, Novruz bayramı bizim eradan əvvəl 505-ci ildə yaranmışdır.

Təbiətin, həyatın oyanması Novruzdan başlanır. Azərbaycan xalqı bunu çox təntənəli və həm də Yeni ilin, yeni günün Novruzun gəlişini ən azı dörd həftə əvvəldən qeyd etməyə başlayır. Belə ki, hər həftənin ikinci günləri Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi deyə qeyd olunur. Xalq mövhumatına əsasən birinci çərşənbə günü su və su mənbələri təzələnir və hərəkətə gəlir, ikinci çərşənbədə od, üçüncü çərşənbədə yel və nəhayət, dördüncü Torpaq çərşənbəsində təbiət oyanır və bu baharın gəlməsindən xəbər verir.

Novruz bayramı qədim ənənələrlə, oyunlarla zəngindir. Qədim ənənələrdən "Xıdır İlyas" (məhsuldarlıq, çiçəklənmə rəmzi), "Kos-kosa" — meydan məzəli oyunu (baharın gəlməsi rəmzi) və falabaxmanı qeyd etmək olar.

Novruzun ən yüksək zirvəsi köhnə il öz səlahiyyətlərini təzə ilə verəndə olur. Bu anda köhnə ənənəyə görə Novruzun şərəfinə top və tüfənglərdən yaylım atəşləri açılır. Hələ XIX əsrdə N.Dubrovin bu haqda belə yazmışdır: "Azərbaycanda Baharın gəlməsini şəhər və kəndlərdə açılan yaylım atəşləri bildirirdi". Azərbaycanda Novruz bayramı təntənəsinin iştirakçısı olan Adam Oleari hələ 1637-ci ildə yazırdı: "Münəccim (astroloq) tez-tez arxasından qalxaraq, astronomik cihaz və günəş saatı vasitəsilə günəşin hündürlüyünü təyin edərək, gündüzlə gecənin bərabərləşdiyi anda elan etdi: "Təzə il gəldi" və elə bu anda yaylım atəşləri başlandı, şəhərin qüllələrindən və divarlardan musiqi sədaları ucaldı. Beləliklə Bahar bayramı başlandı".

Azərbaycanlılar bayram süfrəsinə ciddi diqqət yetirirlər. Süfrədə adları da "s" hərfindən başlayan yeddi növ xörək olmalıdır. Süfrədə həmçinin sumax, sirkə, süd, səməni, səbzi və s. olmalıdır. Bunlardan başqa masanın üstünə güzgü və şamlar, güzgünün üstünə isə boyanmış yumurtalar qoyulur. Bunların da öz rəmzi mənası var: şam - od, işıq deməkdir (hansı ki, insanı bədnəzərdən qoruyur), güzgü aydınlıq rəmzidir.

Ənənəyə görə bayramın ilk günü hamı evdə olmalıdır. Xalq arasında deyirlər: "Əgər bayram günü evdə olmasan, yeddi il evdə olmayacaqsan". Keçmişdə bir qayda olaraq, çöl qapıları bağlanmırdı. Təzə ilin birinci günü bütün gecə işıqlar söndürülmür, sönmüş od, işıq bədbəxtçilik əlaməti sayılırdı.

Novruz şən və sevimli bayramdır. Novruz xalqımızın bütün varlıqlarını özündə cəmləşdirən bayramdır.

## BDU-da Beynəlxalq Qadınlar Gününə həsr olunan tədbir keçirilib

➔Səh.12

# BDU-da Qazaxıstanın K.Jubanov adına Aktobe Regional Universitetinin rektoru ilə görüş

*Martın 3-də BDU-nun rektoru Elçin Babayev Qazaxıstanın K.Jubanov adına Aktobe Regional Universitetinin rektoru Laura Karabassovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Qonaqları salamlayan rektor Elçin Babayev iki ölkə arasında mövcud olan möhkəm əlaqələrin təhsildə və elmdə də dərinləşdirilməsinin vacibliyini qeyd edib, birgə əməkdaşlığın daha yüksək nəticələr verəcəyini vurğulayıb. O qeyd edib ki, BDU Qazaxıstan universitetləri ilə səmərəli və uğurlu əməkdaşlıq edir. K.Jubanov adına Aktobe Regional Universiteti ilə də elm, təhsil və mədəniyyət sahələrində birgə layihələrin, tədbirlərin təşkili, ortaq elmi tədqiqatların həyata keçirilməsi, akademik, elmi və mədəni mobilliyin inkişafı, tələbə, tədqiqatçıların, akademik və inzibati heyətin mübadiləsi, gələcəkdə isə ikili diplom proqramlarının reallaşması üçün əlverişli imkanlar var.

Qazaxıstanın K.Jubanov adına Aktobe Regional Universitetinin rektoru Laura Karabassova isə bildirib ki, Azərbaycan universitetləri arasında ilk dəfə məhz BDU ilə əməkdaşlıq etmək niyyətindədirlər: "Akademik mobillik istiqamətində əməkdaşlığa xüsusi önəm veririk. Fizika, riyaziyyat, nanotexnologiyalar, türkologiya, arxeologiya istiqamətləri üzrə də əməkdaşlıq edə bilərik".

# Yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın Təbiət ixtisasları üzrə İşçi qrupunun BDU-da növbəti iclası

*Martın 18-də Yeni təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın Təbiət ixtisasları üzrə İşçi qrupunun BDU-da növbəti iclası keçirilib.*



BDU-nun rektoru Elçin Babayev və Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyevin həmsədrliyi ilə keçirilən iclasda alt işçi qrupların sədrləri iştirak ediblər.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, Təbiət ixtisasları qrupunun hər bir ixtisası üzrə alt işçi qrupları tərəfindən əmək bazarının tələbləri, müasir dövrün çağırışları, dünyanın tanınmış univesitetlərinin bu sahədə təcrübəsi əsasında ixtisaslaşmaların yeni siyahısı tərtib olunub. Bu zaman sənaye-biznes nümayəndələrinin, digər ali təhsil və elmi tədqiqat müəssisələrinin, dövlət qurumlarının da rəyi nəzərə alınıb.

İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, texnika elmləri doktoru, professor, akademik Rasim Əliquliyev qeyd edib ki, alt qrupların iclaslarında kompüter elmləri, fizika, hidrometeorologiya, mexanika, riyaziyyat, kimya, coğrafiya, statistika, ekologiya, biologiya, biotexnologiya, geologiya ixtisasları üzrə ixtisaslaşmaların siyahısına yenidən baxılıb. Dünyada gedən proseslərin inkişaf tempindən geri qalan ixtisaslaşmaların ləğv olunması, müasir çağırışlara cavab verən yeni ixtisaslaşmaların yaradılması təklif olunub, bəzi ixtisaslaşmaların adlarında redaktələr aparılıb.

İclasda kompüter elmləri, fizika, hidrometeorologiya, mexanika, riyaziyyat, kimya, coğrafiya, statistika, ekologiya, biologiya, biotexnologiya, geologiya ixtisasları üzrə yeni ixtisaslaşmaların siyahısı ilə bağlı ilkin müzakirələr aparılıb.

# BDU və Qazaxıstanın Atırau Neft və Qaz Universiteti arasında əməkdaşlığın genişləndirilməsi müzakirə olunub

*Martın 5-də BDU-da Qazaxıstanın Atırau Neft və Qaz Universitetinin Təkmilləşdirmə və Əlavə Təhsil İnstitutunun direktoru Akmaral Jalgasbaeva və Neft və qaz fakültəsinin dekanı Reyhan Süleymenova ilə görüş olub.*

Qonaqları salamlayan rektor Elçin Babayev Qazaxıstan universitetlərinin BDU-nun beynəlxalq əlaqələrində xüsusi çəkiyə malik olduğunu bildirib. Bu baxımdan Atırau Neft və Qaz Universiteti ilə imzalanmış əməkdaşlıq müqaviləsindən gözləntilərin böyük olduğunu, bunun iki qardaş ölkə arasında təhsil və elmi-tədqiqat sahəsində əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Qonaqlar BDU ilə elm və təhsil sahəsində əlaqələrin genişləndirilməsi, tələbə-müəllim mübadiləsinin vacibliyini bildirib, Atırau Neft və Qaz Universitetinin əlavə təhsil sahəsində təcrübəsini bölüşüblər.



# BDU ilə Qazaxıstanın Süleyman Dəmirəl Universiteti arasında anlaşma memorandumu imzalanıb

*Fevralın 6-da BDU ilə Qazaxıstan Respublikasının Süleyman Dəmirəl Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.*

Müqavilənı BDU-nun rektoru Elçin Babayev və Qazaxıstanın Süleyman Dəmirəl Universitetinin rektoru Alimjan İgenbayev imzalayıb.

Anlaşma memorandumu akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafını, elmi-tədqiqat işlərində əməkdaşlıq kimi məqamları özündə əks etdirir. Memorandum çərçivəsində birgə konfrans, seminar, simpoziumların keçirilməsi, elmi jurnallarda məqalələrin çap edilməsi, ortaq tədqiqat layihələri, mədəni proqramların təşkili, tələbə, tədqiqatçıların, akademik və inzibati heyətin mübadiləsi kimi məsələlər nəzərdə tutulub.

Qeyd edək ki, Qazaxıstanın Süleyman Dəmirəl Universitetinin əsası 1996-cı ildə qoyulub. 4 fakütənin fəaliyyət göstərdiyi universitetdə 9000-ə yaxın tələbə təhsil alır.

# BDU rektoru BMT-nin Beynəlxalq Kosmik Hava Təşəbbüsü üzrə proqramının rəhbər heyətinin illik yığıncağında çıxış edib

*Avstriyanın paytaxtı Vyanada BMT-nin Kosmosdan Dinc Məqsədlərlə İstifadə üzrə Komitəsinin (COPUOS) 62-ci sessiyası çərçivəsində Beynəlxalq Kosmik Hava Təşəbbüsü (ISWI) üzrə proqramın rəhbər heyətinin illik yığıncağı keçirilib.*

Tədbirin əsas məqsədi müxtəlif ölkələrdə kosmosdan istifadə sahəsində elmi-tədqiqat cihazları və alətlərinin yerləşdirilməsi, eləcə də kadr hazırlığı üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Yığıncaqda Beynəlxalq Kosmik Hava Təşəbbüsü proqramının ölkə üzrə milli koordinatorları hesabatlarını təqdim edib, həmçinin müvafiq sahələrdə yeni əməkdaşlıq imkanları müzakirə olunub.

Bakı Dövlət Universitetinin (BDU) rektoru, Azərbaycan üzrə milli koordinator Elçin Babayev "Azərbaycanda kosmik hava fəaliyyətləri" mövzusunda çıxış edərək, ölkəmizin bu sahədəki inkişafı və gələcək hədəfləri barədə ətraflı məlumat verib. Çıxışda Azərbaycanın kosmik tədqiqatlar sahəsindəki strateji addımları, elmi potensialı və beynəlxalq aləmdəki nüfuzu vurğulanıb. Rektor Elçin Babayev çıxışında BDU-nun gələcəkdə kosmik hava fəaliyyətləri ilə bağlı daha çox beynəlxalq əməkdaşlıq qurmağı və bu sahədə dünya səviyyəli layihələr həyata keçirməyi hədəflədiyini qeyd edib. Bu məqsədlə Universitetin müxtəlif beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndirilməsi, müasir elmi-texniki cihaz və avadanlıqların qurulması və işə salınaraq beynəlxalq elmi məlumat bazalarına inteqrasiya edilməsi istiqamətində işlərin davam etdiriləcəyini diqqətə çatdırıb.

Yığıncaq çərçivəsində həmçinin, iştirakçı ölkələr arasında kosmos və kosmik hava tədqiqatları sahəsində birgə layihələrin həyata keçirilməsi, elmi məlumatların mübadiləsi və yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi barədə müzakirələr aparılıb. Bu, beynəlxalq səviyyədə elmi tərəfdaşlıqların genişlənməsinə və kosmos tədqiqatlarının inkişafına mühüm töhfələr verir.

# BDU və İslam Əməkdaşlıq Təşkilatının COMSTECH qurumu arasında əməkdaşlıq əlaqələri qurulur

***Martın 17-də BDU-nun rektoru Elçin Babayevin Pakistana səfəri çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Elmi və Texnoloji Əməkdaşlıq üzrə Daimi Komitəsinin (COMSTECH) Baş Koordinatoru Məhəmməd İqbal Çoudhari ilə rəsmi görüş keçirilib. Görüş zamanı BDU-nun COMSTECH-lə qarşılıqlı əməkdaşlıq imkanları, elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi, üzvlük və birgə proqramların həyata keçirilməsi məsələləri ətraflı müzakirə edilib.***



Müzakirələrin nəticəsi olaraq, Bakı Dövlət Universiteti ilə COMSTECH arasında anlaşma memorandumu imzalanıb. Bu mühüm sənəd iki qurum arasında elm və texnologiya sahəsində əməkdaşlığı daha da möhkəmləndirmək, birgə tədqiqat layihələrinin icrasını təşviq etmək və BDU-nun beynəlxalq elmi proqramlardan faydalanmasını təmin etmək məqsədi daşıyır. Memorandumun imzalanma mərasimində Azərbaycanın Pakistandakı fövqəladə və səlahiyyətli səfiri Xəzər Fərhadov iştirak edib. Səfir Xəzər Fərhadov bu əməkdaşlığın Azərbaycan və Pakistan arasında elmi əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verəcəyini vurğulayıb.

BDU üçün bu əməkdaşlıq böyük perspektivlər açır. Universitet COMSTECH-in elmi qrant və təqaüdlərindən faydalanmaq, müxtəlif sahələrdə ortaq elmi-tədqiqat işlərinə qoşulmaq imkanı əldə edir. Bu, xüsusilə fundamental və tətbiqi elmlər sahəsində yeni layihələrin reallaşdırılmasına, doktorant və tədqiqatçıların beynəlxalq təcrübə proqramlarında iştirakına şərait yaradacaq.

Cari ilin iyun ayında Bakıda İƏT-in Elm və Texnologiya üzrə Daimi Komitəsinin (COMSTECH) İcraiyyə Komitəsinin 29-cu iclası keçiriləcək. Bu tədbir İƏT üzv dövlətlərinin elm və təhsil sahəsində əməkdaşlığının dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bakı Dövlət Universiteti bu toplantıda aktiv iştirak edərək, elmi-tədqiqat sahəsindəki nailiyyətlərini təqdim edəcək, eyni zamanda üzv ölkələrin ali təhsil müəssisələri ilə əməkdaşlıq imkanlarını genişləndirmək istiqamətində müzakirələr aparacaq.

Qeyd edək ki, COMSTECH 1981-ci ilin yanvarında Səudiyyə Ərəbistanının Məkkə şəhərində keçirilən İƏT-in üçüncü İslam zirvə toplantısında yaradılıb. Təşkilatın əsas məqsədi İƏT-ə üzv dövlətlər arasında elm və texnologiya sahəsində əməkdaşlığın genişləndirilməsinə, elmi potensialın artırılmasına və innovativ layihələrin dəstəklənməsinə töhfə verməkdir. COMSTECH-in sədri Pakistanın Prezidenti, həmsədri isə Baş naziridir. Təşkilat elmi biliklərin inkişafına yönəlmiş müxtəlif təqaüd, qrant və layihələr həyata keçirir və üzv ölkələrin alimlərini dəstəkləyir.

---

# BDU və Pakistanın NUST Universiteti arasında akademik əməkdaşlıq genişləndirilir

***Martın 17-də BDU rektoru Elçin Babayev Pakistan İslam Respublikasına rəsmi səfəri çərçivəsində Pakistanın Milli Elm və Texnologiya Universitetinin (NUST) akademik işlər üzrə prorektoru Osman Hasan və NUST Keyfiyyət təminatı və beynəlxalq əlaqələr ofisinin direktoru Eveys Kamboh ilə görüşüb. Görüş zamanı iki universitet arasında akademik əməkdaşlığın inkişaf etdirilməsi və beynəlxalq elmi-tədqiqat şəbəkələrinin gücləndirilməsi məsələləri müzakirə edilib.***




NUST Universiteti Pakistanın ən nüfuzlu ali təhsil müəssisələrindən biri olmaqla yanaşı, süni intellekt, data analitikası, aerokosmik elmlər, enerji texnologiyaları və informasiya texnologiyaları sahələrində güclü elmi bazaya malikdir. Görüş zamanı iki universitet arasında məhz bu istiqamətlərdə əməkdaşlıq imkanlarının genişləndirilməsi və müştərək layihələrin hazırlanması məsələləri müzakirə olunub.

Rektor Elçin Babayev görüşdə beynəlxalq əməkdaşlıqların gücləndirilməsinin Bakı Dövlət Universitetinin inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu qeyd edib. O, BDU ilə NUST arasında birgə tədqiqat mərkəz və laboratoriyalarının yaradılması, ikili magistratura və doktorantura proqramlarının tətbiqi, eləcə də elmi nəşrlərin hazırlanması istiqamətində konkret addımların atılmasının vacibliyini vurğulayıb.

Görüş zamanı tərəflər süni intellekt, böyük həcmli verilənlər (big data), robototexnika və nanotexnologiyalar sahələrində birgə tədqiqatların aparılması üçün əməkdaşlığın gücləndirilməsinə dair razılığa gəliblər. Həmçinin, iki universitet arasında tələbə və professor-müəllim heyətinin akademik mübadiləsinin təşviqi, birgə konfrans və seminarların təşkili və innovasiya yönümlü elmi-tədqiqat layihələrinin həyata keçirilməsi məsələləri nəzərdən keçirilib.

Görüşün sonunda tərəflər əməkdaşlıq haqqında niyyət protokolu imzalayıblar. İki universitetin rəsmiləri gələcəkdə daha geniş miqyasda əməkdaşlıq etməyə və konkret layihələr üzərində işləməyə dair qarşılıqlı razılığa gəliblər.

BDU nümayəndə heyəti NUST-un kampusu və innovativ layihələri ilə tanış olub.

---

# BDU nümayəndə heyəti Pakistanın NUTECH universitetində olub

***Martın 17-də BDU-nun rektoru Elçin Babayev Pakistan İslam Respublikasına rəsmi səfəri çərçivəsində Pakistanın Milli Texnologiya Universitetinin (NUTECH) rektoru Moazzam Ejaz ilə görüş keçirib.*** Görüşdə iki universitet arasında elmi-tədqiqat, texnologiya transferi və innovasiya sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.





NUTECH Universiteti mühəndislik, sənaye texnologiyaları və hərbi tətbiqli elmlər sahəsində Pakistanın qabaqcıl ali təhsil müəssisələrindən biri hesab olunur. Universitet yeni texnologiyaların işlənilib hazırlanması və tətbiqi istiqamətində aktiv fəaliyyət göstərir. Bu baxımdan BDU ilə NUTECH arasında əməkdaşlıq mühəndislik, informasiya texnologiyaları, aerokosmik elmlər, robototexnika və süni intellekt sahələrində birgə tədqiqatların aparılmasına imkan yaradacaq. Tərəflər arasında imzalanmış əməkdaşlıq haqqında niyyət protokolu iki universitet arasında geniş spektrli əməkdaşlığı nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində tələbə və müəllim mübadiləsi, ortaq elmi-tədqiqat layihələrinin icrası, mühəndislik laboratoriyalarının birgə istifadəsi, texnoloji startapların inkişafına dəstək və sənaye ilə əlaqələrin möhkəmləndirilməsi məsələləri əhatə olunub. Bundan əlavə, universitetlər arasında ixtisasartırma proqramlarının həyata keçirilməsi və müştərək doktorantura proqramlarının yaradılması ilə bağlı da razılıq əldə olunub.

Rektor Elçin Babayev görüş zamanı BDU-nun təkcə fundamental elmlər sahəsində deyil, eyni zamanda tətbiqi elmlər və texnologiyalar istiqamətində də inkişaf etdiyini vurğulayaraq, NUTECH Universiteti ilə əməkdaşlığın BDU-nun innovasiya ekosisteminin gücləndirilməsinə mühüm töhfə verəcəyini bildirib.

Görüş çərçivəsində iki universitet arasında birgə texnoloji konfransların, seminarların və tələbə innovasiya müsabiqələrinin təşkil olunması, eləcə də elmi-tədqiqat və texnologiya inkubatorlarının yaradılması məsələləri də müzakirə edilib.

BDU nümayəndə heyəti NUTECH-in kampusu və laboratoriyaları ilə ətraflı tanış olub.

# BDU və Pakistanın COMSATS Universiteti arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb

***Martın 17-də BDU-nun rektoru Elçin Babayev Pakistan İslam Respublikasına rəsmi səfəri çərçivəsində COMSATS Universitetinin rektoru Sacid Qamar ilə görüş keçirib. Görüş zamanı iki ali təhsil müəssisəsi arasında elmi və akademik əməkdaşlığın gücləndirilməsi, ortaq tədqiqatların aparılması və innovasiya layihələrinin həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.***



COMSATS Universiteti Pakistanın qabaqcıl elmi-tədqiqat və texnologiya yönümlü ali təhsil müəssisələrindən biridir. Universitet əsasən informasiya texnologiyaları, mühəndislik, biomühəndislik və təbiət elmləri sahələrində ixtisaslaşıb. Bu baxımdan BDU ilə əməkdaşlıq çərçivəsində süni intellekt, kibertəhlükəsizlik, data analitikası və nano-texnologiyalar sahələrində birgə elmi layihələrin həyata keçirilməsi planlaşdırılır.

Tərəflər arasında imzalanmış əməkdaşlıq haqqında niyyət protokolu genişmiqyaslı əməkdaşlığı nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində təhsilalanların və professor-müəllim heyətinin qarşılıqlı mübadiləsi, ikili diplom proqramlarının təşkili, birgə doktorantura proqramlarının yaradılması və elmi nəşrlərin hazırlanması məsələləri də əhatə olunub.

Bundan əlavə, memorandum çərçivəsində iki universitet arasında birgə elmi konfransların və seminarların təşkili, elmi jurnallarda məqalələrin dərc edilməsi və müştərək layihələrin reallaşdırılması planlaşdırılır.

Rektor Elçin Babayev görüş zamanı BDU-nun beynəlxalq akademik mühitdə fəal iştirak etdiyini vurğulayaraq, COMSATS Universiteti ilə əməkdaşlığın hər iki universitetin elmi potensialının inkişafına əhəmiyyətli töhfə verəcəyini qeyd edib. O, xüsusilə elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, elmi mərkəzlərin inkişaf etdirilməsi və tələbələr üçün daha geniş imkanların yaradılması istiqamətində əməkdaşlığın vacibliyini vurğulayıb.

Görüşün sonunda hər iki universitetin nümayəndələri gələcəkdə əməkdaşlıq istiqamətlərinin daha da genişləndirilməsi üçün mütəmadi olaraq əlaqələrin saxlanılmasının və konkret layihələr üzərində işlənilməsinin vacibliyini bildiriblər.

# BDU nümayəndə heyəti Pakistanın Ali Təhsil Komissiyasında müzakirələr aparıb

***Martın 14-də BDU-nun rektoru Elçin Babayev Pakistan İslam Respublikasına səfəri çərçivəsində bu ölkənin Ali Təhsil Komissiyasının sədri, professor Muxtar Əhməd ilə görüşüb.***



Görüşdə BDU-nun Pakistanın aparıcı universitetləri ilə əməkdaşlığının gücləndirilməsi, birgə elmi tədqiqatların təşkili və tələbə-müəllim mübadiləsi məsələləri müzakirə olunub. Rektor Elçin Babayev BDU-nun beynəlxalq akademik əlaqələri genişləndirməkdə maraqlı olduğunu bildirərək, Pakistan universitetləri ilə elmi və tədris sahəsində birgə təşəbbüslərin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Ali Təhsil Komissiyasının sədri, professor Muxtar Əhməd Azərbaycan və Pakistan arasında təhsil sahəsində əməkdaşlığın inkişafına yüksək qiymət verib və bu istiqamətdə təşəbbüsləri dəstəkləyəcəyini bildirib. O, BDU və Pakistan universitetləri arasında əlaqələrin möhkəmləndirilməsi üçün Komissiyanın hərtərəfli dəstək göstərəcəyini qeyd edib.

BDU nümayəndə heyəti Ali Təhsil Komissiyasında Pakistan Milli Assambleyasının üzvü xanım Begüm Tahmina Daultana ilə də görüşüb. O, iki ölkə arasında təhsil və mədəniyyət sahələrində əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Xanım Daultana müxtəlif illərdə Pakistanın qadın inkişafı, sosial rifah və xüsusi təhsil naziri, eləcə də qadın inkişafı, mədəniyyət və elm və texnologiya naziri vəzifələrində çalışmış təcrübəli siyasətçi kimi, bu istiqamətdə təşəbbüslərə dəstək verməyə hazır olduğunu bildirib.

Ali Təhsil Komissiyasında görüş qarşılıqlı anlaşma və əməkdaşlıq istiqamətində atılacaq addımların müzakirəsi ilə başa çatıb.

# BDU ilk dəfə QS reytinqində iki müxtəlif ixtisas üzrə yer alıb

***BDU dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Quacquarelli Symonds" (QS) tərəfindən tərtib edilən "QS 2025 dünyanın ən yaxşı universitetlərinin fənn reytinqi"ndə əhəmiyyətli nəticə əldə edib.*** Universitet ilk dəfə olaraq iki müxtəlif ixtisas istiqaməti üzrə bu reytinqdə yer alıb. Belə ki, BDU neft və qaz mühəndisliyi sahəsində 151-175, riyaziyyat sahəsində isə 501-600 diapazonunda qərarlaşıb.

"QS dünyanın ən yaxşı universitetlərinin fənn reytinqi" universitetlərin qiymətləndirilməsində beş əsas indikator əsasında tərtib olunur: akademik nüfuz, işəgötürənlər arasında nüfuz, nəşrlərə istinad sayı, H-indeksi və beynəlxalq elmi əməkdaşlıq indeksi. Bu metodologiya çərçivəsində ali təhsil müəssisələri 5 geniş fənn sahəsi və 55 ixtisaslaşmış fənn kateqoriyası üzrə dəyərləndirilir.

BDU-nun bu nüfuzlu reytinqdə iki müxtəlif istiqamət üzrə yer alması Universitetin elmi potensialının və qlobal akademik mühitdə tanınmasının göstəricisidir. Bu nailiyyət BDU-nun beynəlxalq standartlara uyğun inkişaf strategiyasının, akademik mükəmməlliyə yönəlmiş fəaliyyətinin və elmi-tədqiqat potensialının növbəti təsdiqidir.

# BDU-nun Çin ali təhsil müəssisələri ilə əlaqələri genişlənir

***Martın 14-də Çin Xalq Respublikasının (ÇXR) "Kəmər və yol" təşəbbüsünün elm və texnologiya üzrə baş katibinin müavini Renying Li, Renmin Universitetinin Chongyang Maliyyə Tədqiqatları İnstitutunun dekanı Vang Ven və Tsinghua Universitetinin Şvarçman Kollecinin dekanı Pan Qingzhong BDU-da olub.***

Qonaqları salamlayan BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov Azərbaycan-ÇXR əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini bildirib. BDU-nun Çin ali təhsil müəssisələri ilə elm və təhsil sahəsində sıx əməkdaşlıq etdiyini qeyd edib. O, ÇXR-in Pekin şəhərində yerləşən nüfuzlu ali təhsil ocaqları olan Tsinghua və Renmin universitetləri ilə birgə layihələrin həyata keçirilməsi, akademik və elmi əməkdaşlıq üçün geniş perspektivlərin olduğunu qonaqların diqqətinə çatdırıb.

Görüşdə iqtisadiyyat və biznesin idarə edilməsi, ekologiya, pedaqoji və tətbiqi elmlər istiqamətlərində ikili diplom proqramlarının yaradılması, eyni zamanda birgə elmi konfransların təşkili kimi məsələlər müzakirə olunub. Qeyd edək ki, əsası 1911-ci ildə qoyulan Tsinghua Universiteti QS dünya ünuversitetləri reytinqində 20-ci pillədə, Çin üzrə isə ikinci sırada yer alır. Əsası 1937-ci ildə qoyulan Renmin Universiteti isə QS dünya universitetləri reytinqində 621-630-cu sırada qərarlaşıb.

# BDU-nun Karyera və məzunlarla iş Mərkəzi "Məzunla görüş" layihəsinə başlayıb

***Martın 7-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi "Məzunla görüş" layihəsinə start verib. Layihənin məqsədi BDU-nun tələbə və məzunları arasında körpü qurmaq, məzunların təcrübə və biliklərini tələbələrlə paylaşmaqdır. Layihə çərçivəsində 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə universitetin xanım tələbələri üçün "Əmək bazarında qadınların rolu" mövzusunda tədbir təşkil edilib.***

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev tədbirdə iştirak edən xanımları əlamətdar gün münasibətilə təbrik edib. Bildirib ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət məşğulluq siyasətinin prioritetlərindən biri də qadınların əmək bazarında iştirak və məşğulluq imkanlarının artırılmasıdır. BDU fəaliyyəti dövründə ölkəmiz üçün 200 mindən artıq yüksəkixtisaslı kadr yetişdirib, onların arasında xanımların özünəməxsus rolu var.

Karyera və məzunlarla iş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova tədbirin keçirilməsində məqsədin qadınların peşəkar inkişafına və cəmiyyətdəki roluna diqqət çəkmək, eləcə də müxtəlif sahələrdə uğur qazanan qadınların təcrübələrini bölüşmək olduğunu vurğulayıb.

Daha sonra BDU-nun müxtəlif sahələrdə uğur qazanmış qadın məzunları çıxış ediblər. Ali Məhkəmənin Mülki və kommersiya işləri üzrə məhkəmə təcrübəsi sektorunun müdiri Nazənin Hüseynova "Qadınlar hüquq və mühafizə sistemində", "İrşad Electronics"in marketinq departamentinin rəhbəri Şəbnəm Hümbətova "Qadınlar marketinq sektorunda", İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin proqram tərtibatçısı Günay Vəlibəyli isə "Qadınlar texnologiya sahəsində" mövzularında çıxışlarında tələbələrə şəxsi və peşəkar inkişaf yolundan, qarşılaşdıqları çətinliklərdən və onların aradan qaldırılması yollarından danışıb, onlara faydalı tövsiyələr veriblər.

Daha sonra qadınların əmək bazarında rolu, gender bərabərliyi ilə bağlı fikir mübadiləsi aparılıb.

# BDU-da "Elm günü" və AMEA-nın 80 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

***Martın 13-də BDU və Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) birgə təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü" və AMEA-nın 80 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.***

Əvvəlcə Azərbaycan respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov elmi təşkilatlar və ali təhsil müəssisələri arasında əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını qeyd edib, Respublika Seysmoloji Xidmət Mərkəzində çalışan gənc mütəxəssislərin əksəriyyətinin Geologiya fakültəsinin məzunları olduğunu bildirib.



BDU rektorunun elm və təhsil üzrə müşaviri, AMEA-nın müxbir üzvü, professor Aydın Kazımzadə Universitet rəhbərliyi adından iştirakçıları salamlayaraq, bu cür tədbirlərin elm və təhsilin inteqrasiyası üçün yaxşı nümunə olduğunu və gələcəkdə əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verəcəyini qeyd edib.

AMEA nəzdində RSXM-nin baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli konfransda "Azərbaycanın müasir seysmogeodinamik şəraiti" mövzusunda məruzə ilə çıxış edib.

O, RSXM tərəfindən ölkə ərazisində 84 seysmik stansiya vasitəsilə aparılan kompleks geofiziki-seysmoloji-geokimyəvi tədqiqatlar və əldə olunmuş nəticələr haqqında ətraflı məlumat verib. Qurban Yetirmişli Azərbaycan ərazisinin mövcud seysmogen vəziyyəti haqqında da danışıb, maqnitudası 3 və 3-dən yuxarı olan zəlzələlərin qeydə alınması, aparılan monitorinqlərlə bağlı da iştirakçıları məlumatlandırıb.

Professor Qurban Yetirmişli çıxışında həmçinin RSXM-nin beynəlxalq seysmoloji təşkilatlar və xarici universitetlərlə əməkdaşlıq məsələlərinə də toxunub.

BDU-nun Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə Azərbaycanda seysmoloji tədqiqatların yüksək səviyyədə aparıldığını qeyd edib, alınmış nəticələri yüksək qiymətləndirib: "Bu gün burada təqdim olunan nəticələr çox böyük zəhmət və əmək sayəsində əldə olunub. RSXM dünyanın aparıcı universitetləri ilə yaxından əməkdaşlıq edir. Bu işlər BDU-nun məzunu, mənim tələbəm olmuş Qurban Yetirmişlinin rəhbərliyi altında aparılır. Bir müəllim kimi bunu görmək məni sevindirir. Mərkəzdə ən müasir texnologiya və proqramlardan istifadə edilir". Akademik çıxışında gənclərə müraciət edərək, elm sahəsində aktiv olmağı, bilik və bacarıqlarını artırmağı tövsiyə edib.

Tədbir mövzu ilə bağlı sualların cavablandırılması ilə yekunlaşıb.

# BDU nümayəndə heyəti Pakistanın Lahor Universitetinə səfər edib

***Martın 13-də BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasına səfəri çərçivəsində ölkənin aparıcı və böyük ali təhsil müəssisələrindən biri olan Lahor Universitetində rəsmi görüşlər keçirib. Səfərin əsas məqsədi iki universitet arasında akademik, elmi və mədəni sahələrdə əməkdaşlığın gücləndirilməsi olub.***

Səfər çərçivəsində BDU-nun rektoru Elçin Babayev Lahor Universitetinin İdarə Heyətinin sədri Üveys Rauf ilə görüşüb. Görüşdə universitetlər arasında elmi-tədqiqat əməkdaşlığının gücləndirilməsi və akademik mübadilə proqramlarının genişləndirilməsi müzakirə olunub. Tərəflər birgə innovativ layihələrin həyata keçirilməsi və ikili diplom proqramlarının yaradılması perspektivlərini nəzərdən keçiriblər. Həmçinin, təhsil və texnologiya sahəsində strateji tərəfdaşlığın inkişaf etdirilməsi barədə razılıq əldə olunub.



Görüş Lahor Universitetinin rektoru Məhəmməd Əşrəfin, rəhbər heyətinin, dekanların, eləcə də ICESCO-nun Baş direktorunun elm və texnologiyalar üzrə müşaviri Məhəmməd Şərifin iştirakı ilə geniş tərkibdə davam edib. Konkret elm və təhsil istiqamətləri üzrə iki universitet arasında strateji tərəfdaşlığın perspektivləri ətrafında müzakirələr aparılıb, birgə qurumların yaradılması, ikili diplom proqramlarının təşkili və digər əməkdaşlıq istiqamətləri nəzərdən keçirilib.

BDU-nun rektoru Elçin Babayev Universitet haqqında təqdimatla çıxış edərək, BDU-nun tarixi, beynəlxalq əməkdaşlıq istiqamətləri, təhsil və elmi nailiyyətləri, o cümlədən gələcək inkişaf planları barədə ətraflı məlumat verib. O, BDU-nun beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini, Pakistan universitetləri ilə əlaqələrin inkişafının vacibliyini vurğulayıb.

BDU nümayəndə heyəti Lahor Universitetinin idarəetmə strukturu, fakültələri, kampusu, hospitalı, müasir laboratoriyaları və mərkəzləri ilə yaxından tanış olub. Səfər çərçivəsində BDU-nun rektoru Elçin Babayevin Lahor universitetinin müəllim və tələbələri ilə görüşündə təhsil və elmi araşdırmalar sahəsindəki fəaliyyətləri barədə fikir mübadiləsi aparılıb.

Görüşlərin yekunu olaraq Bakı Dövlət Universiteti və Lahor Universiteti arasında anlaşma memorandumu imzalanıb. Bu memorandum universitetlər arasında əməkdaşlığın genişləndirilməsi, birgə elmi tədqiqatların aparılması, professor-müəllim heyətinin və tələbələrin akademik mübadiləsi, eləcə də birgə təhsil proqramlarının həyata keçirilməsini nəzərdə tutur. BDU ilə Lahor Universiteti arasında imzalanmış memorandumun reallaşdırılması istiqamətində konkret addımların atılması planlaşdırılır və bu əməkdaşlığın uzunmüddətli perspektivdə hər iki universitetə mühüm faydalar verəcəyi gözlənilir.

# Türkiyənin Azərbaycandakı səfirliyinin media müşaviri Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb

***Martın 11-də Jurnalistika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş görüş keçirilib.***

Görüşdə Türkiyənin Azərbaycandakı səfirliyinin media müşaviri Alptekin Cihangir İşbilir iştirak edib.

Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev fakültənin qardaş ölkənin aparıcı ali təhsil müəssisələri ilə uğurlu əməkdaşlığından söz açıb. Bildirib ki, bu, tələbələrin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlarının artırılması və yüksəkixtisaslı kadr kimi yetişməsi baxımından çox faydalıdır. Fakültədə bütün türk dövlətlərinin və xüsusilə Türkiyə




təcrübəsinin öyrənildiyi "Türk xalqlarının jurnalistikası" fənni tədris olunur. Əsas məqsəd birbirinə ortaq ənənələr ilə bağlı olan bu dövlətlərin fəaliyyətinə, mətbuat tarixlərinə nəzər salmaq, müqayisəli təhlil bacarığını formalaşdırmaqdır: "Jurnalistikada nəzərə alsaq, müxtəlif ölkələrin təcrübələrindən yararlanmaq peşəkarlıq üçün əsas şərtlərdəndir".

Fakültənin elmi işlər üzrə dekan müavini, dosent Sevinc Əliyeva tələbələrə qonaq haqqında məlumat verib. Bildirib ki, iki ölkə arasında olan yüksək əlaqələrin fonunda keçirilən bu cür tədbirlər tələbələrin inkişafına yönəlib. Dekan müavini həmçinin bu ilin may ayında Türkiyənin Üsküdar Universiteti ilə birgə keçiriləcək "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusundakı simpozium haqqında məlumat verib, tədbirin milli mətbuatımızın 150 illik yubileyinə həsr olunduğunu deyib.

Daha sonra "XXI əsr Türkiyə mediası qarşısında çağırışlar və jurnalistika təhsili" mövzusunda çıxış edən Alptekin Cihangir İşbilir bildirib ki, ən müxtəlif situasiyalarda peşə borcunu yerinə yetirən jurnalistlər strateji kommunikasiya bacarığına sahib olmalıdırlar. Bu, ixtisaslaşma sahəsindən asılı olmayaraq peşəkar jurnalistlərin sahib olmalı olduqları əsas xüsusiyyətdir: "Jurnalistikada peşəkar olmaq üçün 4 illik təhsil kifayət etmir. Sizin xüsusi bacarıqlarınız da olmalıdır. Jurnalistin sahəyə görə ixtisaslaşması işin yarısını təşkil edir".

44 günlük Vətən müharibəsi dövründə arxa cəbhədə yaranmış böyük media ordusundan söz açan Cihangir İşbilir belə zamanlarda jurnalistin ekstremal şəraitə hazır olmalı olduğunu, əks halda olduğu ərazi və insanlar üçün də təhlükə yarada biləcəyini deyib.

Görüş tələbələrin suallarının cavablandırılması ilə interaktiv formada davam edib.

# Yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın Təbiət ixtisasları üzrə İşçi qrupunun BDU-da iclası keçirilib

***Martın 10-da Yeni təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın Təbiət ixtisasları üzrə İşçi qrupunun BDU-da iclası keçirilib.***

BDU-nun rektoru Elçin Babayev və Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyevin həmsədrliyi ilə keçirilən iclasda İşçi qrupun üzvləri iştirak ediblər.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, hazırda ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində islahatlar aparılır. Azərbaycan Respublikasının elm və təhsil nazirinin müvafiq əmri ilə müasir tələblərə və əmək bazarının ehtiyaclarına cavab verən kompetensiya əsaslı və tələbəyönümlü yeni təhsil proqramlarının layihələrinin hazırlanması məqsədi ilə Komissiya yaradılıb.



Təbiət ixtisasları qrupunun hər bir ixtisası üzrə alt işçi qruplarının tərkibinə ölkənin müxtəlif ali təhsil müəssisələri, Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat institutları, eləcə də dövlət və özəl müəssisələrdə çalışan mütəxəssislər daxil edilib və müvafiq ixtisas üzrə üzvlərdən bir nəfər seçilərək, alt işçi qrupa sədr təyin olunub. Hazırda alt işçi qruplar tərəfindən əmək bazarının tələbləri, dünyanın tanınmış universitetlərinin bu sahədə təcrübəsi əsasında ixtisaslaşmaların yeni siyahısı tərtib olunur.

İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, texnika elmləri doktoru, professor, akademik Rasim Əliquliyev bu gün dünyada gedən qlobal transformasiyaların fonunda Azərbaycanda kadr potensialının artırılması və yeniliklərin tətbiqinə zərurət yarandığını deyib. Qeyd edib ki, rəqəmsal texnologiyaların müxtəlif sahələrə nüfuz etməsi məsələlərə münasibətlərin dəyişməsinə gətirib çıxarıb. Təbiət ixtisasları qrupu üzrə İşçi qrupun iclasının BDU-da keçirilməsi də təsadüfi deyil. BDU təbiət elmlərinin əsasının qoyulduğu ali təhsil müəssisəsidir. Qarşıda duran vəzifə təbiət elmləri üzrə ixtisaslara yenidən baxılması və günümüzə uyğunlaşdırılmasıdır: "Biz həm də inkişaf etmiş ölkələr və onların aparıcı universitetlərinin təcrübələrindən istifadə etməli və müqayisələr apararaq, ortaq nöqtəni tapmalıyıq. İnanıram ki, İşçi qrup və onun təşkil etdiyi alt qruplar bu işi uğurla icra edəcəklər".

Qeyd edək ki, elm və təhsil nazirinin 2025-ci il 24 fevral tarixli 3-29/3-2-83F/2025 nömrəli əmri ilə təhsil proqramlarının layihələrinin hazırlanması məqsədi ilə yaradılan Komissiyanın tərkibində Təhsil ixtisasları qrupu, Humanitar və sosial ixtisaslar qrupu, Mədəniyyət ixtisasları qrupu, İqtisadiyyat və idarəetmə ixtisasları qrupu, Təbiət ixtisasları qrupu, Texniki və texnoloji və Xüsusi təyinatlı ixtisaslar qrupları, Kənd təsərrüfatı ixtisasları qrupu, İdman və xidmət ixtisasları qrupu, Əsas (baza ali) tibb təhsili səviyyəsi və səhiyyə ixtisasları qrupu olmaqla 9 İşçi qrup yaradılıb.

İclas müzakirə formatında davam etdirilib.

# Bu gün görkəmli jurnalist Nəsir İmanquliyevin anım günüdür

***Azərbaycanın görkəmli jurnalisti, tanınmış ictimai xadim, professor Nəsir İmanquliyevin vəfatından 27 il ötür.***

Peşəkar redaktor, publisist və pedaqoq Nəsir İmanquliyev ömrünü Azərbaycan mətbuatı və mədəniyyətinin inkişafına, peşəkar jurnalist kadrlarının hazırlanmasına həsr edib.

Nəsir İmanquliyev 22 dekabr 1911-ci ildə Bakıda anadan olub. 1925-1926-cı illərdə Bakı şəhərində peşə məktəbini bitirib, 1934-cü ildə Bakı şəhərində Lassal adına Neft Texnikumuna daxil olub. Dövri mətbuatda ilk yazıları tələbəlik illərində çap olunmağa başlayıb. Tələbəlik illərindən başlayaraq, "Kommunist", "Yeni yol", "Gənc işçi", "Vətənin səsi" qəzetlərində ədəbi işçi, ədəbi şöbənin müdir müavini, şöbə müdiri, məsul katib, redaktor vəzifələrində çalışıb. İkinci dünya müharibəsi zamanı 1942-ci ildə siyasi işçi kimi Krım cəbhəsinə göndərilib, orada "Vuruşan Krım" qəzetinin məsul katibi kimi çalışıb, həmçinin hərbi hissədə tərcüməçi kimi xidmət edib. Bir il sonra "Kommunist" qəzetinə məsul katib təyin olunub, bu qəzetdə vətənpərvərlik mövzusuna həsr edilmiş bir çox məqalələri işıq üzü görüb.

Nəsir İmanquliyev 1947-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətə başlayıb. 1948-1950-ci illərdə BDU-nun Filologiya fakültəsində təhsilini iki ilə müvəffəqiyyətlə başa vurub. 1947-1998-ci illərdə Bakı Dövlət Universitetində Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında müəllim, dosent, professor olub. O, respublika üçün gənc jurnalist kadrlarının hazırlanması işində fəal iştirak edib, bu işə öz əvəzsiz töhfəsini verib. 1958-ci ildə Azərbaycanda yeni tipli "Bakı" və "Baku" (1953) axşam qəzetlərinin baş redaktoru təyin edilib.

Azərbaycan Mədəniyyət Nazirliyinin Radiolaşdırma Baş İdarəsinin rəisi və Azərbaycan SSR Nazirlər Soveti yanında Radio və Televiziya verilişləri Komitəsi sədrinin birinci müavini vəzifələrində işləyib. 1976-cı ildə "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi", 1990-cı ildə "Əməkdar jurnalist" fəxri adlarına layiq görülüb.

Professor Nəsir İmanquliyev 1998-ci il martın 7-də Bakı şəhərində vəfat edib.

Nəsir İmanquliyev Azərbaycan milli mətbuatının inkişafı uğrunda yorulmadan qələm çalıb, milli ənənələrə bağlı orijinal bir jurnalistlik məktəbi yaradıb. Ömrünün 50 ilini Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində milli kadrların hazırlanmasına sərf etmiş alim-publisist zəngin pedaqoji fəaliyyəti ilə Azərbaycan jurnalistlərinin böyük bir nəslinin formalaşmasında mühüm rol oynayıb. O, "Radio proqramı", "Vətənin səsi", "Bakı" və "Baku" qəzetlərinin ideya rəhbəri-qurucusu, Bakı Dövlət Universitetinin professoru, görkəmli jurnalist, ictimai xadim kimi çoxsahəli fəaliyyətində, xalqa, vətənə, millətə əsl sədaqət nümunəsi göstərib.

Nəsir İmanquliyevin işıqlı xatirəsi onu sevənlərin, tələbələrinin qəlbində əbədi yaşayacaq!

# BDU və "Codelandia" MMC arasında əməkdaşlıq memorandumu imzalanıb

***Martın 7-də BDU və "Codelandia" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və "Codelandia" MMC-nin direktoru Günel Cənnətova imzalayıblar.



Mərasimdə çıxış edən rektor Elçin Babayev BDU-nun 5 əsas prioritetindən birinin kompüter elmləri və riyaziyyat olduğunu deyib. O bildirib ki, BDU-nun çox güclü riyaziyyat məktəbi, tətbiqi riyaziyyat və kibernetika istiqamətində böyük uğurları var. Digər tərəfdən kompüter elmlərinin öyrənilməsi, innovasiya yönümlü layihələrin həyata keçirilməsi günün tələbidir. Rektor bu baxımdan "Codelandia" MMC ilə birgə əməkdaşlığın uğurlu olacağına əminliyini bildirib: "Codelandia" ilə birgə BDU-da informasiya texnologiyaları üzrə ustad dərsləri, simulyasiyalar, olimpiadalar, konfranslar keçirilə, kibertəhlükəsizlik sahəsində təlimlər təşkil oluna bilər".

"Codelandia" MMC-nin direktoru Günel Cənnətova rəhbərlik etdiyi qurumun ölkəmizin innovativ yönümlü tədris bazarında özünəməxsus yeri olduğunu qeyd edib. O diqqətə çatdırıb ki, həm ölkə daxilində, həm də dünyanın texnologiya liderləri ilə qurulan tərəfdaşlıqlar əsasında yüksək səviyyəli tədris və təcrübə proqramı formalaşdırmağa nail olunub. O, proqramlaşdırma, kibertəhlükəsizlik, süni intellekt sahələrində BDU ilə birgə əməkdaşlığın ölkədə bu sahədə mütəxəssis hazırlığına mühüm töhfə verəcəyini bildirib.

Qeyd edək ki, memorandumа əsasən, tərəflər kibertəhlükəsizlik, süni intellekt, informasiya texnologiyaları, data analitika və digər sahələrdə birgə tədqiqatlar və layihələr həyata keçirəcək. Tədris proqramlarının yenilənməsi və təkmilləşdirilməsi, yeni ixtisaslar və ixtisasartırma proqramları üzrə müasir təhsil metodlarının tətbiqi, texnologiya üzrə birgə beynəlxalq və regional elmi konfransların, elmi-texniki sahələrdə mütəxəssis hazırlığı üzrə kursların və peşəkar inkişaf proqramlarının təşkili edilməsi, müasir laboratoriyaların və tədqiqat mərkəzlərinin yaradılması da memorandumda əks olunub.

# Maliyyə Monitorinqi Xidməti maarifləndirici sessiya təşkil edib

***Martın 4-də BDU-da Maliyyə Monitorinqi Xidməti tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə (ƏL/TMM) sahəsində ictimai maarifləndirməni gücləndirmək məqsədilə xüsusi sessiya təşkil olunub.***

Tədbirin əsas məqsədi ƏL/TMM sistemi üzrə beynəlxalq standartlar, milli qanunvericilik və Maliyyə Monitorinqi Xidmətinin fəaliyyəti barədə tələbələri məlumatlandırmaq olub.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Fidan İsmayılova Maliyyə Monitorinqi Xidməti barədə tələbələrə məlumat verib, xüsusi sessiyanın tələbələr üçün əhəmiyyətindən danışıb.

İştirakçıların mövzuya daha yaxından bələd olması üçün qlobal ƏL/TMM sistemi bağlı xüsusi videoçarx nümayiş etdirilib, Xidmətin Elektron Tədris Platforması təqdim olunub. Tələbələr platformanın modulları və təqdim olunan tədris resursları ilə tanış olublar. Tələbələr platformanın modulları və təqdim olunan tədris resursları ilə tanış olublar.

# Tariximizin qanlı səhifəsi: 1918-ci ilin mart soyqırımı

***Tarix boyu soydaşlarımız Ermənistan tərəfindən dəfələrlə məqsədyönlü şəkildə etnik təmizləməyə, soyqırımına və deportasiyalara məruz qalıblar. Azərbaycan xalqına, türk dünyasına qarşı erməni daşnaklarının soyqırımı siyasəti 200 ilə yaxındır davam edir.***




Xalqımıza qarşı həyata keçirilmiş ən dəhşətli soyqırımı hadisələrindən biri 1918-ci ilin mart-aprel aylarında törədilib. Mart soyqırımı öz amansızlığı və miqyasına görə bəşər tarixində də ən qanlı faciələrdəndir.

1918-ci ilin mart günlərindəki bu qırğınlar zamanı üç gün ərzində Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Muğan, Xaçmaz, Naxçıvan, Lənkəran və Azərbaycanın başqa bölgələrində ermənilər tərəfindən amansız qanlı faciələr törədilib. Yüzlərlə şəhərimiz və kəndimiz, o cümlədən Qarabağ ərazisində azərbaycanlıların yaşadıqları 150-dən çox kənd xarabalığa çevrilib, Şuşada görünməmiş qırğınlar həyata keçirilib. Ermənilər evlərə od vurub, insanları diri-diri yandırıb, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdıb, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər. 50 mindən çox soydaşımız, o cümlədən Bakıda 30 minə yaxın azərbaycanlı qətlə yetirilib. Erməni silahlı dəstələri Bakı qəzasında 229, Gəncə qəzasında 272, Zəngəzur mahalında 115, Qarabağda isə 157 kəndi yerlə-yeksan ediblər. Andranikin quldur dəstələrinin 1918-1920-ci illərdə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı nəticəsində indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycan torpaqlarında yaşayan əhalinin çox böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə öldürülüb, yaxud öz dədə-baba torpaqlarından qovulub.

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının qərarı ilə 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyası yaradılmışdı. Komissiya ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum da təsis edildi. Martın 31-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü elan olundu. Lakin Cümhuriyyətin süqutu bu sahədə başlanmış işi yarımçıq qoydu.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. Mart soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövləti bütün zəruri addımları atıb. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Bu, keçmişin, tarixi proseslərin obyektiv öyrənilməsi, gələcək nəsillərin tarixi gerçəklikləri, tarixi hadisələri unutmaması üçün çox vacib və əhəmiyyətli bir sənəddir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqəti sayəsində 1918-ci il soyqırımı ilə bağlı genişmiqyaslı araşdırmalar aparılıb. Quba şəhərində azərbaycanlıların kütləvi məzarlığı aşkar olunub, erməni millətçiləri tərəfindən törədilmiş cinayətlərə dair yeni faktlar üzə çıxarılıb, 2013-cü ildə Quba şəhərində Soyqırımı Memorial Kompleksinin açılış mərasimi keçirilib.

Azərbaycan dövlətinin atdığı addımlar, görülən tədbirlər 1918-ci ildə erməni silahlı birləşmələri tərəfindən xüsusi amansızlıqla törədilmiş cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırılmasında əvəzsiz rol oynayıb. Soydaşlarımızın azərbaycançılıq ideyası, milli məfkurə ətrafında daha da sıx birləşməsinə yeni təkan verib. Erməni-bolşevik silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2018-ci il 18 yanvar tarixində "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb.

Ermənilərin tarix boyu xalqımıza qarşı törətdikləri bütün cinayətlərin cavabı 2020-ci ilin sentyabrında başlayan, 44 gün davam edən Vətən müharibəsi və ötən ilin sentyabrında keçirilən lokal antiterror əməliyyatı ilə verildi. 200 ildən çox ermənilərin "böyük Ermənistan" xülyası çərçivəsində törətdikləri vəhşiliklərin, şəhidlərimizin qısasını Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında aldı. Ermənistanın 30 il davam edən işğalına son qoyuldu, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa edildi.

Tarix unudulanda təkrarlanır, deyirlər. Bu faciələri bir daha yaşamamaq üçün tariximizi dərindən öyrənmək və öyrətmək hər birimizin vətəndaşlıq borcudur.

# BDU kollektivi Qubada Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib

***Martın 31-də Bakı Dövlət Universitetinin kollektivi Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Qubada Heydər Əliyev Mərkəzinin qarşısında Ulu Öndərin abidəsini ziyarət edib.***

Abidənin qarşısına gül dəstələri qoyulub, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib.



# BDU kollektivi Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib



***Martın 31-də BDU-nun kollektivi Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib.***

Əvvəlcə BDU-nun əməkdaş və tələbələri kompleksin ərazisində ucaldılan abidənin önünə əklil və gül dəstələri düzüb, soyqırımı qurbanlarının əziz xatirəsini yad ediblər.



Daha sonra ziyarətçilər soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə yaradılan abidə-muzeyin ekspozisiyası ilə tanış olublar. Kompleksin mütəxəssisləri 1918-ci ildə baş verən qanlı hadisələr barədə ətraflı məlumat veriblər.

Qeyd edək ki, memorial Heydər Əliyev Fondunun dəstəyi ilə 2013-cü ildə yaradılıb. Kompleks 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə ucaldılıb.

# Humanizm, xeyirxahlıq, bərabərlik bayramı

***Martın 30-da insanların ruhunu və mənəviyyatını saflaşdıran, onları humanizmə, birlik və bərabərliyə dəvət edən müqəddəs Ramazan bayramıdır.***

Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayını məcazi mənada "on bir ayın sultanı" adlandırırlar. Ramazan ayı mənəviyyatı möhkəmləndirən, dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir.

Ramazan ayı insanları xeyirxah əməllərə dəvət edən, onlara əxlaqi saflığın, nəfs üzərində qələbənin və ruhi-mənəvi kamilliyin sevincini yaşadan mübarək aylardandır.

Mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynayıb. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir.

Ramazan bayramı insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır. Ümumbəşəri əhəmiyyətə malik bu bayram insana sonsuz iman sevgisi bəxş edir. Savab, ülfət ayı olan Ramazan əsrlər boyunca bəşər övladına dözüm, mərhəmət, Allahın yaratdıqları arasında münasibətlərdə xeyirxahlıq təlqin edir, mili-mənəvi birlik, humanizm, səbr, dözüm, yardımsevərlik aşılayır.

Mübarək Ramazan bayramı dövlətimizə sülh, firavanlıq, xalqımıza ruzi-bərəkət gətirsin. Oruc və dualarınız həmişə Tanrı dərgahında qəbul olsun!

Ramazan bayramınız mübarək!

# "Elmdə qadınların rolu" adlı tədbir keçirilib



***Martın 11-də Filologiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "Elmdə qadınların rolu" adlı tədbir keçirilib. Tədbirdə fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.***

Tədbirdə azərbaycanlı qadın alimlər haqqında videoçarx təqdim olunub. Sonra BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru Yeganə İsmayılova, Azərbaycan dilçiliyi kafedrasının professoru, filologiya elmləri doktoru Zemfira Şahbazova, Türkologiya kafedrasının dosenti, filologiya elmləri doktoru Qızılgül Abdullayeva və Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Həqiqət Abdıyeva Azərbaycan cəmiyyətində qadınların rolu ilə bağlı geniş məruzə ediblər. Çıxış edənlər Azərbaycan elminin və təhsilinin, o cümlədən filologiyasının inkişafında qadınlarımızın müstəsna xidmətlərindən söz açıb, öz elmi-pedaqoji və həyat təcrübələrini tələbələrlə bölüşüblər.

Tədbir müzakirələrlə yekunlaşıb.

# BDU-da dəyirmi masa: "Elmi innovasiya və biotexnologiyalar: ekoloji tarazlığın davamlı təminatında yeni perspektivlər"

***Biologiya fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində "Elmi innovasiya və biotexnologiyalar: ekoloji tarazlığın davamlı təminatında yeni perspektivlər" mövzusunda dəyirmi masa keçirilib.***

Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsinin ümumbəşəri problemə çevrildiyini bildirib. Elmi innovasiyaların və biotexnologiyaların ekoloji tarazlığın qorunmasında və davamlı inkişafda oynadığı roldan bəhs edib.

Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova biotexnologiyaların müasir ekosistemlərə təsiri və bu sahədə yeni tədqiqat istiqamətləri barədə danışıb. Nazirliyin Mikrobiologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Pənah Muradov ekoloji tarazlığın qorunmasında mikrobiologiyanın rolu barədə geniş məlumat verib. Radiasiya Problemləri İnstitutunun Radiobiologiya laboratoriyasının müdiri, professor Elmixan Cəfərov radioaktiv çirklənmənin biomüxtəlifliyə təsiri və bu sahədə innovativ həll yolları ilə bağlı fikir mübadiləsi aparıb. İnstitutun baş elmi işçisi, professor Nəriman İsmayılov biotexnoloji innovasiyaların sənaye və kənd təsərrüfatında tətbiqinə dair son yenilikləri təqdim edib.

Dəyirmi masada gələcək əməkdaşlıq imkanları müzakirə edilib, iştirakçıların sualları cavablandırılıb.

Tədbirin sonunda iştirakçılar elmi innovasiyaların ekoloji problemlərin həllində oynadığı mühüm rolu vurğulayaraq, bu istiqamətdə daha geniş tədqiqatların aparılmasının vacibliyini qeyd ediblər.

# BDU-da "Elm günü"nə həsr olunmuş seminar

***Martın 18-də İnformasiya və sənəd menecmenti fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində növbəti elmi seminar keçirilib.*** Tədbirdə fakültənin professor-müəllim heyəti, tələbələri, magistrant və doktorantları, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əməkdaşları iştirak ediblər.

Elmi seminarda AMEA-nın "Elm" nəşriyyatının direktoru, Avropa Elmi Redaktorlar Assosiasiyasının Azərbaycan bölməsinin sədri, filologiya elmləri üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov "Azərbaycanda elmi ədəbiyyatın nəşr tarixi" mövzusunda məruzə edib. Natiq bildirib ki, ölkəmizdə məhz 27 mart tarixinin "Elm günü" kimi qeyd edilməsi AMEA-nın yaranması ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 aprel 2018-ci ildə imzaladığı Sərəncamla hər il martın 27-si Azərbaycanda "Elm günü" kimi qeyd edilir. O vurğulayıb ki, bugünkü tədbir AMEA-nın 80 və "Elm" nəşriyyatının 100 illik yubileylərinə həsr edilib.

Məruzədə Azərbaycanda elmi ədəbiyyatın nəşr tarixi ölkəmizdə elmin inkişaf mərhələləri və elmi təşkilatlanmanın formalaşması kontekstində şərh edilib: "AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli ötən əsri elmimizin təşkilatlanma mərhələsi adlandırır. O, 1923-1945-ci illəri başlanğıc, hazırlıq dövrləri, 1945-1969-cu illəri Akademiyanın təşkilatlanması və elmi əsaslarının formalaşdırılması, 1969-1982-ci illəri intibah dövrü kimi səciyyələndirir. 1983-1993-cü illər AMEA-nın tənəzzül və böhran mərhələsi, 1993-2003-cü illər quruculuq dövrü, 2003-2022-ci illər modernləşdirmə mərhələsi sayılır. 2022-ci ildən etibarən isə AMEA-da yeniləşmə və islahatlar dövrü başlayıb. Şübhəsiz ki, elmin inkişaf mərhələləri elmi ədəbiyyatın nəşr tarixinə öz təsirini göstərib".

Natiq "Elm" nəşriyyatının fəaliyyət göstərdiyi 100 il ərzində ölkəmizdə elmi ədəbiyyatın nəşrində-ki rolundan danışıb. Nəşriyyata müxtəlif illərdə rəhbərlik etmiş Ziya Bünyadov, Əjdər Xanbabayev, Faiq Məlikov, Şirindil Alışanlı kimi nüfuzlu ziyalıların xidmətlərindən bəhs edib.

Məruzədə elmi ədəbiyyatın nəşrinin akademik biliklərin sistemləşdirilməsi və yayılmasında mühüm rola malik olduğu diqqətə çatdırılıb, akademik nəşriyyat fəaliyyətinin elmin inkişafına, onun qlobal elm məkanına inteqrasiyasına, eləcə də tədqiqatların metodoloji cəhətdən beynəlxalq standartlara uyğunlaşmasına töhfə verdiyi qeyd edilib. Elmin inkişafının cəmiyyətin tərəqqisinin əsas göstəricilərindən biri olduğunu deyən məruzəçi bildirib ki, hər hansı bir sahənin formalaşması, ilk növbədə, həmin sahədə aparılan elmi-tədqiqatlar və onların geniş şəkildə yayımlanması ilə bilavasitə bağlıdır. Direktor elmi biliklərin sistemləşdirilərək cəmiyyətə təqdim edilməsinin məhz elmi nəşrlər vasitəsilə mümkün olduğunu vurğulayıb.

Məruzə seminar iştirakçıları tərəfindən maraqla qarşılanıb, mövzu ətrafında geniş müzakirələr aparılıb.

# 27 mart - Azərbaycanda "Elm günü"dür

***2018-ci il 9 aprel tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq, 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında Sərəncam imzalayıb.*** Hər il bu əlamətdar tarix ilə əlaqədar ölkəmizin ali təhsil müəssisələrində, elmi-tədqiqat institutlarında müasir elmin aktual problemlərinə həsr olunmuş silsilə tədbirlər - elmi konfranslar, seminarlar, simpoziumlar, mühazirələr, dəyirmi masalar keçirilir. Elmi fəaliyyət üzrə müsabiqələr təşkil olunur. Bu ənənə ölkə alimlərini bir araya gətirməklə əldə olunan elmi nəticələrin müzakirəsinə, fundamental və tətbiqi xarakterli birgə tədqiqatların aparılmasına, əldə edilmiş elmi nailiyyətlərin tanıdılmasına imkan yaradır.

Azərbaycanda elm və təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, dünya elminin tələblərinə cavab verən tədqiqatların aparılması, elmi-texniki potensialın inkişafı, eləcə də yüksəkixtisaslı kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizin davamlı inkişafı, iqtisadi, siyasi və hərbi qüdrəti təhsilin keyfiyyəti və səviyyəsi, həmçinin ölkənin elmi potensialı və bu sahələrdəki uğurları ilə bilavasitə bağlıdır.

Öz müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkəmizin davamlı inkişaf strategiyası, müasir dünyada baş verən qlobal siyasi, iqtisadi, sosial və ekoloji problemlər Azərbaycanın elmi əsaslar üzərində inkişafını zərurətə çevirib. Müstəqilliyimizin bərpasından keçən müddət ərzində dövlətin diqqət və qayğısı sayəsində ölkəmizdə elm və təhsil sahələri sürətlə inkişaf edib, bu istiqamətdə nailiyyətlər qazanılıb. Elmin inkişafı istiqamətində ardıcıl olaraq islahatlar həyata keçirilir. Elm və təhsilin inkişafı, elmi və elmi-pedaqoji kadr hazırlığı bütövlükdə ölkəmizin hərtərəfli inkişafının hərəkətverici qüvvəsinə çevrilib. Son illərdə ölkəmizdə milli maraqlara və bəşəri dəyərlərə əsaslanan müasir elm və təhsil sistemi formalaşıb. Ölkədə elmin nüfuzunun yüksəldilməsi, cəmiyyətin inkişafında elmin əhəmiyyətinin artırılması və elmi fəaliyyətin stimullaşdırılması istiqamətində bir sıra dövlət əhəmiyyətli tədbirlər icra olunur.

Elm və təhsilin inkişafına dövlət səviyyəsində göstərilən qayğı birbaşa olaraq dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsinə, xalqımızın tərəqqisinə və rifah halının yüksəldilməsinə xidmət edən məqsədyönlü siyasətin tərkib hissəsidir. Elm, təhsil və sənayenin məharətlə əlaqələndirilməsi, müasir texnologiyalar və innovasiyaların tətbiqi yolu ilə inkişaf etdirilməsi hazırda ən aktual və prioritet məsələdir. Bu gün Azərbaycanda məhz bu istiqamətləri əhatə edən dövlət siyasəti aparılır, iqtisadi potensialı intellekt kapitalına çevirmək sahəsində mühüm və davamlı işlər görülür.

Öz strategiyasında təhsil və elmi tədqiqatların sıx inteqrasiyasını, o cümlədən tələbələrin tədris praktikasının birbaşa olaraq tədqiqatla əlaqələndirilməsini əsas götürən Bakı Dövlət Universitetində hər il "Elm günü"nə həsr olunmuş Tədbirlər planı hazırlanaraq təsdiq edilir. Artıq beş ildir ki, 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş BDU əməkdaşları arasında "İlin alimi" nominasiyası üzrə müsabiqə elan olunur. "İlin alimi" müsabiqəsinin məqsədi BDU-nun il ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyəti ilə fərqlənmiş əməkdaşlarının mükafatlandırılmasıdır. "Elm günü" ilə əlaqədar BDU-nun bütün fakültələrində silsilə elmi seminarlar, elmi və elmi publisistik mühazirələr, ustad dərsləri təşkil olunur.

# "Azərbaycan Türk Ocağı"nın təsis etdiyi Qənirə Paşayeva adına mükafatın təqdimatı

***Martın 7-də Jurnalistika fakültəsində "Azərbaycan Türk Ocağı" İctimai Birliyinin təsis etdiyi Qənirə Paşayeva adına mükafatın təqdimat mərasimi keçirilib. Tədbir türk dünyasının böyük qızı Qənirə Paşayevanın anadan olmasının 50-ci ildönümünə həsr olunub.***

Tədbir iştirakçılarını salamlayan "Azərbaycan Türk Ocağı"nın rəhbəri Akif Aşırlı vurğulayıb ki, Qənirə Paşayevanın həyatı, fəaliyyəti, Vətən sevgisi gənclər üçün əsl örnəkdir. Qənirə Paşayevanın türk dünyasının birliyi üçün gördüyü mühüm işlər, fədakarlığı, milli mətbuatımızın inkişafında oynadığı rolu və 1918-1920-ci ildə fəaliyyət göstərmiş "Azərbaycan Türk Ocağı"nın bərpasında iştirakı bu mükafatın təsisi üçün ciddi əsas olub: "O, təkcə Azərbaycanın deyil, bütün türk dünyasının övladı idi. O, cəmiyyət qarşısına ilk dəfə jurnalist kimi çıxmışdı. Qənirə Paşayeva polemika mədəniyyətini ortaya qoyan, cəsarətli jurnalist kimi sevilirdi. O baxımdan "Azərbaycan Türk Ocağı" Qənirə Paşayevanın jurnalistika fəaliyyətini, bu sahəyə gətirdiyi dəyərləri yaşadacaq tələbələr arasından bir nəfəri seçərək mükafatlandırmaq qərarına gəldi və Qənirə Paşayeva adına mükafatı təsis etdi. Bu mükafat hər il Qənirə Paşayevanın anadan olmasının ildönümü günü Jurnalistika fakültəsinin ən seçilən tələbəsinə veriləcək".



Sonra Akif Aşırlı Qənirə Paşayevanın anadan olmasının 50-ci ildönümü münasibəti ilə təsis edilmiş diplom və pul mükafatını BDU-nun Jurnalistika fakültəsinin II kurs tələbəsi Banuçiçək Kəlbalıyevaya təqdim edib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu Qənirə Paşayevanın Jurnalistika fakültəsinə hər zaman böyük dəstək göstərdiyini qeyd edib: "Onun Jurnalistika fakültəsinə münasibəti başqa cür idi. Bu, onun jurnalistikanı sevməsindən irəli gəlirdi. Qənirə xanımla bağlı xatirələrim çoxdur. Onun ürəyi türk dünyası ilə döyünürdü. Bu yolda əlini daşın altına qoymaqdan qətiyyən çəkinmirdi. Qeyrətli, vətənpərvər bir xanım idi".

Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, dekan müavini Sevinc Əliyeva, Əməkdar artist Nuriyyə Hüseynova, rejissor Elnurə Kazımova, "Zəfər" liseyinin icraçı direktoru Tural Abasquliyev, Qənirə Paşayevanın bacısı Kəmalə Paşayeva Qənirə Paşayevanın türk dünyası və ölkəmiz qarşısında xidmətlərinin əvəzsiz olduğunu bildirib, onunla bağlı xatirələrini bölüşüblər.

# BDU-da sənəd menecmenti üzrə tədqiqatlar elmmetrik təhlil olunub

***Martın 6-da İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində elmi seminar keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov bildirib ki, Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında Prezident İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamına əsasən, hər il martın 27-si ölkəmizdə "Elm günü" kimi qeyd olunur. Ölkəmizdə elmin inkişafına dövlət tərəfindən ən yüksək səviyyədə diqqət və qayğı göstərildiyini vurğulayan natiq BDU-nun bu proseslərdə aktiv fəaliyyətindən bəhs edib. O, hazırda elmmetriya, elmmetrik təhlil kimi isiqamətlərin aktual olduğunu bildirib, bu sahədə qabaqcıl dünya təcrübəsinin öyrənilməsi və tətbiqinin zəruriliyini diqqətə çatdırıb, elmi seminarda təqdim olunan mövzunun xüsusi aktuallıq kəsb etdiyini vurğulayıb.

Sonra BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov "Sənəd menecmenti üzrə tədqiqatların elmmetrik təhlili" mövzusunda məruzə edib. Məruzədə qeyd olunub ki, sənəd menecmenti müasir informasiya idarəetməsinin mühüm komponentlərindən biridir: "Son illərdə bu sahədə elmi tədqiqatların sayı artıb, rəqəmsal texnologiyaların inkişafı ilə əlaqədar olaraq sənəd menecmentinin müxtəlif aspektləri əsaslı şəkildə araşdırılıb. Bu baxımdan sənəd menecmenti üzrə aparılan tədqiqatların elmmetrik təhlili və sahə üzrə elmi fəaliyyətin dinamikasının qiymətləndirilməsi məruzədə əsas vəzifələrdən biri kimi qarşıya qoyulub".

Tədqiqatda sənəd menecmenti sahəsində nəşr olunmuş elmi məqalələr, onların beynəlxalq elmi bazalarda ("Scopus", "Web of Science", "Google Scholar" və s.) indeksləşdirilmə dinamikası, əsas tədqiqat istiqamətləri, istinad göstəriciləri və elmi əməkdaşlıq şəbəkələri araşdırılıb. Elmmetrik göstəricilər əsasında bu sahədə ən çox sitat gətirilən məqalələr, aparıcı müəlliflər, nüfuzlu elmi jurnallar və aktual tədqiqat trendləri müəyyən edilib. Araşdırmada həmçinin sənəd menecmenti üzrə elmi tədqiqatların beynəlxalq səviyyədə inkişaf tendensiyası, bu sahədə elmi əməkdaşlıq şəbəkələrinin və akademik təsirin təhlili, rəqəmsal sənəd idarəetmə sistemlərinin rolu və perspektivləri kimi vacib istiqamətlər öyrənilib.

Elmi seminar müzakirələrlə davam edib.

# Audiovizual Şura BDU tələbələri üçün növbəti seminar təşkil edib

***Martın 5-də Audiovizual Şura Jurnalistika fakültəsinin tələbələri üçün növbəti seminar təşkil edib. Tədbir BDU, Audiovizual Şura, Medianın İnkişafı Agentliyi arasında imzalanmış anlaşma memorandumu çərçivəsində keçirilib.***

Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova belə seminarların tələbələrin praktiki biliklərinin inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu deyib. O bildirib ki, audiovizual media və onun tənzimlənməsi məsələləri gənc jurnalistlər üçün həmişə aktual və öyrənilməsi vacib məsələdir.

Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev Şuranın fəaliyyəti barədə geniş məlumat verib, media sahəsində baş verən yeniliklər, ənənəvi və yeni media, vətəndaş jurnalistikası haqqında danışıb.

Audiovizual Şuranın Hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Ayxan Sadıqlı "Azərbaycanda audiovizual media və onun tənzimlənməsi" mövzusunda təqdimatla çıxış edərək, tələbələrə audiovizual media subyektləri və onların fəaliyyəti, mediada yayımlanan informasiyaya qoyulan tələblərdən söz açıb. Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.




# Son üç ildə Jurnalistika fakültəsinə qəbul sayı 3,4 faiz artıb

***Jurnalistika fakültəsinin son üç ildə elm və tədris göstəriciləri artıb. 2022/2023-cü tədris ili ilə müqayisədə 2024/2025-ci tədris ilində fakültəyə qəbul olunanların sayı 3,4% artıb, plan yeri 97 faiz dolub.***

Fakültədə Türkiyənin Üsküdar Universiteti, Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiyalar Universiteti, Qazaxıstanın L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin Jurnalistika kafedrası, Bolqarıstanın Sofiya Universiteti, Rusiyanın Sankt-Peterburq Universitetinin Jurnalistika kafedrası, Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsi ilə sıx əməkdaşlıq əlaqələri qurulub. Müxtəlif ölkələrin media mənsubları tərəfindən fakültədə mütəmadi olaraq ustad dərsləri, seminarlar, praktik məşğələlər keçirilir.

Son 5 ildə fakültə əməkdaşları tərəfindən xaricdə dərc olunmuş məqalə sayı 2 dəfə artıb. Ümumilikdə fakültə üzrə 2024-cü il ərzində 62 elmi məqalə, 55 tezis, 2 metodik vəsait, 2 məqalələr toplusu, 2 proqram, 1 kitab, 1 monoqrafiya dərc edilib.

Fakültənin elmi fəaliyyətində seminar və konfranslar da mühüm yer tutur. 2024-cü ildə Bakı Dövlət Universiteti və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə "İnformasiya müharibəsi: COP29 ərəfəsində Azərbaycana qarşı informasiya hücumlarının məqsəd və mahiyyəti" mövzusunda dəyirmi masa, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmlinin 70 illik yubileyinə həsr olunmuş "Azərbaycan televiziyası müstəqillik illərində: əsas inkişaf tendensiyaları" mövzusunda elmi sessiya, görkəmli alim və mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan mediası: tarix və müasirlik" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Ölkənin müxtəlif dövlət və özəl media subyektləri ilə daimi əməkdaşlıq edən Jurnalistika fakültəsində tələbələrin praktik bacarıqlarının artırılması və əmək bazarı üçün yüksəkixtisaslı və peşəkar jurnalist kadrlarının hazırlanması, günün tələblərinə cavab verən biliklərin öyrədilməsi məqsədilə 2024-cü il ərzində 4 yeni ixtisaslaşmış otağın - Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurasının xüsusi auditoriyaları, "ARB24" telekanalının "NewsLab" təlim otağı və "Xalq qəzeti"nin debat otaqlarının açılışı olub.

# Küsülüləri barışdıran, xoş sözlər danışılan çərşənbə

***Novruz bayramının ən təntənəli mərasimləri axırıncı çərşənbədə keçirilir. Torpaq çərşənbəsi adlanan sonuncu çərşənbə bayrama daha yaxın olduğu üçün insanlar tərəfindən xüsusi qeyd edilir. Bu çərşənbə xalq arasında "Yer çərşənbəsi", "İlaxır çərşənbə", "Çərşənbə-suri" adları ilə də tanınır.***

Torpaq ünsürü insan yaradılışının əsasını təşkil edir. Torpaq həm türk mifologiyasından, həm də milli-mənəvi dəyərlərimizdən qaynaqlanaraq müqəddəs hesab olunur. Hələ qədim dövrlərdən bəri insanın ən böyük andı torpağa ünvanlanıb: "Torpaq haqqı", "Torpağı sanı yaşayasan". Torpaqla bağlı yaranan el sözləri də maraq doğurur. "Torpaqdan pay olmaz", "Torpaq deyir: "Səndən hərəkət, məndən bərəkət", "Torpaqla oynayan ac qalmaz" və s.

Türk mifologiyasına görə, yatmış Torpaq oyanaraq insanları aclıqdan qurtarır. Bir el rəvayətinə görə, Xızır qardaşı, torpaq sahibi Zındanı donmuş halda, qar altından tapır, öz isti nəfəsilə qızdırır. Zinda qar altından çıxaraq itmiş öküzünü tapır, Xızır isə qızıl kotanla boyunduruğu qardaşına verir. Onlar çərşənbələşir, torpağı oyatmağa çalışırlar.

Səsləndi xoruz banı,
Açıldı sübhün danı,
İlin yaz fəsli gəldi,
Qızdı torpağın canı.

Torpaq çərşənbəsində əkinçilər əkin-biçinə başlayır. Torpaq şumlanır, toxumlar səpilir. İnanca görə, əcdadlarımız həmin çərşənbədə tarlaya çıxar, torpağı şumlayar, bunu edə bilməyənlər isə heç olmasa torpağı 2-3 dəfə belləyərdilər. Burada məqsəd torpağı yuxudan oyatmaq və artıq əkinçilik vaxtının yetişdiyini xəbər verməkdir. Qədimdən gələn digər bir adətə görə, axır çərşənbə günü qadınlar, qızlar çilələrini tökmək üçün çay kənarına yollanar və sudan tullanarmışlar. Həmin gün axşam vaxtı tonqallar qalanır, hamı od ətrafına yığışaraq onun



istisinə qızınmağa çalışır.

Torpaq çərşənbəsinin də özünəməxsus inancları, xüsusiyyətləri var. Torpaq çərşənbəsində insanlar öz qohumlarına qonaq gedir, dünyalarını dəyişmiş yaxınlarının qəbirlərini ziyarət edirlər. Əcdadlarımız çərşənbə və bayram günlərində ruhların qayıdıb gəlməsinə inanıblar. Ruhların şad olması üçün bu dünyaya qayıdarkən ev sakinlərini, əzizlərini şən əhval ruhiyyədə görməsi əsas şərtlərdən idi. İnanca görə, ruhun evdən-ocaqdan bikef qayıtması uğursuzluq əlamətidir.

Evin bərəkətli olması üçün əcdadlarımızın həyata keçirdiyi rituallardan biri axır çərşənbədə un çuvallarının ağzını açıq qoymaqdır. Ev sahibinin heç kimlə danışmadan əllərini una batıraraq divarlara sürtmək, bayıra çıxıb ağacların kötüyünü balta ilə yüngülcə vuraraq "oyan, payını götür" deməsi bu ayinin tərkib hissəsidir. Əcdadlarımız inanmışlar ki, bu cür edilərsə, yeni ildə qış yuxusundan oyanmış ağacların bəhəri bol olacaq. Heç bar verməyən ağacları isə "kəsəcəyəm" deyə balta ilə hədələyir və bu zaman kənarda durmuş bir adam "kəsmə, bu ağac bar verəcək, zaminəm" deyir.

Bu çərşənbədə evdən od, neft, kibrit, ağartı qidaları verilməsi düzgün hesab olunmur. Axır çərşənbə öz falları ilə əlamətdardır. Axır çərşənbə süfrəsindəki yeyilən balığın sümüyü ilə ilk övladın qız və ya oğlan olmasını, üzük ilə subayların evlənmə vaxtını təyin etmək fal inanclarındandır. İlaxır çərşənbədə bir yerə yumurta, kömür, cövhər basdırar və niyyət edərlərmiş. Yumurta kömür ilə yazılarsa, niyyət yaxşı gələr. Sonra onları ərik ağacının altında basdırmaq lazımdır.

Sürü deyil, naxırdı,
Qazan dibi paxırdı.
Sonuncu çərşənbənin
Öz adı İlaxırdır.

İlaxır çərşənbənin ən maraqlı adətlərindən biri də oğlanların sevgilərini etiraf etmək üçün bacadan şal sallamasıdır. Ucuna balaca dəsmal bağlanmış şal bacadan sallanar, evin böyükləri yaylığı açıb şalı qızın qoluna bağlayarlarsa, bu, razılıq əlaməti demək idi. Əgər razı deyillərsə, həmin dəsmala şirniyyat qoyub onu geri qaytararlarmış.

İlaxır çərşənbədə subay qızlar bir çox fallara baxar, qismətlərinin necə, həyat yoldaşlarının kim olacağını, neçə yaşında ərə gedəcəklərini öyrənərlər. Bu fallar su, şam, üzük, iynə və başqa əşyalarla icra olunur. Məsələn, gənc qızlar yanan şamı suya tərəf əyir və neçə yaşı varsa, o qədər damcıladır. Alınacaq hərf gələcək həyat yoldaşının adının baş hərfi ilə eyniləşdirilir. İnanca görə, gənc qızlar duzlu kökə yeyib və ya on alma toxumunu başının altına qoyub qismətlərindəki gələcək həyat yoldaşını yuxuda görürlər. Axır çərşənbə axşamı qız sağ başmağını burub qapı ağzında başının üstündən atır. Başmağın pəncə hissəsi üz üstə, qapıya tərəf düşsə, həmin il o qızın nişanlanacağına işarədir.

İlaxır çərşənbədə küsülülər barışmalı, hamı təzə paltar geyinməli, xoş sözlər danışmalıdır. Bu çərşənbədə niyyət tutub qulaq falına çıxır, eşitdikləri sözlə niyyətlərini yozurlar.

Torpaq çərşənbəsində süfrələr daha da təmtəraqla bəzədilir. Bəzi bölgələrdə aşla bərabər, dolma, balıq bişirilməsi vacib hesab olunur. Süfrəyə səməni, şamlar, şirniyyatlar, qoz-fındıq, bir çox çərəzlər, qovurğa qoyulur. Çərşənbə, bayram xonçasına qoyulan şirniyyatların da rəmzi mənaları var. Süfrəyə qoyulan qoğalı Günəşin, istiliyin, şəkərburanı hilalın - Ayın, paxlavanı isə ulduzun yerdəki rəmzi kimi götürmək olar. Şirniyyatların süfrəyə qoyulması ilin bərəkətli, ruzili və şən keçməsini mənalandırır.

Süfrəyə yeddi cür nemətin qoyulması müqəddəs sayılan yeddi rəqəminin uğur gətirəcəyinə işarədir. Azərbaycanın bir sıra bölgələrində İlaxır çərşənbənin "Yeddilərin bayramı" adlandırılması bununla əlaqəlidir. Süfrəyə qoyulan bu yeddi nemətin İslamdan öncə "ş", İslamın qəbulundan sonra "s" hərfi ilə başlaması maraq doğurur. Lap qədimlərdə son çərşənbədə süfrəyə qoyulan şərbət, şabalıd, şor, şəkər, şam, şirni, şərab, İslamdan sonra su, süd, səməni, səbzə, sumaq, sarıkök, sünbül kimi nemətlərlə əvəzlənib.

Süfrədəki qırmızı qurşaqlı səməni isə öz yaşıl görkəmi ilə daha çox diqqət cəlb edir. Qurşağın qırmızı rəngdə olması sadlığı simvolizə edir. Göyərdilmiş səməni yaradılışı və qadın başlanğıcını bildirir. Belindəki qırmızı qurşaqla səməni gəlini də xatırladır. Səməni ilə bağlı xalq arasında ovsun da var. İnsanlar səməni ovsunu ilə pis taleyi dəyişdirmək istəyər, buna sidqi-ürəkdən inanar. Səməni ovsununda oğul-qız sahibi olmuş qadın göyərdilmiş səməni ilaxır çərşənbə günü uşağı olmayan, çilləyə düşmüş sayılan qadının başı üstə saxlayır. O, bulaqdan, çaydan gətirilmiş "çərşənbə suyu"ndan bu səmənin üstündən çilləli qadının üstünə axıdır. Övlad sahibi olan başqa bir qadın çillәlinin üstünə axıdılan bu suyu qayçı ilə doğraya-doğraya deyir:

Arpa, buğda dənidi,
Göyərən səmənidi,
Kəsdim, gəlin, çilləni,
Övlad vermək dəmidi.

Başqa bir variantda "A səməni göyərdən, bu gəlini də göyərt" də söylənilir. Burada axıdılan suyu isə kişi başlanğıcı kimi götürmək olar.

Səməni nəziri adəti də bu günə kimi ötürülüb. Qəlbində bir niyyəti olan adam qablara buğda töküb göyərtdirir, cücərtiləri əzib şirəsini çıxarır, şirəyə bir az su əlavə edib, iki-üç gün qaynadır, qoz-fındıq ləpəsi qatır, xonça sinilərinə töküb yayır. Bu xonçaları həyətdə qoyur, bütün gecəni dua edirlər. Səhər həmin bişmişin dadına baxırlar. Əgər bu bişmiş şirin olursa, bu, niyyətin qəbul olunduğu anlamına gəlir.

Səmənidən halvanı da bu ayindəki kimi düzəldirlər. Səməni halvasına bəzən "suhan halvası" və ya "İsfahan halvası" da deyirlər. Ekoloji cəhətdən təmiz olan bu halva çox faydalıdır.

İlaxır çərşənbələrlə bağlı adət-ənənələr tarixən çox qədim və zəngin olub, lakin təəssüf, zaman keçdikcə müasirləşən həyatın təsiri ilə unudulub, bəziləri isə başqa bir forma alıb.

**_Səhər Orucova,_**
*BDU, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor*

## BDU-da petrologiya və filiz geologiyasının aktual problemləri araşdırılır

***Martın 11-də Geologiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Ümumi və tarixi geologiya kafedrasının müdiri, professor Nazim İmamverdiyevin "Petrologiya və filiz geologiyasının aktual problemləri" mövzusunda elmi seminarı keçirilib.***

Məruzəçi maqma anlayışı, onun kristallaşma şəraiti, təkamülü, maqmatik süxurların təsnifatı və əmələgəlmə səbəbləri, formalaşmasında geokimyəvi məlumatlardan istifadə barədə məlumat verib, filiz yataqlarının təsnifatına müasir yanaşma və genezisinin müasir modellərini iştirakçıların diqqətinə çatdırıb.

Professor Nazim İmamverdiyev qeyd edib ki, maqmatik süxurları öyrənərkən dəqiq geokimyəvi analizlərin nəticələrindən istifadə etmək tövsiyə olunur. Belə dəqiq analizlərin köməyi ilə maqmatik süxurların hansı geodinamik şəraitdə formalaşması müəyyən edilir, genetik petroloji modellər qurulur. Filiz yataqları öyrənildikdə isə onların epitermal, porfir-epitermal yataq tiplərinə aid olması müəyyənləşdirilməlidir. Daha sonra isə onların aşağı və ya yüksək sulfid tiplərinə aid olması, dəqiq genetik təsnifatı aydınlaşdırılmalıdır. Məhz bu tiplərin dəqiqliklə müəyyən edilməsi yeni yataqların kəşf edilməsinə yardım edə bilər.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

## Psixoloji yardım sektoru "Özümüz kimi olmağa mane olan 5 travma" adlı təlim keçib

***Martın 6-da Bakı Dövlət Universitetinin Psixoloji yardım sektoru tələbələrə "Özümüz kimi olmağa mane olan 5 travma" adlı təlim keçib.***



Mərkəzin psixoloqu Natəvan Həsənzadə qeyd edib ki, travma insanın fiziki və ya psixoloji sağlamlığına ciddi təsir edən, təhlükə, qorxu, dəhşət və ya güclü narahatlıq hissləri ilə müşayiət olunan bir hadisəyə və ya təcrübəyə verilən reaksiyadır. Travmalar tək bir hadisədən deyil, təkrarlanan təcrübə və ya uzunmüddətli stresdən qaynaqlana bilər. İnsanın şəxsiyyət kimi formalaşmasına və davranışına təsir edən travmalar adətən uşaqlıqda və ya erkən yaşlarda yaşanan mənfi təcrübələr nəticəsində yaranır və yetkinlik zamanı onun sağlamlığına, münasibətlərinə, özünəinamına təsir edir. Psixoloq daha sonra travmaların növləri, qarşısının alınması yolları barədə məlumat verib. Təlim zamanı tələbələr travmaların davranış, münasibətlər və sağlamlıq üzərindəki təsirini araşdırıb, psixoloji testlər ediblər.

# BDU-dan Qars Qafqaz Universitetinin nəzdindəki Heydər Əliyev Təhsil Mərkəzinə və İğdır Azərbaycan Evinə kitab hədiyyəsi

***Martın 6-da BDU Türkiyənin Qars şəhərində fəaliyyət göstərən Qars Qafqaz Universitetinin nəzdindəki Heydər Əliyev Təhsil Mərkəzinə və İğdır Azərbaycan Evinə kitablar hədiyyə edib.***




Azərbaycan Respublikası Diasporailə İş üzrə Dövlət Komitəsinin BDU-ya müraciətinə əsasən, Elmi Kitabxananın Mübadilə-ehtiyat fondundan ümumilikdə 336 nüsxə nəşr Qars və İğdır şəhərlərinə çatdırılması üçün Komitənin nümayəndəsinə təqdim edilib. Qarşı tərəfin sorğusuna uyğun olaraq hədiyyə edilən kitabların arasında BDU-nun 44 günlük Vətən müharibəsindən bəhs edən nəşrləri, "Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət" kitabı, "Heydər Əliyev - 100" biblioqrafik məlumat kitabı, universitetin 100 illik yubileyi münasibətilə nəşr edilmiş kitablar da yer alıb.

Hədiyyə olunan kitablar Türkiyənin Şərqi Anadolu bölgəsi, xüsusilə Qars və İğdır şəhərlərinin Qərbi Azərbaycan əsilli soydaşlarının milli özünəməxsusluğunu qoruyub saxlaması və inkişaf etdirməsi, eləcə də Azərbaycanda nəşr olunan kitablara əlçatanlığının təmin olunması üçün ciddi əsaslar yaradacaq.

Həmçinin, Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən BDU-nun tələbə və müəllimlərinin istifadəsi üçün Elmi Kitabxanaya Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə yardımı ilə çap edilmiş "Heydər Əliyevin sevimli musiqi inciləri", "Azərbaycan musiqisinin inciləri" adlı toplular, "Azərbaycan dili" adlı tədris vəsaiti, ingilis dilində nəşr edilmiş Azərbaycanın tarixi-coğrafi atlası və s. nəşrlər hədiyyə edilib.

# BDU-da D.Serikbayev adına Şərqi Qazaxıstan Texniki Universitetinin rektoru ilə görüş

***Martın 5-də Qazaxıstanın D.Serikbayev adına Şərqi Qazaxıstan Texniki Universitetinin rektoru Saule Raxmetullinanın rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***



Rektor Elçin Babayev ölkələrimiz arasında yüksək səviyyəli əlaqələrin elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə əlverişli əməkdaşlıq imkanları yaratdığını bildirib. O, BDU-nun D. Serikbayev adına Şərqi Qazaxıstan Texniki Universiteti ilə xüsusilə kibertəhlükəsizlik, kompüter texnologiyaları, geologiya, nanotexnologiyalar üzrə əməkdaşlıqda, magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramları imzalamaqda maraqlı olduğunu diqqətə çatdırıb. BDU-nun 16 fakültəsindən 8-nin təbiət və dəqiq elmlər üzrə fəaliyyət göstərdiyini vurğulayıb. Qeyd edib ki, hər iki universitet bu elm sahələri üzrə birgə elmi tədqiqatlar apara, elmi nəşrlər hazırlaya, ortaq beynəlxalq konfranslar keçirə bilər.

Rektor Saule Raxmetullina D. Serikbayev adına Şərqi Qazaxıstan Texniki Universitetinin Qazaxıstanın əsas mühəndislik universitetlərindən biri olduğunu, burada 5 fakültənin fəaliyyət göstərdiyini deyib. O, müxtəlif elm sahələri üzrə akademik mobilliyi, müəllim-tələbə mübadiləsini genişləndirməyi təklif edib. Görüşdə BDU və D. Serikbayev adına Şərqi Qazaxıstan Texniki Universiteti arasında elm və təhsil sahəsində əlaqələrin genişləndirilməsi, tələbə-müəllim mübadiləsinin və ikili diplom proqramının həyata keçirilməsi barədə müzakirələr aparılıb.

# AZƏRTAC-ın redaktoru Nərminə Məmmədova Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb

***Martın 5-də Jurnalistika fakültəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) redaktoru Nərminə Məmmədova ilə görüş keçirilib.***



Fakültənin elmi işlər üzrə dekan müavini, dosent Sevinc Əliyeva fakültədə aparıcı media orqanlarının nümayəndələri ilə müntəzəm görüşlərin keçirildiyini deyib. Qeyd edib ki, belə görüşlər tələbələrin praktik bacarıqlarının artırılması və real iş mühiti ilə tanış olmaları baxımından faydalıdır.

Nərminə Məmmədova AZƏRTAC-ın timsalında informasiya agentliklərinin iş prinsipi, xəbərin hazırlanma qaydaları, öz təcrübəsindən söz açıb. Media sahəsində fərqlənməyin və uğurlu jurnalist olmağın yollarını izah edən qonaq bildirib ki, mövzunun dərindən araşdırılması, faktlara əsaslanması, operativ, dəqiq təqdim edilməsi peşəkarlıq səviyyəsini artıran əsas məsələlərdir.

Görüş tələbələrin praktik istiqamətdə olan suallarının cavablandırılması ilə başa çatıb.

# BDU-da "Elm günü" ilə bağlı seminar keçirilib

***Fizika və Mexanika-riyaziyyat fakültələrinin 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş birgə seminarı keçirilib. Seminarda Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun Nüvə və yüksək enerjiler fizikası laboratoriyasının rəhbəri, professor Şakir Nağıyevin "Kvant mexanikasında trayektoriyalar üzrə Feynman inteqralları haqqında" adlı məruzəsi dinlənilib.*** O, kvant mexanikasının bir neçə riyazi formasının mövcud olduğunu diqqətə çatdırıb, bu elmi istiqamətin ilk olaraq Verner Heyzenberqin matrisa mexanikası və Ervin Şredingerin dalğa mexanikası şəklində yarandığını qeyd edib.

XX əsrin 60-cı illərində tanınmış amerikalı nəzəri fizik Riçard Feynman kvant mexanikasına öz yanaşmasını təklif edib. O, öz yanaşmasında trayektoriyalar üzrə inteqralı əsas götürüb. Riçard Feynmanın şərhində hadisələrin kvant nəzəriyyəsi sonsuz sayda klassik fəza-zaman trayektoriyalarının təbii ümumiləşməsi kimi ortaya çıxır və bu trayektoriyalardan hər biri kvant zərrəciyinin A nöqtəsindən B nöqtəsinə keçidinin ümumi ehtimalına özünün müəyyən bir payını verir.

Şakir Nağıyev Riçard Feynmanın hansı eksperimental nəticələr və nəzəri mühakimələr nəticəsində trayektoriyalar üzrə inteqral anlayışına gəlib çıxdığını izah edib.

Seminarın sonunda müzakirələr aparılıb.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 15 şagirdi Respublika Fənn Olimpiadasının finalında!

***Respublika Fənn Olimpiadalarının respublika mərhələsinin yarımfinal turunun nəticələri açıqlanıb.***

BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 15 şagirdi - Elman Kərimli, Uğur Quluzadə, Fidan Həşimova, Samil Əli, Yusif İbrahimzadə, Cabir Abbasov, Cahangir Zeynallı, Ayxan Məmmədli, Emilya Ağayeva, İbrahim İbrahimzadə, Tofiq Vəliyev, Alikamal Həsən, Turqut Hüseynli, Sulduz Hacıyev, Cəsur Rəsulzadə olimpiadanın finalına vəsiqə qazanıb. Onlardan 11-i Azərbaycan, 4-ü isə rus bölməsi üzrə təhsil alır.

Olimpiadaların təşkil edilməsində məqsəd istedadlı uşaqların aşkar edilməsi, şagirdlərdə fənlərə olan marağın artırılması, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə imkan yaradılmasıdır.

Şagirdlərimizi təbrik edir, final mərhələsində daha böyük uğurlar arzulayırıq!

# "TEDx" formatında görüş

***Martın 14-də BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) nəzdində fəaliyyət göstərən Natiqlik Klubu tərəfindən "TEDx" formatında görüş keçirilib.***

Görüşdə çıxış edən spikerlər - Rəvanə Quliyeva motivasiya, Ayşə Cəfərli fərdi inkişaf, Səbuhi Haqverdiyev düşüncələr və dillər arasındakı incə əlaqələr, Nurgül Əlizadə isə ekoloji problemlər kontekstində karbon qazının əhəmiyyəti və onun müasir ekosistemlərə təsirinə dair təqdimatlarla çıxış ediblər.

# Fədakarlıq, zəriflik bayramı

*8 mart - Beynəlxalq Qadınlar Günüdür.*

Azərbaycan qadını deyəndə göz önünə fədakarlıq, zəriflik, məğrurluq gəlir. Qadınlarımız tarixin bütün dönəmlərində cəmiyyətin hərəkətverici qüvvəsi, milli-mənəvi dəyərlərimizin əsas daşıyıcısı olub. Belə bir məşhur deyim var: "Hər güclü kişinin arxasında bir güclü qadın dayanır". Bu deyimi bir qədər dəyişsək, "Hər güclü cəmiyyətin arxasında güclü qadınlar dayanır". Öz ayaqları üstündə dayana bilən, bilikli, intellektual qadın güclü övlad, qüdrətli dövlət və uğurlu gələcək deməkdir.

Bu bayram 1910-cu ildən bəri dünyada qadınlara sevgi və hörmətin rəmzinə çevrilib. Bütün dünyada ilk dəfə qadınların səsvermə hüququnu tanımış ölkə kimi Azərbaycanda gender siyasəti, qadınların ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirakı əsas prioritetlərdən birini təşkil edir.

1998-ci ildə Azərbaycanda indiki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tamhüquqlu üzvüdür.




1995-ci ildən ölkəmiz qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub.

Ulu Öndər Heydər Əliyev Azərbaycan qadınlarına həmişə yüksək qiymət verib, onları cəmiyyətin hərəkətverici qüvvəsi adlandırıb: "Mən bütün fəaliyyətimdə həmişə qadınlara arxalanmışam, onları özümün dayağım hesab etmişəm. Bunlar sadəcə sözlər deyildir, mən onları sınaqdan keçirmişəm. Mənim həyatımın çox ağır və çətin anları olubdur. Bütün bu mərhələlərdə qadınlar özlərini həmişə çox etibarlı göstəriblər və sınaqlardan şərəflə çıxıblar... Mən əminəm ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunda, iqtisadi islahatlarda və digər proseslərdə siz həmişə fəal olacaqsınız və ön sıralarda gedəcəksiniz".

Ulu Öndərin bu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan qadınları dövlətin bütün strukturlarında ləyaqətlə təmsil olunurlar.

Cəmiyyətin hər zaman nümunələr yaradan şəxsiyyətlərə ehtiyacı var. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva ölkəmiz və ümumilikdə dünya qadınları üçün belə bir nümunədir. O, öz çoxşaxəli fəaliyyəti ilə Azərbaycan qadınının simvoluna çevrilib. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxsaylı layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi və yüksək əxlaqi dəyərlərə malik olduğunun bariz nümunəsidir. Qadınların dövlət strukturlarında iştirakını təmin etmək və onları həyatın bütün sahələrində fəal iştiraka cəlb etmək cəmiyyətin davamlı inkişafının bir hissəsinə çevrilib.

44 günlük Vətən müharibəmiz, suverenliyimizi bərpa etməyimiz, Qələbəni qanı-canı ilə yazan oğullar Azərbaycan qadınlarının necə nəhəng, müqəddəs bir missiyanı şərəflə daşıdıqlarını ortaya qoydu. Vətən üçün müdafiəçilər yetişdirmək Azərbaycan qadınlarının ən ali missiyasıdır.

Azərbaycanın ən böyük ali məktəbi olan BDU-da tələbələrin təxminən 70, işçi heyətin isə 65 %-ini qadınlar təşkil edir.

Əziz qadınlar! Sizi 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, sizə ailə səadəti, qadın xoşbəxtliyi, işlərinizdə uğurlar arzulayırıq!

# BDU-da Beynəlxalq Qadınlar Gününə həsr olunan tədbir keçirilib

*Martın 7-də BDU-da 8 mart - Beynəlxalq Qadınlar Gününə həsr olunan tədbir keçirilib.*

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Beynəlxalq Qadınlar Günü münasibətilə bütün qadınları, eləcə də Universitetin xanım əməkdaş və tələbələrini təbrik edib.

Əliş Ağamirzəyev qeyd edib ki, Azərbaycan Şərqdə ilk dəfə qadınların hüquqlarını tanıyan, onlara seçmək və seçilmək hüququ verən dövlətdir. Azərbaycan qadını tarix boyu öz mübarizliyi ilə seçilib, ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak edib, Vətənin müdafiəsində və dövlətin idarə olunmasında daim fədakarlıq nümayiş etdirib. Ülvilik, zəriflik, gözəllik rəmzi olan Azərbaycan qadını dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və incəsənət adamları, tanınmış siyasi xadimlər bəxş edib. Azərbaycan xanımının mərdliyi, dözümü, səmimiliyi, paklıq və sadəqəti, vəfa və isməti ən ali dəyər kimi həmişə qiymətləndirilib. Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyət həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə hörmət və ehtiramla yanaşıb. Bu gün qadınlarımız cəmiyyətin həyatında çox fəal rol oynayaraq, övladlarının sabahı, Vətənimizin rifahı uğrunda səylə çalışırlar. Onların uğurlu fəaliyyəti üçün ölkədə hər cür şərait yaradılıb. Azərbaycan qadını ölkəmizi bütün dünyada ləyaqətlə təmsil edir, mötəbər kürsülərdən çıxış edir.



BDU-nun prorektoru vurğulayıb ki, hazırda BDU-da təhsil alan tələbələrin təxminən 70%-i, əməkdaşların 65%-ə qədərini qadınlar təşkil edir. BDU-nun Azərbaycan təhsilinin, elminin avanqardı olmasında xanım əməkdaşların elmi, pedaqoji potensialının mühüm yeri var: "Əziz xanımlar, elmi və təhsil fəaliyyətinizə, bir Azərbaycan qadını kimi fədakarlığınıza, nəcibliyinizə, qorxmazlığınıza və gözəlliyinizə görə hər birinizə təşəkkürümüzü bildiririk".

BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı Ələkbər Əliyev, Jurnalistika fakültəsinin misirli doktorantı Ehab Mohammed Jaber, Tarix fakültəsinin III kurs tələbəsi Əli Ələkbərli çıxışlarında ölkəmizdə qadınlara göstərilən yüksək diqqət, dəyər və qayğıdan, onların layiqli tribunalarda Azərbaycanı necə şərəflə təmsil etdiklərindən söz açıblar.

Tədbirin sonunda BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı bədii proqram nümayiş olunub.

# BDU THİK "Tələbə evi"ndə yaşayan xanımları təbrik edib

*Martın 7-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) üzvləri 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə BDU-nun "Tələbə evi"ni ziyarət ediblər.*

Ziyarət zamanı "Tələbə evi"ndə yaşayan xanım tələbələrə bayram münasibətilə gül dəstələri təqdim olunub. Tələbələr üçün çay süfrəsi təşkil edilib.



# Xalq şairi Fikrət Qocanın 90 illik yubileyinə həsr olunmuş tədbir

*Martın 6-da Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə Xalq şairi Fikrət Qocanın 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.*



Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov görkəmli şairin mənalı ömür yolundan və zəngin ədəbi-bədii yaradıcılığından danışıb. O, şairin şeirlərində Vətənə məhəbbətin, vətənpərvərlik duyğularının saf təcəssümünün öz əksini tapdığını bildirib.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Yeganə Xanlarova Fikrət Qocanın həyatı və fəaliyyəti barəsində geniş məlumat verib, onu ötən əsrin 60-cılar nəslinin poetik axtarışları və novatorluğu ilə seçilən nümayəndəsi, fədakar ziyalı, fəlsəfi-intellektual təfəkkürə malik, milli, çağdaş ruhlu şair kimi xarakterizə edib.

Fakültənin TGT sədri Hümbət Bədəlov Fikrət Qocanın yaradıcılığına dair "Qalacaq" adlı məruzə edib. Tələbələrin ifasında şairin şeirləri və sözlərinə yazılmış musiqilər səsləndirilib. Sonda ədibin yaradıcılığı haqqında videoçarx nümayiş olunub.

# "Respublika Dövlət Elmi Tibb Kitabxanasının fəaliyyət istiqamətləri" - BDU-da elmi seminar



***Martın 12-də İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində növbəti elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının müəllimi Hicran Zeynalova "Respublika Dövlət Elmi Tibb Kitabxanasının fəaliyyət istiqamətləri" mövzusunda məruzə edib.

Məruzədə 1939-cu ildən fəaliyyət göstərən kitabxananın formalaşması və inkişafı tarixinə nəzər salınıb. Tədqiqatçı Respublika Dövlət Elmi Tibb Kitabxanasının xüsusi oxucu kontingentinə malik olduğunu diqqətə çatdırıb, kitabxananın fəaliyyətinin spesifikasından, burada istifadə olunan iş metodlarından bəhs edib: "Kitabxana sahə üzrə mütəxəssislərə, tibb sahəsində tədqiqat aparan şəxslərə, müvafiq təhsil müəssisələri və elmi tədqiqat institutlarına, tibb təhsili alan tələbələrə kitabxana xidməti göstərən aparıcı mərkəzdir".

Tədqiqatda Respublika Dövlət Elmi Tibb Kitabxanasının fəaliyyət istiqamətləri geniş şəkildə öyrənilib, kitabxananın strukturu, sənəd dövriyyəsi, kitab fondu, komplektləşdirilmə mənbələri, oxucu sayı, kitabxanada təşkil edilən müxtəlif tədbirlər, sərgilər, qurumun elmi-metodiki fəaliyyəti və bir sıra layihələri təhlil olunub. Kitabxanada həyata keçirilən elektronlaşdırma proseslərindən bəhs edən məruzəçi kataloqlaşdırma sistemlərini inkişaf etdirmək üçün yeni texnologiyaların və metodların tətbiqinin davamlı olaraq təkmilləşdirilməsinin vacibliyini vurğulayıb, bu sahədə dünya təcrübəsini diqqətə çatdırıb, bir sıra müqayisəli təhlillər aparıb.

Respublika Dövlət Elmi Tibb Kitabxanasının iş təcrübəsi əsasında hazırlanmış məruzə müzakirələrlə davam etdirilib.

# BDU-da "Şərq elmi-nəzəri, filoloji fikri və onun poetika sahəsi" mövzusunda ustad dərsi

***Martın 11-də Şərqşünaslıq fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbir keçirilib.***

Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə "Elm günü"nün təsis edilməsi haqqında 2018-ci il 9 aprel tarixli Sərəncamının elmin inkişafı və təbliğinə göstərilən diqqətin bariz nümunəsi olduğunu vurğulayıb. Son illər ölkəmizdə elmin nüfuzunun yüksəldilməsi, cəmiyyətin inkişafında elmin əhəmiyyətinin artırılması və elmi fəaliyyətin stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlər, fakültənin elmi fəaliyyəti və uğurları barədə məlumat verib. Fakültədə mütəmadi olaraq elmi-praktik konfransların, ustad dərslərinin, seminarların keçirilməsinin əhəmiyyətini qeyd edib.

Daha sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Humanitar fənlər kafedrasının müdiri, Ərəb filologiyası kafedrasının saathesabı müəllimi, professor Tərlan Quliyevin "Şərq elmi-nəzəri, filoloji fikri və onun poetika sahəsi" mövzusunda ustad dərsi dinlənilib. Mühazirədə Tərlan Quliyev əruz elminin qədim köklərə malik olduğunu bildirib, ərəb əruzunun xüsusiyyətlərindən danışıb. Qeyd edib ki, əruz elmi hələ 767-ci ildə böyük ərəb filoloqu Xəlil ibn Əhməd tərəfindən yaradılıb, o zamana qədər dünya filologiya elmində vəzn haqqında belə bir nəzəri təlim olmayıb. Daha sonra alim ərəb, fars və Azərbaycan poeziyasından əruz vəzninə dair müxtəlif nümunələr təqdim edib.

Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müdiri, dosent Vüqar Qaradağlı, Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov, Uzaq Şərq dilləri və ədəbiyyatı kiafedrasının müdiri, professor Oqtay Cəllbəyli çıxışlarında "Elm günü"nün əhəmiyyətini vurğulayıb, ustad dərsinin mövzusu ilə bağlı müzakirələr aparıblar.

# BDU-da elmi seminar: "Ağıllı polimer materiallar"

***Martın 12-də Kimya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində elmi seminar keçirilib.***

Fakültə dekanı Fuad Kərimli son bir ildə elmi tədqiqatlar sahəsində əldə olunmuş uğurlar haqqında geniş məlumat verib. O bildirib ki, fakültə alimləri tərəfindən ötən il 223 məqalə çap olunub, onlardan 125-i indekslənmiş jurnallardadır. Fakültənin təşkilatçılığı ilə iki qrant layihəsi həyata keçirilir. Fakültə alimlərinin 11 mühüm elmi nəticəsi AMEA-nın əldə olunmuş mühüm nəticələri sırasına daxil edilib. BDU və Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti (QMTTU) arasında 2021-ci ildə imzalanmış müqaviləyə əsasən "Neft kimyası" ixtisaslaşması üzrə magistratura səviyyəsində birgə ikili diplom proqramı həyata keçirilir. BDU-da 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "İlin gənc alimi" müsabiqəsinin nəticələrinə əsasən, fakültənin Zərif üzvi sintez elmi-tədqiqat laboratoriyasının elmi işçisi Gülnar Atakişiyeva yüksək elmi nəticələri ilə seçildiyi üçün təşəkkürnamə və pul mükafatı ilə təltif edilib. Gənclərin elmə marağının artırılması məqsədilə fakültənin tələbələri beynəlxalq və respublika olimpiadalarında iştirak edirlər. Fakültə tələbələri Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə və BDU-nun 105 illik yubileyinə həsr olunmuş Fizika, Riyaziyyat, Kimya, Biologiya və Coğrafiya fənləri üzrə Respublika Olimpiadasında I, II və III yerlərə layiq görülüblər.

Tədbirdə Yüksək molekullu birləşmələr kimyası kafedrasının müdiri Rasim Alosmanov "Ağıllı polimer materiallar" mövzusunda məruzə edib. O, müxtəlif stimullara cavab verən həssas polimerlərin əsas növləri, onların müasir dövrdəki rolu və perspektivləri, eləcə də kafedrada bu istiqamətdə aparılan elmi-tədqiqat işləri haqqında ətraflı məlumat verib.

Tədbir iştirakçılarının suallarının cavablandırılması ilə yekunlaşıb.

# BDU-da elmi seminar: "Elmin inkişafı Azərbaycanda dövlət siyasətinin prioriteti kimi"

***Martın 11-də İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində növbəti elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kazimi "Elmin inkişafı Azərbaycanda dövlət siyasətinin prioriteti kimi" mövzusunda məruzə edib.***

Tədbirdə giriş sözü ilə çıxış edən BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov elmin tarixinə nəzər salıb, ölkəmizin bu sahədə qazandığı nailiyyətlərdən bəhs edib. O, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ölkəmizdə elmin inkişafı üçün müstəsna xidmətlər göstərdiyini diqqətə çatdırıb, bu gün həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Sonra seminar dosent Pərviz Kaziminin məruzəsi ilə davam edib. Pərviz Kazimi əvvəlcə ölkəmizdə elmin inkişafına göstərilən dövlət qayğısından bəhs edib, bu sahədə qəbul edilmiş bir sıra fundamental sənədlər, eləcə də elm siyasətini həyata keçirən qurumlar, onların vəzifələri barədə ətraflı məlumat verib: "Dövlət başçısının 2018-ci il 9 aprel tarixli Sərəncamına əsasən, hər il martın 27-nin "Elm günü" kimi qeyd olunması, ölkəmizdə elmin inkişafına hərtərəfli diqqətin göstərilməsi bu fəaliyyət sahəsinin dövlətimiz üçün prioritet istiqamət olduğunun bariz nümunəsidir".



Məruzədə elmşünaslıqda yeni istiqamətlər, müasir trendlər, xüsusilə Azərbaycan elminin dünya elminə inteqrasiyası kimi mühüm məsələlərə toxunulub, bir sıra müqayisəli təhlillər aparılıb. Hazırda elmin inkişafında tətbiqi xarakterli tədqiqatların aparılmasının və alınmış mühüm nəticələrin nüfuzlu beynəlxalq elmi bazalarda ("Scopus", "Web of Science","Google Scholar" və s.) indeksləşdirilmiş jurnallarda əksini tapmasının vacibliyini vurğulayan natiq ölkəmizin son illər bu istiqamətdə əldə etdiyi uğurları faktlarla diqqətə çatdırıb, mövcud dinamikanı xronoloji inkişafda təqdim edib.

Araşdırmada ölkə alimlərinin əldə etdiyi mühüm elmi nəticələr, nüfuzlu elmi jurnallarda dərc olunmuş məqalələr, alimlərimizin Hirş indeksləri və istinad göstəriciləri barədə dinamika əksini tapıb. Məruzədə həmçinin milli H-indeksi platforması barədə məlumat verilib, elmi aktivliyin qiymətləndirilməsində tətbiq edilən bibliometrik metodlar şərh olunub. Son illər BDU-nun bu istiqamətdə mühüm nailiyyətlər əldə etdiyini vurğulayan Pərviz Kazimi qeyd edib ki, BDU ölkəmizin nüfuzlu beynəlxalq reytinqlərdə ən yüksək göstəricilərə malik olan ali təhsil müəssisəsidir və bu dinamika davamlı olaraq inkişaf etdirilir.

Məruzə seminar iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb, mövzu ətrafında geniş müzakirələr aparılıb.

# "Günəbaxan" uşaq jurnalının və "Məbəd" esselər toplusunun təqdimat mərasimi keçirilib

***Martın 13-də Jurnalistika fakültəsinin tələbələri tərəfindən hazırlanan "Günəbaxan" uşaq jurnalının və fakültənin məzunu Əsgər İsmayılovun "Məbəd" esselər toplusunun təqdimat mərasimi keçirilib.***



Tədbirdə tanınmış media nümayəndələri və fakültənin müəllim-tələbə heyəti iştirak edib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli "Günəbaxan" jurnalının əhəmiyyətindən danışaraq, tələbələrin təşəbbüsü ilə belə bir layihənin icrasının təqdirəlayiq olduğunu bildiriblər. Fakültənin məzunu Əsgər İsmayılovun "Məbəd" esselər toplusunun BDU-nun 105, fakültənin 55 illik yubileylərinə böyük töhfəsi olduğunu diqqətə çatdırıblar.

Daha sonra "Günəbaxan" jurnalının yaradıcı heyəti – Ayhan Ağarzayev, Nəzakət Sadıqova, Mahmud Əskərli, Fərhad Musayev, Fatimə Əsədzadə və Əli Əhmədov nəşrin ideyası, hazırlanma prosesi və məzmunu haqqında geniş məlumat veriblər.

# BDU-da dəyirmi masa: "Hiss və fəaliyyət: duyğuların idarə olunması və fəaliyyətə əsaslanan addımlar"

***Martın 12-də Sosial elmlər və psixologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "Hiss və fəaliyyət: duyğuların idarə olunması və fəaliyyətə əsaslanan addımlar" mövzusunda dəyirmi masa keçirilib.***

Psixologiya kafedrasının dosenti Yamən Vəliyevanın moderatorluğu ilə keçirilən dəyirmi masada iştirakçılar hisslərin insanın fəaliyyətində, şəxsiyyət kimi formaşmağında aparıcı rol oynadığını qeyd ediblər. Düzgün ifadə olunmayan hisslər davranışa, qərarvermə prosesinə və sosial münasibətlərə birbaşa təsir göstərir, psixoloji problemlərə səbəb olur. Buna görə də insan özünü anlamaqla, hisslərini ifadə etməklə emosional zəkasını gücləndirə və münasibətlərini daha sağlam edə bilər.

Dəyirmi masada hisslərin əxlaqi, intellektual, estetik və psevdohisslər formasında insanların fəaliyyətinə təsiri məsələləri müzakirə edilib. Hisslərin ancaq insanlara məxsus olduğu və onların fəaliyyətini idarə etdiyi fikri də tədbirin xüsusi müzakirə obyektinə çevrilib.

# BDU-da "Bir marşın uzun hekayəsi – Mehmet Akif Ersoy və İstiqlal Marşı" adlı tədbir

***Martın 12-də Şərqşünaslıq fakültəsi və Bakı Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə "Bir marşın uzun hekayəsi – Mehmet Akif Ersoy və İstiqlal Marşı" adlı tədbir keçirilib.***



Tədbir Türkiyə Cümhuriyyətinin müstəqillik simvolu olan İstiqlal Marşının qəbul edilməsinin ildönümü və marşın müəllifi Mehmet Akif Ərsoyun anım günü münasibətilə təşkil edilib.

Əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən BDU-nun prorektoru, professor Fərda İmanov Azərbaycan-Türkiyə münasibətlərinin qardaşlıq və dostluq prinsiplərinə əsaslandığını vurğulayıb. O, iki ölkənin tarixi, mədəni və elmi sahələrdə bir-birinə yaxın olduğunu qeyd edərək, Azərbaycan-Türkiyə münasibətlərinin dünya üçün nümunə olduğunu bildirib: "Bizi dilimiz, dinimiz və tariximiz birləşdirir. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı, Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir'' sözləri bu birliyin əsasını təşkil edir. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olub. 2020-ci ildə Vətən müharibəsi zamanı qardaş Türkiyənin siyasi və mənəvi dəstəyini tam gücü ilə hiss etdik. 2021-ci ildə Şuşada imzalanan Şuşa Bəyannaməsi bu münasibətləri daha da möhkəmləndirdi. BDU hazırda dünyanın 100-dən çox universiteti ilə əməkdaşlıq edir, onların əksəriyyəti Türkiyə universitetləridir".

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan Bakı Yunus Əmrə İnstitutunun Azərbaycanda 10 ildən artıqdır fəaliyyət göstərdiyini və bu müddət ərzində fakültə ilə birgə müxtəlif mədəni tədbirlərin təşkilini diqqətə çatdırıb. O, Mehmet Akif Ərsoyun ədəbi mirasının önəmini vurğulayıb: "Hər bir yazıçı özündən sonra əsərləri ilə yaşayır. Mehmet Akif Ərsoy da İstiqlal Marşı ilə daim xatırlanır. Onun ifadələri Azərbaycanın Dövlət himni ilə də səsləşir. Bu, iki xalqın duyğularının bənzərliyini göstərir. Azərbaycan və Türkiyə eyni dili və mədəniyyəti paylaşan xalqlar olaraq qırılmaz bağlarla bir-birinə bağlıdır".

Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Güvən Çolak iki dövlət arasındakı sıx münasibətlərin əhəmiyyətindən söhbət açıb: "Sərhədlərə baxmayaraq, könül dostluğu həmişə qalır. Buna görə də hər iki ölkənin insanları bir-birinə "qardaş" deyə xitab edir".

Türkiyəli yazıçı Bəşir Ayvazoğlu, türkoloq, professor Elman Quliyev və tarixçi Telman Nüsrətoğlu İstiqlal Marşının tarixi, bədii və siyasi əhəmiyyətindən danışaraq, onun istiqlal mübarizəsini əks etdirən dəyərli əsər olduğunu söyləyiblər.

Tədbirin sonunda BDU tələbələri Mehmet Akif Ersoyun şeirlərini səsləndiriblər.

# BDU-da süni intellekt texnologiyalarından istifadə haqqında elmi sessiya

***Martın 12-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş elmi sessiya keçirilib.***

Elmi sessiya Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun Qərarların qəbul edilməsini dəstəkləyən informasiya sistemləri laboratoriyasının müdiri, texnika elmləri doktoru, professor Ramin Rzayev tərəfindən "Süni intellekt: carı vəziyyəti və gələcəkdə istifadəsindən sinergetik effekt" mövzusunda aparılıb.

Ramin Rzayev çıxışında süni intellektin qlobal iqtisadiyyatın inkişafına təsir imkanlarından və sahib olduğu böyük potensialdan söz açıb. Bildirib ki, süni intellekt "Internet of Things", "Big Data Analytics" və ya "Blockchain" kimi əsas texnologiyalarla birləşdirildikdə iqtisadi inkişafın əsasına çevrilə, bununla da rəqabət qabiliyyəti təmin edilə, yüksək texnologiyalı iş yerləri yaradıla bilər. Məruzəçi süni intellekt texnologiyalarının rəqəmsal iqtisadiyyata perspektiv təsirinin öyrənilməsinin vacib və aktual olduğunu vurğulayıb. O qeyd edib ki, süni intellekt insanı tam əvəz edə bilməsə də, onun bir çox funksiyasını mənimsəyir, enerji resurslarından istifadənin səmərəliliyini artırır, büdcə vəsaitlərinə qənaət edir. Professor süni intellekt sahəsində fundamental tətbiqi tədqiqatların aparılması, yüksəkixtisaslı elmi kadrların və mütəxəssislərin hazırlanması, yeni təhsil proqramlarının yaradılması, süni intellekt texnologiyalarının inkişafını dəstəkləyən qanunların, standartların və etik qaydaların işlənməsi və tətbiqinin zəruri olduğunu qeyd edib.

Sessiya mövzu ətrafında müzakirələrlə davam edib.

# BDU əməkdaşları "Huawei"in 5G təlimlərində iştirak edirlər

*Təlimlərin məqsədi 5G şəbəkələrinin qurulması və idarə edilməsi, eləcə də bu texnologiyanın gələcək inkişafı ilə bağlı nəzəri və praktiki biliklərin müasir tələblərə uyğun şəkildə verilməsidir.*

***Martın 11-də Bakı Dövlət Universitetinin əməkdaşları dünyada 5G texnologiyalarının inkişafına böyük töhfə verən "Huawei" şirkəti tərəfindən təşkil edilmiş 5G təlimlərində iştirak edirlər. Bu təlimlər universitetin müvafiq ixtisas sahələrində çalışan mütəxəssislərə müasir texnologiya və innovasiyalar sahəsində geniş biliklər qazandırmağı hədəfləyir.***

Təlimlərin məqsədi 5G şəbəkələrinin qurulması və idarə edilməsi, eləcə də bu texnologiyanın gələcək inkişafı ilə bağlı nəzəri və praktiki biliklərin müasir tələblərə uyğun şəkildə verilməsidir. Təlimlərdə iştirak edən əməkdaşlar 5G texnologiyalarının universitetdə tədris olunan ixtisaslar üzrə tətbiqinə dair yeni yanaşmalar da təklif edəcəklər.

Bu layihə BDU və "Huawei" arasında birgə əməkdaşlığın inkişafı, Universitetin tədris və tədqiqat sahələrində müasir texnologiyaları tətbiq etməsi istiqamətində əhəmiyyətli bir addımdır. Gələcəkdə bu əməkdaşlığın genişləndirilməsi, daha çox təlim və layihələrin reallaşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, sözügedən təlimlərin təşkil və koordinasiyasını BDU-nun Keyfiyyət Təminatı Mərkəzi və İnformasiya Texnologiyaları Mərkəzi həyata keçirir.

# Biologiya fakültəsinin IV kurs tələbələri istehsalat təcrübəsində

***Martın 10-da Biologiya fakültəsinin "Biologiya", "Biotexnologiya", "Su bioehtiyatları və akvabitkilər", "Bitki mühafizəsi" ixtisasları üzrə təhsil alan IV kurs tələbələrinin istehsalat təcrübələri davam edir.*** Tələbələr Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin laboratoriyası, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu, Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu, Molekulyar biologiya və biotexnologiyalar İnstitutu, Zoologiya İnstitutunda və digər istehsalat müəssisələrində təcrübə keçirlər.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzində tələbələrə dənli və paxlalı bitkilərdə azot, protein, fosfor təyini, meyvə - tərəvəz bitkilərində şəkər, turşuluq, quru maddə təyini, kənd təsərrüfatı əhəmiyyətli bitki toxumlarının bütün keyfiyyət göstəriciləri, torpaqda makro və mikro element, kirəc, pH təyini kimi sınaqların aparılma metodikası əyani nümayiş etdirilib. Tələbələr sınaqları yerinə yetirib, nəticələrin emalı qaydaları ilə tanış olublar.



Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda laboratoriya avadanlıqlarının işləmə prinsipi barədə tələbələrə məlumat verilib, bitkilərin becərilmə texnologiyaları, sahələrin sxemləndirilməsi, gübrə analizi aparılması qaydaları, torpaqda fosforun təyini metodikası əyani izah edilib.

Tələbələr Zoologiya İnstitutunun Protozoologiya, Parazit-sahib münasibətlərinin biokimyəvi əsasları, Hidrobiologiya və quru onurğalıları laboratoriyalarında iş prinsipi ilə tanış olub. Onlara onurğasız və onurğalı heyvanların tədqiqinə aid müasir metodlar öyrədilib.

Botanika İnstitutunda yabanı bitkilərin rayonlar üzrə yayılması, geobotaniki rayonlaşma, bitkilik tipləri, formasiya və assosiasiyalar barədə tələbələrə məlumat verilib, herbarilərin hazırlanması və saxlanılması qaydaları öyrədilib.

# AYNA BDU-da mikromobilliyin əhəmiyyətinə dair seminar keçirib

***Martın 7-də BDU-da Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) təşkilatçılığı ilə "Dayanıqlı şəhər mobilliyi, şəhərlərdə mikromobilliyin əhəmiyyəti, Bakı şəhərində bu istiqamətdə görülmüş və planlaşdırılan işlər" mövzusunda seminar keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Səbinə Muxtarova bu istiqamətdə keçirilən maarifləndirici tədbirlərin əhəmiyyətindən danışıb, Universitetin sosial layihələrindən bəhs edib. AYNA-nın Mikromobillik şöbəsinin müdiri Coşqun Məmmədov seminarda mikromobillik infrastrukturunun inkişaf etdirilməsi ilə bağlı görülmüş işlər barədə tələbələrə məlumat verib. Qeyd edib ki, mikromobilliyin tətbiqi əhalinin mobilliyini artırmaq, şəhər mərkəzlərində nəqliyyat yükünü azaltmaq və ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədi daşıyır. Dünyanın bir çox şəhərlərində olduğu kimi, paytaxt Bakıda da nəqliyyat sıxlığının aradan qaldırılması, velosiped, elektrik mühərrikli kiçik nəqliyyat vasitələri istifadəçiləri və digər yol istifadəçilərinin təhlükəsizliyini təmin etmək məqsədilə işlər görülür. İndiyədək Bakı şəhərində 31 küçə və prospektdə mikromobillik zolağı təşkil edilib. Bu zolaqların 100 km-ə çatdırılması nəzərdə tutulur.

Daha sonra Bakı şəhərində mikromobilliyin təkmilləşdirilməsinə dair həyata keçirilməli olan tədbirlər barədə tələbələrlə fikir mübadiləsi aparılıb, onların sualları cavablandırılıb.

# "Gələcək üçün bacarıqlar" layihəsi barədə infossessiya

***Martın 6-da BDU-da Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzinin "Gələcək üçün bacarıqlar" layihəsinin IV "Tusi" inkubasiya proqramı ilə bağlı infossessiya keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov belə layihələrin gənclərin karyera inkişafında önəmli rol oynadığını bildirib.

İnnovasiyalar Mərkəzi direktorunun müşaviri Ləman Əhmədova IV "Tusi" inkubasiya proqramının istiqamətləri, qaydaları haqqında ətraflı məlumat verib. Bildirib ki, İnnovasiyalar Mərkəzi tərəfindən həyata keçirilən "Gələcək üçün bacarıqlar" layihəsinin məqsədi innovasiya sahəsində kadr potensialının artırılması, təhsildə innovasiya fəaliyyətinin dəstəklənməsi, təhsil prosesində tələbələrə innovativ ideyalarını inkişaf etdirmək üçün dəstək göstərilməsi və onların ölkəmizin texnoloji inkişafında önəmli rol oynayan ixtira sahələrinə yönləndirilməsidir. IV "Tusi" inkubasiya proqramı tələbələrə peşəkar dəstək, təlimlər və geniş mentor şəbəkəsi təqdim edir.

Daha sonra proqram haqqında videoçarx təqdim edilib, tələbələrin sualları cavablandırılıb.

# BDU-da proqramlaşdırmaya dair infosessiya keçirilib

***Martın 7-də Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatı (TGT) və "JET Academy"nin birgə təşkilatçılığı ilə proqramlaşdırmada yol xəritəsinə ("Java backend developer roadmap") dair infosessiya keçirilib.***



BDU-nun TGT sədri Harun Mehdiyev bildirib ki, texniki ixtisaslarda təhsil alan tələbələrin praktiki bacarıqlarının artırılması və dövrün tələblərinə cavab verən proqram dillərindən istifadəsi əmək bazarının əsas tələblərindəndir. Bunun üçün də belə təlimlər günbəgün dəyişən tendensiyaların öyrənilməsi baxımından faydalıdır.

"JET Academy"nin müəllimi, "Azercell"in əməkdaşı Müşviq Manaflı kodlaşdırma, sənaye təcrübələri və praktiki məsələlər barədə məlumat verib. Qeyd edib ki, "backend developer" adlanan proqramlaşdırma mütəxəssisləri tətbiqin daha çox "pərdə arxasında" işləyir, sistemin funksionallığını təmin edirlər. Başqa sözlə, onlar istifadəçilərin qarşılıqlı əlaqədə olmadığı, amma xidmətin işləməsi üçün vacib olan hissəni idarə edirlər. "Backend developer"lər server, verilənlər bazası və tətbiqlər arasında əlaqəni qurur, məlumatları emal edir və onları istifadəçinin gördüyü hissə üçün əlçatan edir. Proqramlaşdırma dünyasında yol xəritəsi (roadmap) layihələrin uğurla başa çatdırılması üçün çox vacibdir. Yol xəritəsi proqramçılara bu sahənin inkişaf mərhələlərini, istifadə edilləcək texnologiyaları və resursları əvvəlcədən müəyyənləşdirməyə kömək edir.

Müşfiq Manaflı serverin, verilənlər bazasının (database) idarə edilməsi barədə müxtəlif texniki bacarıqlar və proqramlaşdırma layihələrinin hazırlanması qaydalarını izah edib.

Tədbir tələbələrin mövzu ilə bağlı suallarının cavablandırılması ilə başa çatıb.

# BDU ilə Özbəkistanın Fərqanə Dövlət Universiteti arasında əməkdaşlıq məsələləri müzakirə olunub

***Martın 6-da BDU-da Özbəkistanın Fərqanə Dövlət Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.***

Görüşdə BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Fərqanə Dövlət Universitetinin beynəlxalq əməkdaşlıq və maliyyə-iqtisadi məsələlər üzrə prorektoru Sharof Shukhratov və Strateji inkişaf və beynəlxalq reytinqlər şöbəsinin baş mütəxəssisi Jovhar Museyibzada iştirak ediblər.

Qonaqlara Universitetin tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verilib. Bildirilib ki, BDU Özbəkistanın nüfuzlu universitetləri ilə sıx əməkdaşlığa malikdir.

Qonaqlar təmsil etdikləri Universitetin əsas fəaliyyət istiqamətləri barədə danışıblar.



Görüşdə elmi-pedaqoji əlaqələrin qurulması, ikili diplom proqramlarının tətbiqi, birgə doktorant hazırlığı, elmi konfransların təşkili kimi məsələlər müzakirə olunub.

# BDU-nun kafedra müdiri, AMEA-nın müxbir üzvü Elşad Qurbanovun "Azərbaycanın bitki örtüyü" kitabının təqdimatı olub

***Martın 13-də BDU-nun Botanika və bitki fiziologiyası kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü Elşad Qurbanovun "Azərbaycanın bitki örtüyü" kitabının təqdimat mərasimi olub.***



AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş kitabın qlobal çağırışlara cavab verən əsər kimi mühüm əhəmiyyətə malik olduğunu bildirib. O, kitabın elmi məziyyətlərindən danışıb, nəşrdə Azərbaycanın bitki örtüyü ilə bağlı tədqiqatların ümumiləşdirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, əsərdə Azərbaycanın bütün botaniki-coğrafi rayonları üzrə respublikamızda rast gəlinən bitkilik tiplərinin taksonları, onların yayıldığı ərazilər və müasir vəziyyəti haqqında məlumatlar əks olunub. İsa Həbibbəyli AMEA-nın müxbir üzvü Elşad Qurbanovun istinad etdiyi və öyrəndiyi materiallar əsasında "Azərbaycanın bitki örtüyü" xəritəsini də tərtib etdiyini söyləyib.

AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova "Azərbaycanın bitki örtüyü" kitabının ərsəyə gəlməsinin aktuallığına və vacibliyinə diqqət çəkib. Bildirib ki, AMEA-nın müxbir üzvü Elşad Qurbanov tərəfindən hazırlanmış "Azərbaycanın bitki örtüyü" kitabı, "Azərbaycanın bitki örtüyü xəritəsi" və "Azərbaycanın botaniki-coğrafi rayonlarının xəritəsi" 40 ildən çox müddətdə sistemləşdirilməmiş bitkilik tiplərinin müasir vəziyyətini nizamlı şəkildə tam əks etdirən mükəmməl əsərlərdir. Yeni nəşrdə Azərbaycan ərazisinin bitkiliklərini əks etdirən 17 fəsilə verilib. Kitabda bitkilik tiplər formasiya qruplarına və assosiasiyalara bölünüb, onların hər biri üçün eddifikator növlər əks olunub: "Elşad Qurbanov Azərbaycan Respublikası üçün morfoloji, ekoloji əlamətlərinə, dominant və subdominant növlərinə görə fərqlənən "səhra" və "psevdomakki" bitkilik tiplərinin ölkə ərazisində yayıldığnı isbat edərək, elmə yenilik gətirib və onları bitkilik xəritəsinə də əlavə




edib. Bu xəritələrin hər birinə Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik şəhadətnaməsi verilib".

Tədbirdə ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova, Gəncə Dövlət Universitetinin Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Vaqif Novruzov, millət vəkili, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və Botanika İnstitutunun baş direktoru, professor Səyyarə İbadullayeva kitab haqqında fikirlərini bölüşüb, nəşrin müasir dövrdə Azərbaycan elmi üçün mühüm məlumatların toplandığı dəyərli vəsait olduğunu bildiriblər.

Sonda kitabın müəllifi AMEA-nın müxbir üzvü Elşad Qurbanov çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib. Qeyd edib ki, bu elmi monoqrafiya bitkilərin geobotaniki təsnifatından başlayaraq, onların ekosistemlərdəki roluna, adaptasiya mexanizmlərinə və antropogen təsirlərə qarşı davamlılıq strategiyalarına qədər geniş spektri əhatə edir. Əsərdə fitocoğrafi zonalar və biomüxtəliflik xəritələndirilməsi – Azərbaycanın 9 əsas bitki formasiya tipi və 65 bitki assosiasiyası müəyyən edilib. 215 Qafqaz endemiki və 50 Azərbaycan endemik növü sənədləşdirilib. İqlim dəyişikliyinin flora üzərində təsiri, bitkilərin ekstremal ekoloji amillərə uyğunlaşma mexanizmləri analiz edilib. Ekosistem dayanıqlılığını artırmaq üçün bitki genetik ehtiyatlarının qorunması strategiyaları araşdırılıb.

# "Ümumi dilçilik oçerkləri" kitabının təqdimatı keçirilib

***Martın 12-də Filologiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Ümumi dilçilik kafedrasının müəllimi Qismət Cəfərov və həmin kafedranın doktorantı Səmra Həsənzadənin həmmüəllifi olduğu "Ümumi dilçilik oçerkləri" kitabının təqdimatı keçirilib. Təqdimatda fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.***



Tədbirdə İngilis dili (humanitar fakültələr üzrə) kafedrasının professoru Əfqan Abdullayev, Ümumi dilçilik kafedranın dosenti Cavanşir Muradov, Azərbaycan dilçiliyi kafedrasının dosentləri İsmayıl Məmmədov, Fikrət Əlizadə və Fikrət Şiriyev, İngilis dili kafedrasının (təbiət fakültələri üzrə) müdiri, professor Abbas Abbasov, İngilis dili kafedrasının (humanitar fakültələr üzrə) müdiri, dosent Bəylər Hacıyev, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu, Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov və Türkologiya kafedrasının doktorantı Məleykə Mirzəli çıxış edərək, gənc həmmüəlliflərin qələminin məhsulu olan kitabın elmi dəyəri və tədris baxımından əhəmiyyətindən, xüsusilə tələbələr üçün vacib mənbə olmasından söz açıb, Universitetdə ümumi dilçilik akademik məktəbinin ənənələrinin uğurla davam etdirilməsində gənc nəslin nümunəvi elmi fəaliyyətini yüksək qiymətləndiriblər.

Təqdimatda elmi fəaliyyətlə məşğul olan tələbələr də kitabla bağlı öz fikirlərini bölüşüblər. Sonda kitab müəllifləri yeni nəşrin ərsəyə gəlməsi haqqında məlumat verib, tədbirin təşkilinə görə fakültə rəhbərliyinə və iştirakçılara öz təşəkkürlərini bildiriblər.

# BDU-da RİİB-in "Akademik Azad Mirzəcanzadə adına inkişaf proqramı"na dair məlumatlandırma tədbiri

***Martın 10-da "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə "Regional İnkişaf" İctimai Birliyinin "Akademik Azad Mirzəcanzadə adına inkişaf proqramı"na dair məlumatlandırma tədbiri keçirilib.***

Tədbirdə çıxış edən "BDU könüllüləri" təşkilatının sədr müavini Rəşid Qurbanlı bildirib ki, Azərbaycanda gənclərin elm və təhsil sahəsindəki inkişafı prioritet sahə kimi müəyyən edilib. "Regional İnkişaf" İctimai Birliyi daim belə layihələri ilə gənc nəslin intellektual potensialının artmasına töhfə verir.

"Akademik Azad Mirzəcanzadə adına inkişaf proqramı"nın rəhbəri Leyla Seyidzadə isə qeyd edib ki, proqram paytaxt və regionları əhatə etməklə yeni imkanları dəyərləndirməyi, aktual problemlərin yaradıcı həll yollarını tapmağı bacaran, dayanıqlı gələcəyə töhfə verməyə çalışan, çevik, innovativ yanaşmalara sahib gənclərin üzə çıxarılması və inkişafına dəstək verilməsi məqsədi daşıyır. 2023-cü ilin sentyabr ayında elan edilmiş "Akademik Azad Mirzəcanzadə adına inkişaf proqramı" indiyədək sosial, ekoloji, maarifləndirici və innovativ sahələrdə bir çox uğurlu layihə həyata keçirib. Proqrama müraciət edənlərin təqdim etdikləri layihə ideyaları İşçi qrupu tərəfindən qiymətləndiriləcək, aktuallığı, reallığı, innovativliyi və yenilikçi olması ilə seçilən ideyaların müəllifləri ikinci mərhələdə iştirak imkanı qazanacaqlar. Bu mərhələdə iştirakçılara layihələrin hazırlanması və təqdimatı istiqamətində peşəkar dəstək veriləcək, onların liderlik bacarıqlarının inkişafı üçün müxtəlif fəaliyyətlər təşkil olunacaq. Sonda qalib layihələrin icrası üçün maliyyə vəsaiti ayrılacaq.

Tədbir tələbələrin suallarının cavablandırılması ilə yekunlaşıb.

Qeyd edək ki, proqrama son müraciət tarixi aprelin 1-idir.

# BDU tələbələrinin Fizika İnstitutuna infoturu təşkil olunub

***Martın 6-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşəbbüsü ilə Elm və Təhsil Nazirliyinin Fizika İnstitutuna infotur təşkil olunub. İnfoturda Fizika fakültəsinin 23 tələbəsi iştirak edib.***

İnfoturun əsas məqsədi tələbələri institutun elmi-tədqiqat laboratoriyaları ilə yaxından tanış etmək, onların elmi mühit haqqında daha ətraflı məlumat əldə etməsinə şərait yaratmaq və gələcək tədqiqat fəaliyyətlərində faydalı ola biləcək praktik tövsiyələr verməkdir.

Qeyri-kristallik yarımkeçiricilərin fizikası və elektronikası laboratoriyasının rəhbəri Rəhim Ələkbərov, Yüksək gərginliklər fizikası və texnikası laboratoriyasının əməkdaşı Firuzə Cəfərova tələbələri aparılan elmi araşdırmalar, istifadə edilən müasir texnologiyalar və innovativ yanaşmalarla tanış ediblər.

# BDU-da müstəqillik illərində Azərbaycanda kitabxana-informasiya fəaliyyəti müzakirə olunub



***Martın 17-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində növbəti elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının magistrantı Fənarə Quliyeva "Müstəqillik illərində Azərbaycanda kitabxana-informasiya fəaliyyəti" mövzusunda məruzə edib. Gənc tədqiqatçı vurğulayıb ki, ölkəmizdə kitabxana-informasiya fəaliyyətinin formalaşması və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır: "Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə kitabxana işinə yüksək qiymət verib, sahənin inkişafı üçün mühüm addımlar atıb. Bu gün Prezident İlham Əliyev həmin siyasəti uğurla davam etdirir, bu istiqamətdə mühüm dövlət proqramları qəbul edilir, layihələr həyata keçirilir".

Məruzədə qeyd edilib ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpası kitabxana-informasiya fəaliyyəti sahəsində mühüm islahatların başlanğıcı olub. Bu dövrdə milli kitabxana sistemi yenidən formalaşdırılıb, bu fəaliyyət sahəsi beynəlxalq standartlara uyğunlaşdırılıb: "Kitabxana fəaliyyətinin hüquqi-normativ bazasının təkmilləşdirilməsi, kitabxanalarda müasir informasiya texnologiyalarının tətbiqi, kitabxana fondlarının rəqəmsallaşdırılması, elektron kataloq sistemlərinin yaradılması kimi məsələlər diqqət mərkəzində olub".

Tədqiqatda elmi-tədqiqat işlərinin inkişafında açıq elmi resursların istifadənin əhəmiyyəti, milli və beynəlxalq elektron kitabxana sistemlərinə inteqrasiya, rəqəmsal arxivlərin yaradılması kimi mühüm istiqamətlər öyrənilib, müasir kitabxana idarəçiliyi, elektron informasiya mübadiləsi, elmi kommunikasiyanın genişləndirilməsi, eyni zamanda kitabxanaların təhsil prosesindəki rolu kimi mövzular şərh olunub. Qeyd olunub ki, müstəqillik illərində kitabxana-informasiya fəaliyyətində yeni yanaşmalar formalaşıb, kitabxana işinin inkişafında beynəlxalq əməkdaşlıq genişlənib, açıq elmi platformaların istifadəsi artıb. Bütün bunlar elmi fəaliyyətin təşviqi, akademik mühitin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Elmi seminar müzakirələrlə davam edib.

# Ötən il Ekologiya və torpaqşünaslıq fakültəsinin elmi fəaliyyəti məhsuldar olub

***Martın 13-də Ekologiya və torpaqşünaslıq fakültəsində 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş tədbir keçirilib.*** Tədbirdə çıxış edən dekan Akif Ağbabalı "Elm günü" nün təsis edilməsinin əhəmiyyətindən danışıb, bildirib ki, əlamətdar tarix ilə əlaqədar ölkəmizin ali təhsil müəssisələrində, elmi-tədqiqat institutlarında müasir elmin aktual problemlərinə həsr olunmuş silsilə tədbirlər - elmi konfranslar, seminarlar, simpoziumlar, mühazirələr, dəyirmi masalar keçirilir. Bu ənənə ölkə alimlərini bir araya gətirməklə əldə olunan elmi nəticələrin müzakirəsinə imkan yaradır. Akif Ağbabalı 2024-cü il üzrə BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin elmi fəaliyyətinin məhsuldar olduğunu diqqətə çatdırıb.

Daha sonra Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva və Coğrafi ekologiya kafedrasının professoru Şövqi Göyçaylı çıxış ediblər. Çıxışçılar Azərbaycanda və dünyada elm və təhsilin formalaşması, inkişaf tarixindən, ölkəmizdə elmin nüfuzunun yüksəldilməsi, elm və təhsilin inkişafına dövlət səviyyəsində göstərilən qayğıdan bəhs ediblər. Onlar gənc tədqiqatçıların elmin inkişafındakı əhəmiyyətindən, fakültənin istiqamətlərinə uyğun ekoloji kimya elminin inkişaf edərək təməl elmlərdən biri olması istəyindən və Azərbaycan elminin bu günlərə gəlib çatmasında Milli Elmlər Akademiyasının rolundan ətraflı danışıblar.

# "Azərbaycanda regional iqlim dəyişmələrinin çayların su ehtiyatına təsiri" mövzusunda təqdimat

***Coğrafiya fakültəsində 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş silsilə tədbirlər çərçivəsində akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun Qurunun hidrologiyası və su ehtiyatları şöbəsinin müdiri, coğrafiya elmləri doktoru, professor Rza Mahmudovun "Azərbaycanda regional iqlim dəyişmələrinin çayların su ehtiyatlarına təsiri" mövzusunda təqdimatı olub.***

Tədbiri açıq elan edən Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 aprel 2018-ci il tarixli Sərəncamı ilə hər il martın 27-sinin Azərbaycanda "Elm günü" kimi qeyd edilməsinin olduqca əhəmiyyətli bir hadisə olduğunu və ölkəmizdə elmin inkişafına böyük təkan verdiyini vurğulayıb. O bildirib ki, Azərbaycanda iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizə dövlət siyasətinin əsas prioritetlərindəndir. Ötən ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkəmizin bu sahədə qlobal mövqeyə sahib olmasını təsdiqləyir.

Professor Rza Mahmudov təqdimatında müasir iqlim dəyişmələrinin okeanların və dənizlərin səviyyə tərəddüdlərinə, səhralaşma proseslərinə, meşələrin azalmasına və nəticədə insanın həyat tərzinə güclü təsir göstərdiyini deyib. O bildirib ki, qlobal miqyasda 1970-ci ildən indiki dövrədək havanın hərarəti 1,10 C artıb. Azərbaycanda isə bu göstərici 1,30 C təşkil edir. Ən isti dövr 2016-2024-cü illərdə müşahidə olunub.

Daha sonra məruzəçi Azərbaycanın regionları üzrə temperatur dəyişməsinin təhlilini təqdim edib. Diqqətə çatdırıb ki, regionlar üzrə ən çox temperatur Qobustan-Abşeron zonasında artıb. Əks proses kimi ölkə ərazisində yağıntıların miqdarının azalması müşahidə edilir.

Məruzədən sonra müəllim və tələbələrin sualları cavablandırılıb.

# BDU-da elmi dərəcələrin verilməsində elmi əsərlərə qoyulmuş tələblərə dair seminar keçirilib



***Martın 13-də BDU-da 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) sədrinin müavini, fizika elmləri doktoru, dosent Sakin Cabarov tərəfindən "Elmi dərəcələrin verilməsində elmi əsərlərə qoyulmuş tələblər" mövzusunda elmi seminar keçirilib.***

Sakin Cabarov Ali Attestasiya Komissiyasının son illərdəki fəaliyyəti, elmi dərəcələrin verilməsində elmi əsərlərə qoyulmuş tələblər barədə ətraflı məlumat verib. Bildirib ki, elmi dərəcələrin verilməsi üçün elmi əsərlərə qoyulan tələblər konkret elm sahəsinə görə müəyyən edilib. Dəqiq və təbiət, humanitar və ictimai elm sahələri üzrə bu tələblər fərqlidir. Məruzəçi indekslənən jurnallarda dərc olunan elmi əsərlərin daha çox olmasının arzuolunan olduğunu qeyd edib və Azərbaycanda 18-ə yaxın indekslənən jurnalın çap olunduğunu nəzərə çatdırıb. O, fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün elmi əsərlərin, o cümlədən indekslənən jurnallarda dərc olunan elmi əsərlərin tələb olunan sayı barədə də iştirakçıları məlumatlandırıb.

AAK sədrinin müavini beynəlxalq konfranslar üçün təqdim edilən elmi məqalələrə də xüsusi diqqət yetirməyin vacibliyini vurğulayıb. O, bəzi hallarda bu məsələyə səthi münasibət bəslənildiyini, formal təşkil olunan konfranslara material təqdim etməyin qeyri-ciddi yanaşma olduğunu bildirib. Sakin Cabarov Ali Attestasiya Komissiyasının rəsmi veb-səhifəsində doktorantları və tədqiqatçıları maraqlandıran bütün məlumatların əks olunduğunu nəzərə çatdırıb.

Seminar iştirakçıların çoxsaylı suallarının cavablandırılması və müzakirələrlə davam edib.

# Akdeniz Universitetinin professoru BDU-da meyvə və tərəvəzlərdə keyfiyyətin qorunmasına dair mühazirə oxuyub

***Martın 12-də BDU-da 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Türkiyənin Akdeniz Universitetinin Kənd təsərrüfatı fakültəsinin dekanı, professor Mustafa Erkanın "Yaş meyvə və tərəvəzlərdə keyfiyyətin qorunmasında yeni yanaşmalar" mövzusunda elmi seminarı keçirilib.***

Professor Mustafa Erkan meyvə və tərəvəzlərin təravətinin uzun müddət qorunması, saxlanma şəraitlərinin optimallaşdırılması və yığım sonrası (post-harvest) texnologiyaları ilə bağlı ən son elmi nailiyyətləri iştirakçılarla bölüşüb.

O, kənd təsərrüfatı məhsullarının saxlama müddətinin artırılması üçün tətbiq olunan müasir texnologiyalar, o cümlədən atmosfer nəzarəti, xüsusi qablaşdırma üsulları və biomühəndislik həlləri barədə geniş məlumat verib.

Alim Azərbaycan üçün də xarakterik olan alma və pomidor sortlarının keyfiyyətinin artırılması məqsədi ilə tətbiq olunan metodologiyalar, eləcə də ekoloji cəhətdən təmiz və effektiv pestisidlərin istifadəsi ilə bitki xəstəlikləri və zərərvericilərə qarşı mübarizə aparılması, məhsulun yığımından sonra tətbiq olunan müasir emal və saxlanma texnologiyaları ilə meyvə-tərəvəzlərin təravəti, qida dəyəri, atmosfer nəzarəti və xüsusi qablaşdırma üsulları haqqında da iştirakçıları məlumatlandırıb.

Seminar iştirakçıları qida sənayesində ərzaq məhsullarının keyfiyyətinin saxlanması, ekoloji dayanıqlılıq və istehlakçı tələblərinə uyğun texnologiyaların tətbiqi mövzusunda suallar ünvanlayaraq, mütəxəssislə interaktiv müzakirə aparıblar.

# BDU-da elmi seminar: “Akademik Arif Paşayevin elmi irsinin bibliometrik təhlili”



***Martın 14-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində növbəti elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının magistrantı Samira Həsənova “Akademik Arif Paşayevin elmi irsinin bibliometrik təhlili” mövzusunda məruzə edib. Gənc tədqiqatçı görkəmli alim, fizika-riyaziyyat elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, Əməkdar elm xadimi, Milli Aviasiya Akademiyasının rektoru Arif Paşayevin elmi-pedaqoji fəaliyyəti haqqında iştirakçılara geniş məlumat verib, akademikin elmin və təhsilin inkişafındakı mühüm xidmətlərindən bəhs edib, alimin ölkəmizi fizika, texnika elmləri, aerokosmik tədqiqatlar üzrə beynəlxalq elmi ictimaiyyətdə yüksək səviyyədə təmsil etdiyini vurğulayıb.

Magistrant hazırda elmmetriya, elmmetrik təhlil kimi istiqamətlərin aktual olduğunu bildirib, görkəmli alimlərin elmi irsinin bibliometrik təhlilinin vacibliyni diqqətə çatdırıb. Məruzədə Əməkdar elm xadimi, akademik Arif Paşayevin elmi irsinin əsas istiqamətləri bibliometrik təhlilə cəlb olunub, görkəmli alimin əsərlərinin, eləcə də haqqında çap olunmuş elmi-tədqiqat əsərlərinin inkişaf qanunauyğunluqlarından bəhs edilib.

Araşdırmada akademik Arif Paşayevin tədqiqatlarındakı mühüm istiqamətlər, elmi yeniliklər, alınmış nəticələr şərh olunub, görkəmli alimin tədqiqatlarının tətbiqi xarakterli olduğu diqqətə çatdırılıb, əldə etdiyi elmi nəticələrin ixtira səviyyəsində işlənib bir sıra sənaye müəssisələrində tətbiq edildiyi xüsusi vurğulanıb.

Məruzəçi akademikin nüfuzlu beynəlxalq elmi bazalarda indeksləşdirilmiş jurnallarda əksini tapmış məqalələrinin dinamikasını xronoloji inkişafda təqdim edib, alimin Hirş indeksi, istinad göstəriciləri, ən çox istinad edilmiş məqalələri, müəlliflik şəhadətnamələri, patentləri barədə ətraflı məlumatları seminar iştirakçılarının nəzərinə çatdırıb.

Elmi seminar müzakirələrlə davam edib.

# Çin Xalq Respublikasının Renmin və Tsinghua universitetlərinin professorları BDU-da seminar keçiriblər

***Martın 14-də Beynəlxalq əlaqələr və iqtisadiyyat, Hüquq fakültələrinin tələbələrinin qatıldığı beynəlxalq seminar keçirilib. Seminarda Çin Xalq Respublikasının Renmin Universitetinin Chongyang Maliyyə Tədqiqatları İnstitutunun dekanı, professor Vang Ven “Dünyada baş verən müasir dəyişikliklərə ÇXR-in yeni baxışı və ÇXR – Azərbaycan gələcək əməkdaşlığı” mövzusunda məruzə edib.***

Professor Vang Ven Çinin hazırkı inkişaf səviyyəsi, burada həyata keçirilən islahatlar, müasir dünyada baş verən dəyişikliklər fonunda Çinin yeni geosiyasi, geostrateji və sosial-iqtisadi yanaşması haqqında tələbələrə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanla strateji xarakter daşıyan və fərqli sahələri əhatə edən çoxtərəfli münasibətlər yüksələn xətt üzrə inkişaf etməkdədir. Hazırda Azərbaycan-Çin əlaqələri siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə genişlənməkdədir. Tsinghua Universitetinin Şvarçman Kollecinin dekanı, professor Pan Qingzhong Çin ali təhsil sistemi haqqında tələbələri məlumatlandırıb. O, tələbələrə Çinin inkişaf tarixindən bəhs edib.

# BDU-da pambıq genotiplərinin duzluluq stresinə davamlılığının molekulyar genetik tədqiqi aparılır



***Martın 13-də Biologiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Genetika kafedrasının doktorantı, Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar Elmi-Tədqiqat İnstitutunun elmi işçisi Şadər Əlizadənin “Pambıq genotiplərinin duzluluq stresinə davamlılığının molekulyar genetik tədqiqi” mövzusunda elmi seminarı keçirilib.***

Biologiya fakültəsinin dekanı, dosent Afət Məmmədova qeyd edib ki, qlobal iqlim dəyişiklikləri ekosistemlərin vəziyyətini daha da çətinləşdirərək, duzluluq, quraqlıq və digər stres faktorlarının təsirini artırıb. Bu artan ekoloji təzyiqin nəticəsində dünyada kənd təsərrüfatı üçün yararlı torpaqların təxminən üçdə biri duzluluq stresindən əziyyət çəkir. Duzlu mühitin osmotik təzyiqi bitkilərin su alma qabiliyyətini azaldaraq, onların fizioloji və bioloji proseslərini dəyişdirir. Bu səbəbdən duzluluq stresinə davamlı bitki genotiplərinin yaradılması və seleksiyada tətbiqi qlobal kənd təsərrüfatı üçün vacib məsələlərdən biridir.

Məruzəçi Şadər Əlizadə tədqiqat işində pambığın yerli və introduksiya olunmuş 48 genotipi üzərində müxtəlif təcrübələr aparıldığını deyib. Bildirib ki, NaCl duzunun 100 mM və 200 mM qatılıqlı stres şəraitində gen ekspressiyasının dəyişməsi, stresə qarşı olan biokimyəvi reaksiyalar, biokütlə istehsalı və cücərmə parametrləri qiymətləndirilib. Statistik təhlil və klaster analizi nəticəsində müxtəlif pambıq genotiplərinin duzluluq stresinə qarşı reaksiyaları müqayisə edilib, davamlı və həssas genotiplər müəyyən olunub. Tədqiqatda həmçinin pambıq bitkisi üçün ən uyğun davamlılıq indeksləri də təklif edilib.

Tədqiqatın nəticələrinin pambıq bitkisi üçün yeni, duza davamlı genotiplərin identifikasiyasına və onların seleksiyada istifadəsinə yol açacağını qeyd edən məruzəçi bu araşdırmanın kənd təsərrüfatında şoranlaşma probleminin qarşısını almağa kömək edəcəyini vurğulayıb.

Sonda mövzu ilə bağlı suallar cavablandırılıb, tədqiqat işinin effektivliyi müzakirə edilib.

# Şəhid polkovnik-leytenant Nail Orucovun xanımı BDU-da işlə təmin olunub

***Martın 14-də Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Nail Orucovun həyat yoldaşı Nigar Ağamalıyeva BDU-da işlə təmin olunub.***

Nigar Ağamalıyeva Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasında laborant vəzifəsində işə başlayıb. O, həm də BDU-nun Filologiya fakültəsində qiyabi təhsil alır, hazırda II kurs tələbəsidir.

Azərbaycan Ordusunun polkovnik-leytenantı Nail Orucov Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 31-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Nail Orucov ölümündən sonra “Vətən uğrunda” medalı, “Azərbaycan Bayrağı”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib.

Bu, BDU-da şəhid ailələrinə göstərilən qayğının ilk nümunəsi deyil. Bundan əvvəl Vətən müharibəsi şəhidi, kiçik çavuş Saməddin Əmrahovun qızı Aysu Əmrahova BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsində işlə təmin olunub. O, həm də Şərqşünaslıq fakültəsinin tələbəsidir.

BDU şəhid ailələrini daim diqqətdə saxlayır, şəhid məzunlarının xatirəsini həmişə uca tutur, onların qəhrəmanlıqlarının tələbələrə aşılanması istiqamətində tədbirlər həyata keçirir. BDU-nun Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış 22 məzununun xatirəsinin uca tutulması, müharibə iştirakçısı olan tələbələrin təhsil problemlərinin öyrənilməsi və həlli istiqamətində müvafiq dəstəyin göstərilməsi, qəhrəman məzunların fakültələrdə tələbələrlə görüşlərinin keçirilməsini və s. nəzərdə tutan Tədbirlər Planı hazırlanıb və icra olunmaqdadır. BDU-nun şəhid məzunlarına həsr olunmuş “BDU-nun tarix yazan məzunları” adlı kitabı nəşr olunub. BDU-nun şəhid tələbə və məzunlarının xatirə lövhəsi yaradılıb.

Şəhid məzunların məzarları, ailələri vaxtaşırı ziyarət olunur.

# Sosial Xidmətlər Agentliyinin departament müdiri BDU tələbələri ilə görüşüb

***Martın 14-də Sosial elmlər və psixologiya fakültəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin Valideyn himayəsindən məhrum olmuş uşaqlarla iş departamentinin müdiri Cavid Şahmalıyevin “Sosial iş” ixtisasında təhsil alan tələbələrlə görüşü təşkil edilib. Görüş “Himayədar ailə alternativ qayğı forması kimi” mövzusunda aparılıb.***

Himayədar ailənin mahiyyəti, övladlığa götürmədən fərqi, cəmiyyətdə himayədar ailə institutunun formalaşma zərurəti və bugünkü durumu ilə bağlı məlumat verən Cavid Şahmalıyev bildirib ki, “Himayədar ailə” qayğı modelinin tətbiqi valideyn himayəsindən məhrum uşaqların sosial müəssisələrdə deyil, ailələrdə böyüməsinə və ailə mühitində inkişafına şərait yaradır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il fevralın 15-də imzaladığı Fərman ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən himayədar ailə sahəsində dövlət siyasəti, tənzimlənməsi və dövlət nəzarəti uğurla icra edilir. O, həmçinin övladlığa götürmə və himayədar ailə ilə bağlı məsələlərin tənzimlənməsində sosial işçinin rolu və vəzifələri, “Gatekeeping” (himayədar ailə) mexanizminin mahiyyəti ilə bağlı tələbələri məlumatlandırıb.

Görüş mövzu ətrafında müzakirələr ilə interaktiv formatda davam edib.

# “Qərbi Azərbaycan tarixinə dair kitabların nəşri” – BDU-da elmi seminar

***Martın 13-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində növbəti elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının magistrantı Pəri Xəlilova “Qərbi Azərbaycan tarixinə dair kitabların nəşri” mövzusunda məruzə edib. Gənc tədqiqatçı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağa və Şərqi Zəngəzura böyük qayıdışdan sonra əzəli torpaqlarımız olan Qərbi Azərbaycana qayıdış məsələsinin xüsusi aktuallıq kəsb etdiyini vurğulayıb. Bu mövzuda fundamental araşdırmaların aparılmalı olduğunu diqqətə çatdırıb.



Məruzəçi mövzunun öyrənilməsi zamanı müxtəlif qaynaqlardan, o cümlədən, yerli, türk, rus mənbələrindən istifadə etdiyini qeyd edib. Tədqiqatda Azərbaycan türklərinin qədim yurd yeri olan Qərbi Azərbaycanın mahallarının, həmçinin İrəvan xanlığının tarixinə aid kitablar təhlil olunub, mövzuya dair müxtəlif məlumat bazaları, internet resursları təqdim edilib. Məruzədə Qərbi Azərbaycan tarixinə dair kitabların nəşr tarixi xronoloji əsasda izlənilib, bu kitabların ictimai-siyasi proseslərin analizi, regionun tarixi-mədəni irsinin öyrənilməsi və tədqiqi baxımından xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Həmçinin bəhs olunan kitablar bədii tərtibat, dil-üslub xüsusiyyətləri, redaktə məsələləri baxımından təhlil edilib. Ayrı-ayrı nəşriyyatların bu mövzuda buraxdığı nəşrlərin müxtəlif əlamətlərə görə müqayisəli təhlili aparılıb, çap məhsullarının dinamikası ad və tiraj göstəriciləri baxımından təqdim olunub.

Məruzəçi çıxışını Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə səsləndirdiyi fikirlərlə yekunlaşdırıb: “Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah”.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# “Elmin yeni rakursunda dost və düşmən stereotipi: F.Bodenştedt və Azərbaycan” - BDU elmi seminar

***Martın 17-də Filologiya fakültəsində 27 mart - Azərbaycan Respublikasında “Elm günü”nə həsr edilmiş silsilə tədbirlər çərçivəsində “Elmin yeni rakursunda dost və düşmən stereotipi: F.Bodenştedt və Azərbaycan” mövzusunda elmi seminar keçirilib. Mövzu ilə bağlı Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu geniş təqdimatla çıxış edib.***

Məruzəçi bildirib ki, “elmin yeni rakursu” anlayışı iki məna ifadə edir. Birincisi, burada istifadə edilən mənbələrin çoxu Azərbaycan dilinə xarici dillərdən süni intellekt vasitəsilə tərcümə olunub və XXI əsrin möcüzəsi olan bu texnoloji yenilik hazırda həm alimlərimiz, həm də yeni yetişən nəsil qarşısında sərhədsiz imkanlar açır. İkincisi, indiyədək filologiya elmində kök atmış bəzi stereotiplər ədəbiyyata və ümumən tarixə fərqli baxış bucaqlarından baxmağa ciddi maneçilik törədir.

Bunlardan biri də Avropada və dünyada şair, nasir, dramaturq, publisist, tərcüməçi, teatr xadimi, şərqşünas və slavyanşünas alim kimi tanınan professor Fridrix fon Bodenştedtin Azərbaycanda yüz ilə yaxındır formalaşmış “oğru” imicidir. Məti Osmanoğlu Fridrix fon Bodenştedtin 1848-ci ildə Almaniyada nəşr etdirdiyi 600 səhifəlik “Qafqaz xalqları və onların ruslara qarşı azadlıq mübarizəsi” kitabının Azərbaycan tarixşünaslığı və mədəniyyətşünaslığı baxımından əhəmiyyətini vurğulayıb.

Əsər XIX əsrdə Qafqazda cərəyan edən hadisələrin içində Azərbaycanın yerini müəyyənləşdirmək baxımından son dərəcə ciddi mənbədir. Fridrix fon Bodenştedtin həm “Qafqaz xalqları və onların ruslara qarşı azadlıq mübarizəsi”, həm də 1850-ci ildə nəşr etdirdiyi “Şərqdə min bir gün” kitablarında Rusiyanın işğalçılıq siyasətinə məruz qalan Azərbaycan xalqının tarixi, mənşəyi, siyasi və mədəni proseslərdəki rolu, adət-ənənələri, folkloru barədə kifayət qədər maraqlı faktlar var.

Bunlar tədqiq olunmalı, tarix, ədəbiyyat və mədəniyyətşünaslıq fənlərinin tədrisi zamanı nəzərə alınmalıdır.

Məti Osmanoğlu Fridrix fon Bodenştedtin bədii yaradıcılığında Azərbaycan obrazı məsələsinə toxunaraq, irihəcmli “Ləzgi qızı Ada” (1853) epik poemasının Azərbaycana həsr olunmuş ayrı-ayrı fəsillərindən nümunələr göstərib. Onun sözlərinə görə, müəllifin həm bu, həm də Şərq mövzusunda yazdığı digər əsərlərinin Azərbaycan ədəbiyyatı ilə müqayisəli təhlili müasir filologiya elmi baxımından böyük aktuallıq daşımaqdadır.

Sonra mövzu ilə bağlı müzakirələr aparılıb.

# BDU-da orqan donorluğu və transplantasiyasının hüquqi və etik tərəfləri araşdırılır

***Martın 17-də Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Orqan donorluğu və transplantasiyası: hüquqi və etik yanaşmalar" adlı elmi-praktiki seminar keçirilib.***

Hibrid formada təşkil olunan seminarda BDU-nun və digər ali təhsil ocaqlarının Hüquq fakültələrinin tələbələri, “Tibb hüququ” ixtisaslaşması üzrə təhsil alan magistrantlar, digər fakültələrin tələbələri, vəkillər, ixtisaslaşmış hüquqşünaslar və kafedranın müəllimləri iştirak ediblər.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Azərbaycanda orqan donorluğu və transplansiyasının tarixi barədə məlumat verib, son illərdə bu sahədə dövlət tərəfindən həyata keçirilən işləri diqqətə çatdırıb.

Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının müdiri, dosent Əsmər Əliyeva kafedranın “BDU könüllüləri” ilə birgə təşkil etdiyi təlimlər, seminarlar, sosial platformalarda yaradılan qruplar, müsabiqələr barədə iştirakçıları məlumatlandırıb, bu layihə və tədbirlərin hüquq elminin və tədrisinin inkişafına yönəldiyini vurğulayıb.

Sonra səhiyyə sahəsində ixtisaslaşmış hüquqşünaslar Ruslan Vəliyev və Nərmin Adıgözəlzadə təqdimatlarla çıxış ediblər. Seminar çərçivəsində orqan donorluğu və transplantasiyasının hüquqi tənzimlənməsi, etik mülahizələr, məsələnin tibbi əsasları, transplantasiya sahəsində cinayət məsuliyyəti kimi mövzular geniş müzakirə olunub. Həmçinin, orqan bağışlanmasının könüllülük prinsipinə əsaslanması, donor və resipiyentlərin hüquqlarının qorunması, transplantasiya zamanı etik prinsiplərin gözlənilməsi, eyni zamanda Azərbaycan qanunvericiliyində bu sahəni tənzimləyən normalar diqqətə çatdırılıb, beynəlxalq təcrübədən nümunələr gətirilib.

Seminarda Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova çıxış edərək, donor olmağın əhəmiyyətindən danışıb, bu sahədə ictimai şüurun artırılmasının önəmini vurğulayıb.

Tədbirin sonunda Hüquq fakültəsinin "BDU könüllüləri" təşkilatı ilə birgə təşkil etdiyi və ötən ildən başlayaraq bu günədək davam edən silsilə tədbirlərdə aktiv iştirak etmiş tələbələr sertifikatlarla təltif olunublar.

# “Gənclərin hüquq elminin inkişafında rolu” adlı tədbir

***Hüquq fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr edilmiş “Gənclərin hüquq elminin inkişafında rolu” adlı tədbir keçirilib.*** Tədbirdə Hüquq fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Rahim Məmmədov, Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, professor Kamil Səlimov çıxış edərək Hüquq fakültəsinin ölkəmizdə hüquq elminin və hüququn inkişafındakı rolu, hüquq məktəblərinin formalaşmasındakı əhəmiyyətindən bəhs ediblər. Daha sonra Mülki proses və kommersiya hüququ kafedrasının müdiri, dosent Əsmər Əliyeva, Əmək və ekologiya hüququ kafedrasının müəllimi Nərmin Həsənli Hüquq fakültəsində mövcud olan elmi məktəblərin fəaliyyətində davamlılığın və inkişafın təmin edilməsi məqsədilə gənc nəslin elmi araşdırmalara cəlb olunmasının vacibliyini vurğulayıblar. Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyətinin (TEC) sədri, IV kurs tələbəsi Mansur Səmədov “Tələbə Hüquq Jurnalı”, orada məqalə dərc etdirməyin tələbələrə verəcəyi faydalar, tələbələrin akademik fəaliyyətə həvəsləndirilməsi məqsədilə TEC tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verilib.

# BDU-nun qadınlardan ibarət stolüstü tennis komandası birinci olub

***Martın 10-da Gənclər və İdman Nazirliyi və Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə "Şüa" İdman Kompleksində "İdman həftəsi" çərçivəsində tələbələr arasında keçirilən stolüstü tennis yarışına yekun vurulub.***

Yarışda qadınlar arasında Bakı Dövlət Universitetinin (BDU) komandası birinci yeri tutub.

Azərbaycan Dövlət İqtisad Universitetinin və Azərbaycan İdman Akademiyasının komandaları müvafiq olaraq ikinci və üçüncü yerləri tutublar.

Komandamızı təbrik edir və daha böyük uğurlar arzulayırıq!

# BDU-da Azərbaycanda aqrar elmlərin inkişafı tarixi və müasir problemləri müzakirə edilib

***Martın 17-də Ekologiya və torpaqşünaslıq fakültəsində 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində elmi seminar keçirilib.*** Elmi seminarda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin elmi katibi, iqtisad elmləri doktoru Akif Vəliyev "Azərbaycanda aqrar elmlərin inkişafı tarixi və müasir problemlər" mövzusunda məruzə ilə çıxış edib.

Fakültə dekanı Akif Ağbabalı "Torpaqşünaslıq və aqrokimya", "Yerquruluşu və daşınmaz əmlakın kadastrı" ixtisasları üzrə təhsil alan tələbələrlə bu cür görüşlərin keçirilməsinin əhəmiyyətini xüsusilə vurğulayıb.



Akif Vəliyev Azərbaycanda aqrar elmlərin inkişafı tarixi, bu sahədə müasir tədqiqatların istiqamətləri, qazanılan elmi-nəzəri nəticələrin təsərrüfat əhəmiyyəti, sahəvi elmi-tədqiqat institutlarının müasir inkişaf istiqamətləri, qarşıda duran məsələlərin həlli ilə bağlı respublikamızda həyata keçirilən elmi və hüquqi tədbirlər barədə məlumat verib.

Məruzəçi həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının aqro-iqtisadi və təbii ehtiyatlarının istifadəsi ilə bağlı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası məqsədi ilə qarşıya qoyulan məsələlərin həllinə diqqət çəkib. Zəngin təbii və ekoloji sistemi, aqrar və torpaq ehtiyatlarını əhatə edən bu bölgələrdə ərazi məskunlaşması, torpaq ehtiyatlarının səmərəli istifadə olunması, aqrar-sənaye komplekslərinin formalaşması, sənaye və aqrar parklarının, müxtəlif istiqamətli sıx infrastruktur-nəqliyyat qovşağının yaradılmasından danışıb. "Ağıllı şəhər", "Ağıllı kənd", "Ağıllı kənd təsərrüfatı","Ağıllı ekosistem", "Ağıllı nəqliyyat sistemi" layihələrinin işlənilməsi istiqamətində qarşıda duran mühüm vəzifələrin elmi-nəzəri təhlilini aparıb.

# "İrəvan ədəbi mühiti" mövzusunda tədbir keçirilib

***Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş "İrəvan ədəbi mühiti" mövzusunda elmi tədbir keçirilib.***

Şərqşünaslıq fakültəsinin TEC sədrinin müavini, III kurs tələbəsi Firuzə Tağıyeva ölkədə elm və təhsilin inkişafının dövlətin əsas prioritetlərindən biri olduğunu deyib.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan Qərbi Azərbaycan icmasının təsis edilməsinin böyük ictimai hadisə olduğunu bildirib. İrəvanın əsrlər boyu Azərbaycan mədəniyyətinin və ədəbiyyatının mühüm mərkəzlərindən biri olduğunu, bu zəngin irsin araşdırılmasının və gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edib.

Mədəniyyət və İncəsənət Universitetinin Ədəbiyyat və dillər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Fəridə Səfiyeva əslən İrəvandan olan görkəmli filosof alim Heydər Hüseynovun həyat və yaradıcılığına həsr etdiyi "Bir ömrün iziylə" kitabı haqqında danışıb. Ümummilli Lider Heydər Əliyevin filosof Heydər Hüseynovu "Azərbaycan fəlsəfə elminin banisi" adlandırdığını qeyd edib. Məruzəçi həmçinin qələmə aldığı "İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər" kitabını təqdim edib.

İrəvanşünas alim, Atatürk Mərkəzinin şöbə müdiri Nazir Əhmədli, Türk filologiyası kafedrasının müəllimi, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü Güləhməd İmanov, kafedranın müəllimləri Bənövşə Hacıyeva və Şəbnəm Həsənova İrəvan və ətraf bölgələrdən zorla köçürülmüş azərbaycanlıların tarixi yaddaşını yaşatmaq, onların mədəni və elmi irsini qorumaq məqsədilə aparılan tədqiqatların, Qərbi Azərbaycan icmasının yaranmasının əhəmiyyətini vurğulayıb, İrəvanın ədəbi-mədəni mühiti və tarixi şəxsiyyətləri barədə məlumat veriblər.

Tədbirdə professor Fəridə Səfiyevanın qələmə aldığı "İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər" kitabı haqqında videoçarx izlənilib.

# Seyid Əzim Şirvaninin 190 illik yubileyi münasibətilə ədəbi-bədii tədbir

***Martın 18-də BDU-nun Elmi Kitabxanasının və Azərbaycan Milli İnkişafı Naminə (AMİN) İctimai Birliyinin birgə təşkilatçılığı ilə dahi Azərbaycan şairi Seyid Əzim Şirvaninin 190 illik yubileyinə həsr edilmiş "Seyyidi-ecazdəm" ("Möcüzə nəfəsli Seyyid") adlı ədəbi-bədii tədbir keçirilib.***

Elmi Kitabxananın direktoru Nigar İsmayılova kitabxanada dahi şairlərin silsilə yubiley tədbirlərinin keçirilməsinin sevindirici və faydalı olduğunu qeyd edib, bunun Seyid Əzim Şirvaninin 190 illik yubileyinə ilk töhfə olduğunu nəzərə çatdırıb.

AMİN İctimai Birliyinin sədri, Elmi Kitabxananın baş biblioqrafı, şair, tədqiqatçı Məcid Heydərli (Seyyid Əsri) Məhəmməd Füzulinin Seyid Əzim yaradıcılığına təsiri barədə çıxış edib. Şairin təxəllüsünün onun şerlərinin vəznindən çıxış edərək məhz "Seyyid" şəklində olduğunu xatırladan Məcid Heydərli klassik divanların tədqiqində ilkin mənbədən istifadənin, əski əlifba və bələğət bilgisinin vacibliyini önə çəkib.

BDU-nun Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov belə tədbirlərin müasir gəncliyi klassik irs ilə bağlayan bir körpü olduğunu vurğulayıb, İctimai Birliyin Elmi Kitabxana ilə əməkdaşlığına uğurlar arzulayıb. Lənkəran Dövlət Universitetinin magistrantı, İctimai Birliyin nəzdində "Vəfa" ədəbi məclisinin sədri, şair, filoloq Məhəmməd Nuri dahi şairin Qövsi, Nişat, Nabi, Zakir və digər böyük söz ustadlarına yazdığı nəzirələrinin ədəbi məziyyətlərindən söz açıb. O, Seyid Əzim Şirvaninin farsca divanını tərcümə etdiyini və onun tezliklə işıq üzü görəcəyini bildirib.

Filologiya fakültəsininin tələbəsi, şair Selcan Təvvabi "Seyid Əzim Şirvaninin "Həzrət İbrahim əhvalatı" məsnəvisi - multikultral və tolerant dəyərlərin ədəbi təbliğ örnəyi" adlı məruzə edib. Fakültənin digər tələbəsi, şair Məcid Dövri, Elmi Kitabxananın əməkdaşı Hicran Fərhadova, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu, tədqiqatçı, şair İmran Beyti çıxışlarında Seyid Əzim Şirvaninin böyük maarifçi kimi milli fikir tarixində silinməz iz buraxdığını qeyd edibılər.

Tədbirin bədii hissəsində Şərqşünaslıq fakültəsinin tələbəsi, gənc şair Elmar Şahid şairin qəzəlinə yazdığı təzmin-nəzirəni səsləndirib. Filologiya fakültəsinin tələbələri - aparıcı Aydan Aslanlı və Səyahət Məhərrəmova tərəfindən Seyid Əzimin yaradıcılığından qəzəllər ifa olunub.

Tədbirin sonunda şairin əsərlərindən ibarət kitab sərgisinə baxış keçirilib.

# "Qurani-Kərim"in türkcə ilk tərcümələrində arxaikləşmiş türk mənşəli dini sözlər araşdırılıb

***Martın 18-də Filologiya fakültəsinin Türkologiya kafedrasında "Qurani-Kərim"in türkcə ilk tərcümələrində arxaikləşmiş türk mənşəli dini sözlər" adlı elmi seminar keçirilib.***

Məruzəçi - Türkologiya kafedrasının dosenti Afaq Məmmədova əvvəlcə qədim dövrlərdə türklərin müxtəlif dinlərə münasibətindən və İslam dinini qəbul etmələrindən bəhs edib. Məruzəçi bildirib ki, tədqiqat çərçivəsində sətirarası tərcümə üsulundan istifadə edilərək "Qurani-Kərim"in Qaraxanlı və Xarəzm türk ədəbi dillərində ilk tərcümələri araşdırılıb. O, müqəddəs kitabın tərcümələrinin lüğət fondunda türk mənşəli sözlərin faktiki zənginliyi, sözlərin dilin leksik-semantik sistemindəki çoxşaxəliliyi, söz yaradıcılığı, yeni sözyaratma strategiyası, tərcümələrdə bir ərəb sözünün qarşılığı kimi bəzən iki müxtəlif türk mənşəli sözün yazılması haqqında məlumat verərək, həmin dövrdə türkcənin geniş imkanlara sahib olduğunu vurğulayıb.

Afaq Məmmədova həmin tərcümələrdə xeyli sayda türkcə dini terminlərin işlədildiyini, lakin zamanla bu terminlərin arxaikləşərək, ərəb və fars mənşəli sözlərlə əvəz olunduğunu diqqətə çatdırıb. O, bu terminlərin əsasən üç istiqamətdə özünü göstərdiyinə dair konkret nümunələr təqdim edib. Birinci istiqamətə görə, müxtəlif din və inanclara etiqad edən türklərin istifadə etdikləri terminlər İslam dininə uyğunlaşdırılıb. Məsələn, "yazuk" (günah), "tamu" (cəhənnəm), "uçmak" (cənnət) kimi sözlər bu kateqoriyaya daxildir. İkinci istiqamətə əsasən, qədim türk dilində ifadə etdikləri mənalardan əlavə, yeni semantikada işlənən, yəni anlam genişləməsinə məruz qalan sözlər var. Bunlara "arığ" (günahsız), "bəlgü" (ayət), "boğazla" (qurban kəsmək), "yaman" (günahkar, haram) kimi nümunələr daxildir. Üçüncü istiqamət isə morfoloji ya da sintaktik yolla yaranan yeni dini terminlərlə bağlıdır. Bu, dilin daxili imkanları nəticəsində formalaşan terminlərdir, məsələn, "bütməgən" (kafir), "inanğan" (mömün), "oquğ" (dua), "yunuğ" (dəstəmaz), "uluq yunuq" (qüsul) kimi sözlər buna misaldır.

Seminarın sonunda kafedra müdiri, professor Məhərrəm Məmmədov, dosentlər Sevda Sadıqova, Kəmalə Nəcəfova və digər iştirakçılar mövzu ilə bağlı fikir mübadiləsi apardılar. Qeyd edilib ki, bu mövzu ilk dəfə sistemli və əhatəli şəkildə elmi araşdırmaya cəlb edilib.

# "Karyera günləri"

***BDU-nun Karyera və məzunlarla iş Mərkəzi "Karyera günləri" layihəsinə start verib.***

Layihə çərçivəsində ilk infosessiya Kimya fakültəsinin "Kimya" və "Kimya mühəndisliyi" ixtisaslarının yüksək Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə (ÜOMG) malik olan II və III kurs tələbələri ilə keçirilib.

İnfosessiyada Mərkəzin fəaliyyət istiqamətləri və tələbələr üçün reallaşdırılan layihələr haqqında məlumat verilib. Bildirilib ki, "Karyera günləri" layihəsinin əsas məqsədi seçilmiş gənclərin karyera inkişafına dəstək olmaq, onların yumşaq və texniki bacarıqlarını inkişaf etdirmək, müxtəlif işəgötürən şirkətlərin sahəvi mütəxəssisləri tərəfindən təlimlərin təşkilinə şərait yaratmaq, tələbələrin şirkətlərin daxili iş prosesi ilə tanışlığı üçün infoturlar təşkil etmək, layihənin sonunda isə aktiv tələbələri təcrübə proqramına cəlb etməkdir.

İnfosessiya interaktiv müzakirələr və praktiki nümunələr ilə davam edib.

# V Azərbaycan Astronomiya Olimpiadasının final mərhələsi keçirilib



*Martın 15-də V Azərbaycan Astronomiya Olimpiadasının final mərhələsi keçirilib. BDU-da və Naxçıvan şəhəri 3 nömrəli tam orta məktəbdə keçirilən müsabiqədə olimpiadanın respublika turunu keçən 100-dən artıq şagird iştirak edib. Olimpiadanın final mərhələsinin qalibləri Hindistanda keçiriləcək XVIII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərslərinə cəlb olunacaqlar.*

Final mərhələsindən qabaq Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin və BDU-nun mütəxəssisləri tərəfindən respublika turunu keçən şagirdlər üçün onlayn hazırlıq dərsləri təşkil olunub. Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına erkən hazırlıq məqsədi də daşıyan dərslərdə olimpiadanın proqramına uyğun olan mövzular tədris olunub, beynəlxalq olimpiada sualları həll edilib. V Azərbaycan Astronomiya Olimpiadası qalibləri üçün hazırlıq dərsləri final turundan sonra da davam edəcək.

Qeyd edək ki, V Azərbaycan Astronomiya Olimpiadası Cənubi Qafqazda yeganə planetarium olan Tusi-Bohm Planetariumun baş sponsorluğu ilə həyata keçirilir. Komandanın Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında iştirakı Azərbaycan Respublikası Təhsil İnstitutunun dəstəyilə baş tutur.

# BDU tələbələri DİA-da "Azərbaycanın dövlət müstəqilliyi və konstitusion inkişaf tarixi" mövzusunda məruzə ediblər

*Martın 14-də Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatının üzvləri tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Konstitusiya və Suverenlik İli" çərçivəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbir keçirilib.*

Akademiyanın müxtəlif kurslarından olan tələbələrinin iştirak etdiyi tədbirdə "Tələbədən tələbəyə" layihəsinin təlimçiləri – BDU-nun Hüquq fakültəsinin II kurs tələbələri Xəyal Əhmməd və Jalə Nuriyeva əvvəlcə "Elm günü"nün mahiyyəti haqqında məlumat verib, bu günün ölkədə elmin inkişafına, alimlərin fəaliyyətinə, eləcə də elmi-tədqiqat institutlarına verilən önəmin göstəricisi olduğunu vurğulayıblar.

Daha sonra tələbələr "Azərbaycanın dövlət müstəqilliyi və konstitusion inkişaf tarixi" mövzusunda məruzə ilə çıxış edərək, Azərbaycan dövlətçiliyinin müstəqillik yolu, konstitusional inkişaf mərhələləri, eləcə də 1995-ci il noyabrın 12-də Ümummilli Lider Heydər Əliyevin xüsusi təşəbbüsü və müəllifliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının mahiyyəti və rolu barədə geniş məlumat veriblər. Tədbirdə suverenlik anlayışı və mahiyyəti müzakirə olunub, xüsusilə Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət suverenliyinin tam bərpa edildiyi diqqətə çatdırılıb.

# "AgroEco" hakatonunun final mərhələsi keçirilib

*Martın 14-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "AgroEco" hakatonunun final mərhələsi keçirilib.*

Hakatonun ilkin mərhələsində Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin elmi katibi Akif Vəliyev və BDU-nun Coğrafi ekologiya kafedrasının professoru Şövqi Göyçaylı tələbələrə aqroekologiya, kənd təsərrüfatı və ətraf mühit problemlərində innovativ həllərin axtarılması istiqamətində ideya yönümlü təlim keçiblər.

Hakatonun ikinci mərhələsində BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin layihələrlə iş üzrə departamentinin sədri Fidan Qəniyeva iştirakçıları layihənin yazılması və idarəolunması sahəsində əsas biliklər, SMART layihənin qurulması üsulları ilə tanış edib.

Yarışın üçüncü mərhələsində iştirakçılar beş komandaya bölünərək diskussiyalar aparıblar.

Final mərhələsində 5 komandanın hər biri hazırladıqları layihələri təqdim ediblər. Münsiflər heyətinin qərarına əsasən, "Aguadrop" komandasının "Damcı suvarma sistemlərində su istifadəsinin optimallaşdırılması" layihəsi I yeri tutub. II və III yerləri isə "Terranova" və "GreenGenius" komandaları qazanıb. Qalib komandalara kubok, medallar və sertifikatlar verilib.

# BDU tələbələri "KPMG Azerbaijan" şirkətində iş imkanları barədə məlumatlandırılıb

*Martın 11-də Bakı Dövlət Universitetinin Karyera və məzunlarla iş Mərkəzinin təşəbbüsü ilə "KPMG Azerbaijan" şirkətinin nümayəndələrinin Mexanika-riyaziyyat, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin tələbələri ilə görüşü təşkil edilib.*

Əvvəlcə şirkət nümayəndələri tələbələrə "KPMG Azerbaijan"ın fəaliyyəti, iş prinsipləri və karyera imkanları barədə ətraflı məlumat veriblər. Tələbələrin peşəkar inkişafına töhfə vermək məqsədilə təşkil olunan görüşdə "KPMG Azerbaijan"ın təcrübə proqramının tələbləri, seçim meyarları, müraciət prosesi haqqında geniş təqdimat edilib. Bildirilib ki, bu proqram gənc mütəxəssislərə real iş mühiti ilə tanış olmaq, bilik və bacarıqlarını təkmilləşdirmək, karyeralarını qurmaq üçün unikal şans yaradır.

Daha sonra tələbələrin sualları cavablandırılıb.

# BDU-da Ümumdünya Su Gününə həsr edilmiş ustad dərsi

*Martın 19-da Coğrafiya fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində Dövlət Su Ehtiyatları Agentliyinin Su və Meliorasiya Komplekslərinin Layihələndirilməsi İnstitutunun baş mühəndisi Məmməd Əsədovun 22 mart - Ümumdünya Su Gününə həsr olunmuş ustad dərsi keçirilib.*

Dərsdə iştirak edənlərə su ehtiyatlarının qorunması, xüsusilə buzlaqların vəziyyəti və bu sahədəki aktual məsələlər barədə ətraflı məlumat verilib. Məmməd Əsədov bildirib ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1993-cü ildə qəbul etdiyi qərara əsasən, hər il martın 22-si Ümumdünya Su Günü kimi qeyd olunur. 2025-ci ilin mövzusu isə "Buzlaqların qorunması" olacaq. Azərbaycanda buzlaqlar əsasən Böyük Qafqazın zirvələrində cəmləşib, onların sahəsi çox kiçikdir.

Dərsdə vurğulanıb ki, Azərbaycanda su ehtiyatlarının 70%-i transsərhəd çayların axar suları ilə formalaşır və bu çaylar su anbarlarına çox miqdarda çirkab sular gətirir. Dünya Su Ehtiyatları İnstitutunun qiymətləndirməsinə əsasən, Azərbaycan su ehtiyatları ən az olan ölkələrdən biridir. Məruzəçi ölkə rəhbərliyinin su problemlərinin həlli üçün həyata keçirdiyi bir sıra mühüm addımları da diqqətə çatdırıb. Bu tədbirlər arasında yeni su anbarları və su kanallarının inşası, o cümlədən Taxtakörpü və Şəmkirçay su anbarlarının istifadəyə verilməsi yer alır.

Dərsdə mövzu ilə bağlı geniş müzakirələr aparılıb, tələbələrin sualları cavablandırılıb.

# Beynəlxalq Daun Sindromlu Şəxslər Günü qeyd edilib

*Sosial elmlər və psixologiya fakültəsində 21 mart – Beynəlxalq Daun Sindromlu Şəxslər Günü münasibətilə "Daun sindromunu anlamaq: dünyanın 21-ci nəbzi" adlı tədbir keçirilib.*

Tədbirdə fakültənin professor-müəllim heyəti, "Korreksiyaedici təlim" ixtisası üzrə təhsil alan III kurs tələbələri, daun sindromlu Pərvanə Hüseynli və onun anası Nüşabə Hüseynli iştirak ediblər.

Psixologiya kafedrasının müdiri Səxavət Əliyeva "Daun sindromlu şəxslərlə bağlı sosial məsuliyyət" mövzusunda çıxış edib, onların kiçik yaşlardan sosial aktiv mühitdə daha yaxşı inkişaf etdiklərini vurğulayıb. Psixologiya kafedrasının müəllimi İlahə Nəbiyeva tədbir iştirakçılarına daun sindromunun tarixi və nəzəri əsasları haqqında ətraflı məlumat verib. Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev isə daun sindromlu insanlara dövlət qayğısı, abilitasiya və reablitasiya proqramlarından bəhs edib.

Tədbir çərçivəsində "Korreksiyaedici təlim" ixtisasında təhsil alan tələbələrin hazırladıqları videotəqdimat və daun sindromu ilə bağlı Bakı şəhərində aparılmış sosioloji sorğuya dair videoçarx nümayiş etdirilib.

Nüşabə Hüseynli daun sindromlu uşağın valideyni kimi öz şəxsi təcrübəsini bölüşüb, qızının könüllülük proqramlarındakı uğurlu fəaliyyətini qeyd edib.

Sonda tədbirin qonağı Pərvanə Hüseynli rəsm əsərlərini və əl işlərini nümayiş etdirib, "Xarı bülbül" rəqsini ifa edib.

# Samur-Dəvəçi fiziki-coğrafi rayonunun sahilyanı ərazilərinin CİS mühitində tədqiqi davam edir

*Coğrafiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində "Samur-Dəvəçi fiziki-coğrafi rayonunun sahilyanı ərazilərində landşaft tiplərinin transformasiyasına təbii və antropogen amillərin təsirinin Coğrafi İnformasiya Sistemləri (CİS) mühitində təhlili" mövzusunda elmi seminar keçirilib.*

Mövzu üzrə məruzə edən fakültənin doktorantı Günay Abbasova bildirib ki, CİS-lər müasir dövrdə ərazilərin elmi əsaslarla öyrənilməsində mühüm rol oynayır. Tədqiq olunan ərazi DEM (Rəqəmsal Yüksəklik Modeli - Digital Elevation Model), "Slope" ("Meyillilik") və "Aspect" ("Baxarlılıq") üsulları ilə araşdırılıb. DEM təhlilləri nəticəsində müəyyən olunub ki, tədqiqat ərazisinin yüksəklik diapazonu 26 metrdən 680 metrə qədər dəyişir.

Meyillilik xəritəsi əsasında ərazi altı kateqoriyaya bölünüb. Baxarlılıq xəritəsi isə yamacların hansı istiqamətdə baxdığını təhlil etməyə imkan verir. Bu amil günəş radiasiyası və rütubət balansına təsir etdiyindən, landşaft tiplərinin formalaşmasında əhəmiyyətli rol oynayır.

# "Gənc istedadlar" liseyinin şagirdləri "Sabahın alimləri” XIV Respublika müsabiqəsinin qalibidirlər

*Martın 14-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdləri "Sabahın alimləri” XIV Respublika müsabiqəsinin finalında böyük uğura imza atıblar.*

Belə ki, liseyin IX sinif şagirdləri Mirsadiq Kərimli kimya üzrə I, Samirə Cəfərli, Cəsur Rəsulzadə və XI sinif şagirdi Ağahüseyn Hüseynov II, X sinif şagirdi Ayan Abbasova isə fizika və astronomiya istiqaməti üzrə III yerə layiq görülüblər.

Şagirdlərimizi təbrik edir, daha böyük uğurlar arzulayırıq!




# BDU-da iqtisadi fizikanın problemləri müzakirə olunub

*Martın 13-də Fizika, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin birgə təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr edilmiş silsilə seminarlar çərçivəsində iqtisadi fizikanın problemlərinə dair elmi seminar keçirilib.*

Əvvəlcə Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev və Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışlı təqdim olunan mövzunun aktuallığı, fakültələrarası birgə fəaliyyətin əhəmiyyəti barədə danışıblar.

Sonra Fizika fakültəsinin Nanomaterialların kimyəvi fizikası kafedrasının müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor Maarif Cəfərov “İqtisadi fizikanın bu günü və gələcəyi” mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, müasir dövrdə fənlərarası inteqrasiya xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə fizikaya aid biliklərin və fizika qanunlarının digər elm sahələrində tətbiqi yeni istiqamətlərin meydana çıxmasına gətirib. Bu istiqamətlərdən biri də “İqtisadi fizika”, başqa sözlə “Ekonofizika”dır. O qeyd edib ki, “Ekonofizika” termini ilk dəfə 1997-ci ildə maliyyə məlumatlarının təhlilinə statistik fizikanın üsullarının tətbiq olunduğu işlərin ümumi icmalında işlənib. 1998-ci ildən etibarən Avropa və Şimali Amerikada mütəmadi olaraq ekonofizika üzrə konfranslar keçirilir. Həmin konfranslarda iqtisadi proseslərin idarə olunmasına fizikanın qanunlarının tətbiqinə dair elmi araşdırmaların nəticələri təqdim olunub. Maarif Cəfərov bildirib ki, hazırda bir çox aparıcı universitetlərdə ekonofizika üzrə mütəxəssis hazırlığı aparılır və bu ixtisas gələcəyin ixtisası hesab olunur. O, həmin ali təhsil müəssisələrində ekonofizika ixtisası üzrə tədris prosesinin xüsusiyyətləri barədə danışıb, həmin ixtisas çərçivəsində keçilən mövzuları sadalayıb, termodinamikanın, statistik fizikanın, kvant fizikasının qanunlarının iqtisadi proseslərin öyrənilməsinə tətbiqi barədə nümunələri göstərib. O, BDU-nun magistratura təhsil pilləsində bu ixtisas üzrə kadr hazırlığı üçün görülməli olan işlərdən danışıb. Sonda məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# BDU-da elmi seminar: “Planetimizin buzlaşma mərhələləri”

*Martın 13-də Coğrafiya fakültəsində 27 mart - Azərbaycan Respublikasında “Elm günü”nə həsr edilmiş elmi seminar keçirilib.* Seminarda Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun Hidrogeologiya və geoekologiya şöbəsinin rəhbəri, coğrafiya elmləri doktoru Vaqif Məmmədov “Planetimizin buzlaşma mərhələləri” mövzusunda çıxış edib.



Coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov “Elm günü”nün təsis olunması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 aprel 2018-ci il tarixli Sərəncamının elmin inkişafında mühüm əhəmiyyət daşıdığını və alimlər, gənc tədqiqatçılar üçün stimul olduğunu bildirib. O qeyd edib ki, son illər gənclər arasında elmi araşdırmalara maraq artıb. Bunu magistratura və doktoranturaya qəbul olunanların sayının artması da sübut edir.

Coğrafiya elmləri doktoru Vaqif Məmmədov məruzəsində diqqətə çatdırıb ki, hər il Yer kürəsində təxminən 72 mln.km sahəyə malik ərazi qarla örtülür. Qarın sıxlığı 0,05-0,45 q/sm3 olduğu halda, sıxılmış qarın sıxlığı 0,40-0,83 q/sm3 təşkil edir. Buzlaqlar formalaşanda isə sıxlıq 0,90 q/sm3-ə çatır. Yer kürəsində bütövlükdə buzlaşma sahəsi 16,3 mln.km2-ə yaxındır. İqlimin formalaşmasında və sirkulyasiyasında onlar əhəmiyyətli rol oynayır, buzlaqlar əriyəndə isə Yer səthinin albedosu dəyişir və istixana effekti yaranır.

Məruzədən sonra dosentlər Əfqan Talıbov, Şəkər Məmmədova, müəllimlər Şəfiqə Hümbətova, Ləman Həsənəliyeva, Nərmin Qocayeva və başqalarının sualları cavablandırılıb.

Tədbirdə Vaqif Məmmədovun “Planetimizin buzlaşma mərhələləri” adlı monoqrafiyasının təqdimatı da keçirilib.

# BDU Sosial Xidmətlər Agentliyinin təşkil etdiyi tədbirdə təmsil olunub

*Martın 17-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyi tərəfindən “Konstitusiya və Suverenlik İli” və Dünya Sosial İş Günü çərçivəsində “Probasiya nəzarətində olan şəxslərin sosial-psixoloji adaptasiyası istiqamətində yeni trendlər” mövzusunda onlayn tədbir təşkil edilib.*

Tədbirin əsas məqsədi probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyasının təkmilləşdirilməsi, onların cəmiyyətə uğurlu inteqrasiyasının dəstəklənməsi və bu sahədə innovativ yanaşmaların müzakirəsi olub.

Tədbirin açılışında Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov və Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin rəisi Vüqar Ağayev çıxış edərək, probasiya nəzarətində olan şəxslərin sosial reabilitasiyası istiqamətində həyata keçirilən tədbirlər və gələcək perspektivlər barədə məlumat veriblər.

Daha sonra Bakı Dövlət Universitetinin rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov çıxış edərək, universitetin sosial iş ixtisası üzrə kadr hazırlığı sahəsində həyata keçirdiyi fəaliyyətlər, eləcə də bu istiqamətdə yerli və beynəlxalq əməkdaşlığı barədə ətraflı məlumat verib.

Tədbirdə, həmçinin, sosial reabilitasiya, psixososial dəstək mexanizmləri və beynəlxalq təcrübəyə əsaslanan yeni yanaşmalar müzakirə edilib. Qeyd edilib ki, probasiya nəzarətində olan şəxslərin sosial-psixoloji adaptasiyası dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edir və bu istiqamətdə multidissiplinar yanaşmaların tətbiqi vacibdir.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib və iştirakçılar tərəfindən praktiki təkliflər irəli sürülüb.

# BDU-da kiber gigiyena və onlayn təhlükələrdən qorunmanın yolları araşdırılıb

*BDU və “Codelandia” MMC-nin birgə təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş elmi seminar keçirilib.* Tələbə və gənc tədqiqatçıların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi, bu sahədə ən son yeniliklərlə məlumatlandırılmaları məqsədilə keçirilən seminarda “Checkpoint Cybersecurity” şirkətinin Azərbaycan üzrə xüsusi nümayəndəsi Şahin Soltanov və “Codelandia” MMC-nin kibertəhlükəsizlik üzrə mütəxəssisi Toğrul Xəlilov “Kiber immunitet: kiber gigiyena və onlayn təhlükələrdən qorunma” mövzusunda məruzə ilə çıxış ediblər.

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov çıxış edərək, dövlət-özəl tərəfdaşlığı ilə Universistetdə təşkil edilən və bu istiqamətdə “Codelandia” MMC ilə həyata keçirilməsi nəzərdə tutulan layihələr barəsində tədbir iştirakçılarına məlumat verib. Qeyd edib ki, belə əməkdaşlıqlar BDU tələbələrinin informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarının artmasına, onların əmək bazarının tələblərinə uyğun yüksəkixtisaslı kadr kimi formalaşmasına imkan verəcək.

Daha sonra məruzəçilər - Şahin Soltanov və Toğrul Xəlilov kibertəhlükələrə qarşı sistemlərin və fərdi istifadəçilərin dayanıqlılığını artırmaq məqsədilə tətbiq edilən təhlükəsizlik yanaşması, rəqəmsal dövrdə informasiya təhlükəsizliyinin təmin edilməsi, şəxsi və korporativ məlumatların qorunması və kiberhücumların qarşısının alınması üsullarından söz açıblar. Həmçinin təhlükəsizlik sistemlərinin gücləndirilməsi, mütəmadi yenilənmələr, süni intellektin tətbiqi, şəbəkə təhlükəsizliyi və insan faktorunun rolu, müasir texnologiyalardan istifadə etməklə şirkətlərin və fərdlərin kibertəhlükələrdən müdafiəsi, habelə kiber immunitetin gələcəyi – inkişaf edən kibertəhlükələrə qarşı yeni həllərin tətbiqi, süni intellekt və maşın öyrənmənin təhlükəsizlik sahəsində rolu və dövlətlər səviyyəsində kibertəhlükəsizlik strategiyalarının formalaşdırılması kimi mövzular ətrafında da fikirlərini bildiriblər.

Sual-cavab formatında davam edən seminar mövzu ətrafında müzakirələrlə başa çatıb.

Qeyd edək ki, BDU-nun tələbə və gənc tədqiqatçılarının süni intellekt əsaslı texnologiyalar və informasiya təhlükəsizliyi sahələrində bilik və bacaqırlarının daha da artırılması, onların bu sahələr üzrə ən son yeniliklər barəsində məlumatlandırılması, habelə istehsalatdan olan mütəxəssislərin təcrübəsindən yararlanmaları məqsədilə bu mövzularda müxtəlif məzmunlu tədbirlərin davamlı olaraq təşkili planlaşdırılır.

# BDU tələbələrinin Mərkəzi Nəbatat Bağına ekskursiyası təşkil edilib

***Martın 19-da Biologiya fakültəsinin Tələbə Gənclər Təşkilatı (TGT) 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "Bitkiləri tanıyaq" adlı ekskursiya təşkil edib. Mərkəzi Nəbatat Bağında keçirilən tədbir tələbələrin botanika sahəsində biliklərini artırmaq, təbiətə olan maraqlarını gücləndirmək və bitki müxtəlifliyini tanıtmaq məqsədi daşıyıb.***



Ekskursiyada Biologiya fakültəsinin dekan müavini Yusif Abiyev, "Xarı Bülbül" Qızlar Klubunun sədri, professor Fərayət Əhmədova və tələbələr iştirak ediblər. Ekskursiya zamanı tələbələr bağın zəngin bitki örtüyü ilə daha yaxından tanış olub, bitkilərin mühafizəsi və ekosistemlərdəki rolunu öyrənib, bitki növlərinin ekologiyası və onların qorunmasının əhəmiyyəti haqqında məlumatlandırılıblar.

Ekskursiya zamanı Yusif Abiyev və Mərkəzi Nəbatat Bağının əməkdaşı, dosent Ofeliya Qafarova tələbələrə bağın tarixi, əhəmiyyəti və burada yetişdirilən bitki kolleksiyaları haqqında ətraflı məlumat veriblər. Tələbələr yeni əldə edilmiş qızılgül sortları və dünya florasından gətirilmiş bitkilərin Azərbaycan şəraitinə adaptasiya prosesləri, nadir və endemik bitki növləri ilə tanış olublar. Ekskursiya zamanı bitkilərin morfoloji xüsusiyyətləri, ekoloji tələbləri və mühafizə tədbirləri barədə maraqlı məlumatlar təqdim edilib.

Professor Fərayət Əhmədova ekskursiyanın sonunda tələbələrə təbiəti qorumağın və bitki müxtəlifliyinin əhəmiyyətini vurğulayıb. O, belə tədbirlərin gənc biologiya mütəxəssislərinin formalaşmasında mühüm rol oynadığını və onların elmi tədqiqatlara olan marağını artırdığını qeyd edib.

# BDU tələbələri Bakı Zooloji Parkında

***Martın 18-də Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatının Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə tələbələrin Bakı Zooloji Parkına ekskursiyası təşkil edilib.***

Ekskursiya zamanı tələbələrə Azərbaycanın "Qırmızı kitab"ına daxil olan, nəsli kəsilmək üzrə olan növlərin mühafizəsi, reintroduksiya proqramı haqqında məlumat verilib. Tələbələr digər ölkələrin unikal fauna nümunələri ilə də tanış olublar. Qeyd edək ki, Bakı Zooloji Parkı 1928-ci ildən fəaliyyət göstərir. 2017-ci ildə "Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" İctimai Birliyinin (IDEA) təşəbbüsü ilə Zooloji Parkda əsaslı yenidənqurma işləri başlayıb və 2021-ci ildə parkın açılışı olub. Yenidənqurma işlərindən sonra zooparkın ərazisi 2,25 hektardan 4,25 hektara çatdırılıb. Hazırda burada 125 növ heyvan saxlanılır. Onların 22 növü "Qırmızı kitab"a daxil edilib. Zooparkın akvaterriumunda 62 növ heyvan saxlanılır. Parkda nəsli kəsilməkdə olan bir çox nadir heyvan növlərinin canlı genofondunun saxlanılması təmin edilir və çoxaldılaraq təbiətə buraxılır.

# Məktəblilər BDU-nu ziyarət ediblər

***Martın 17-də Bakı şəhərindəki 307 nömrəli tam orta məktəbin X sinif şagirdləri Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə BDU-nu ziyarət ediblər.***



Şagirdlər Heydər Əliyev Muzeyi, Heydər Əliyev lektoriyası, Elmi Kitabxana, "Zəfər tarixi" lektoriyası, Genetika və təkamül muzeyində olublar.

Şagirdlərə BDU-dakı ixtisaslar barədə ətraflı məlumat verilib. Bildirilib ki, müasir dövrün tələbləri və karyera imkanları nəzərə alınaraq, tələbələr üçün hər cür şərait yaradılıb. Universitetin müasir tədris metodları, informasiya texnologiyaları sahəsində tətbiq etdiyi yeniliklər, BDU-nun "TEKNOFEST" və "Robotex" komandalarının beynəlxalq uğurları da diqqətə çatdırılıb. Sonda tələbələr BDU-nun yeni təmir olunmuş 2 saylı tədris binasında yaradılan şəraitlə də tanış olublar.

# BDU THİK tələbələr üçün ikigünlük düşərgə təşkil edib

***Martın 17-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tələbələr üçün ikigünlük düşərgə təşkil edib.***

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Quba rayonunda yerləşən "Nazlı Bulaq" İstirahət Mərkəzində təşkil edilən düşərgə tələbələrin asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilib.

Düşərgədə tələbələr əyləncəli vaxt keçirib, komandalara bölünərək, müxtəlif oyunlar oynayıblar.

# BDU-nun Psixoloji yardım sektoru məktəblilər üçün təlim keçib

***Martın 17-də BDU-nun Psixoloji yardım sektoru İlyas Əfəndiyev adına Elitar gimnaziyanın şagirdləri üçün təlim keçib.***




Sektorun psixoloqu Natəvan Həsənzadə tərəfindən "Şagirdlərin təhsildə motivasiyası" mövzusunda keçirilən təlimdə motivasiyanın öyrənmə, təlim prosesinin məhsuldarlığına, effektivliyinə müsbət təsir göstərən və öyrənmə fəaliyyətinin müvəffəqiyyətini müəyyən edən başlıca ünsür olduğu qeyd olunub. Vurğulanıb ki, təlim prosesinin sistematikliyi üçün vacib şərtlərdən biri kimi qiymətləndirilən motivasiyanın olmaması təlim uğurlarının azalmasına səbəb ola bilər. Motivasiya həm də şagirdləri idraki fəaliyyətə, təhsilin məzmununun fəal mənimsənilməsinə sövq edən proseslərə, metodlara, vasitələrə verilən ümumi addır. Müasir psixoloji terminologiyada motivasiya hərəkəti, davranışı, fəaliyyəti və tələbatın ödənilməsini stimullaşdıran prosesin xarakteristikası və davranışı müəyyən edən sistem kimi öyrənilir: "Təlim prosesində müsbət nəticə əldə etməyin başlıca yolu motivasiyanın yüksəldilməsi ilə müəyyən olunur. Yüksək motivasiya həm də düzgün inkişaf etmiş şəxsiyyət deməkdir. Problemə bu cür yanaşma olduqca aktual xarakter daşıyır. Çünki motivasiya insan davranışını tənzim edən enerji mənbəyi rolunu oynayır. O, eyni zamanda insanı müəyyən məqsəd, fəaliyyət üçün hərəkət etməyə sövq edən daxili potensial kimi qəbul edilir".

Təlim müddətində uşaqlar üçün müxtəlif motivasiya testləri, interaktiv müzakirə təşkil olunub.

# Jurnalistika fakültəsinin tələbələri AZƏRTAC-da olublar

***Martın 3-də Jurnalistika fakültəsinin rəhbərliyi və bir qrup tələbəsi Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) olub.***

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev qonaqlara agentliyin tarixi, keçdiyi inkişaf yolu və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Bir neçə gün əvvəl AZƏRTAC-ın 105 illik yubileyinin keçirildiyini bildirib: "1920-ci il martın 1-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən əsası qoyulan ilk milli xəbər agentliyi mürəkkəb, çətin və şərəfli yol keçib. Təəssüf ki, Cümhuriyyət dövrünün yadigarı olan AZƏRTAC müstəqil xəbər mənbəyi kimi cəmi 58 gün yaşaya bilib. AXC-nin süqutundan sonra agentliyin 70 illik sovet dövründə adı 7 dəfə dəyişdirilib, xəbər yayımında ciddi məhdudiyyətlərlə üzləşib. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra agentliyin tarixi adı qaytarılıb. AZƏRTAC-ın əsl inkişaf dövrü Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyəti illərində olub. Prezident İlham Əliyevin 2015-ci il fevralın 26-da imzaladığı Sərəncamla isə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) adlandırılıb".

İdarə Heyətinin sədri qeyd edib ki, son illərdə AZƏRTAC 50-dən artıq xarici ölkənin xəbər agentliyi ilə əməkdaşlıq müqaviləsi imzalayıb, 5 qitədə fəaliyyət göstərən agentliklərlə informasiya mübadiləsi aparır. Diqqətə çatdırılıb ki, son illər AZƏRTAC-ın xəbər yayımı keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Gün ərzində agentliyin xəbər lentində 8 dildə (Azərbaycan, rus, ingilis, alman, fransız, ərəb, Çin və ispan) 500-dən artıq informasiya yerləşdirilir, eləcə də beş dildə videoxəbərlər yayılır. Eyni zamanda, AZƏRTAC-ın dünyanın 25-ə yaxın ölkəsində xarici müxbir məntəqələri fəaliyyət göstərir. Agentlik Azərbaycan həqiqətlərini planetin demək olar, bütün guşələrinə çatdırır, dünya miqyasında dürüst və qərəzsiz xəbər mənbəyi kimi qəbul edilir.

Həmçinin bildirilib ki, bu gün AZƏRTAC gənc jurnalistlər üçün əsl təcrübə məktəbinə çevrilib.

Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev BDU-nun Medianın İnkişafı Agentliyi, Audiovizual Şura, Mətbuat Şurası da daxil olmaqla, müxtəlif media qurumları ilə səmərəli əməkdaşlığından söz açıb. O, Jurnalistika fakültəsində yaradılan media otaqlarının tələbə jurnalistlər üçün nəzəri bilikləri praktikada tətbiqi baxımından mühüm rolunun olduğunu vurğulayıb. Eyni zamanda, Jurnalistika fakültəsinin tələbələrinin ölkəmizin mötəbər media qurumlarında təcrübə keçdikləri diqqətə çatdırılıb.

Söhbət zamanı AZƏRTAC-ın BDU-da yaradılacaq xüsusi otağı barədə də danışılıb, bunun gənc jurnalistlər üçün təcrübə mübadiləsi baxımından önəmi qeyd olunub.

Müzakirələrlə davam edən görüşdən sonra BDU-nun Jurnalistika fakültəsinin nümayəndə heyəti AZƏRTAC-ın binasında yaradılan şəraitlə tanış olub.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyində Novruz şənliyi

***Martın 18-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyində təntənəli Novruz şənliyi keçirilib.***

Əvvəlcə Azərbaycan respublikasının Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU rektoru Elçin Babayev bayram münasibətilə liseyin müəllim və şagird heyətini təbrik edib, təhsil həyatlarında uğurlar arzulayıb. Lisey şagirdləri tərəfindən hazırlanan ədəbi-bədii kompozisiyalara, Novruz ənənələrini ehtiva edən stendlərə baxış keçirilib.

Daha sonra Novruz tonqalı qalanıb. Tədbir konsert proqramı ilə davam edib.



# BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin Novruz konserti



***Martın 18-də BDU-da Novruz bayramı münasibətilə musiqili tədbir keçirilib.***

Universitetin Mədəniyyət-yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən konsert proqramı BDU-nun instrumental ansamblının ifasında "Bahar" musiqisinin səsləndirilməsi ilə başlayıb.

Daha sonra BDU-nun vokal və qızlardan ibarət rəqs qrupları müxtəlif musiqi nömrələri ifa ediblər.

Tələbələrin ifa etdikləri Azərbaycan, qazax, türk, özbək, ispan və çin xalqlarının milli musiqi və rəqsləri alqışlarla qarşılanıb.

Sonda qızlardan ibarət rəqs qrupu "Yallı" rəqsini ifa edib.

# BDU-da İlaxır çərşənbə qeyd olunub

***Martın 18-də Bakı Dövlət Universitetində İlaxır çərşənbə qeyd olunub.***

BDU-nun rektoru Elçin Babayev tələbə və müəllimləri İlaxır çərşənbə münasibətilə təbrik edib, xalqımıza, dövlətimizə əmin-amanlıq, sülh arzulayıb. O, 2025-ci ilin Azərbaycan üçün əlamətdar il olduğunu, bu il Qarabağda böyük Zəfərin 5 illik yubileyinin qeyd ediləcəyini, bunun hər bir azərbaycanlı üçün qürur, fəxr olduğunu bildirib. Rektor 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olmasının ölkəmiz üçün çox önəmli olduğunu diqqətə çatdırıb, BDU-nun da bu ilə öz töhfələrini verəcəyini vurğulayıb.







BDU rektoru Universitetin dünyanın nüfuzlu reytinq agentliklərindən biri olan "QS Quacquarelli Symonds" tərəfindən aparılan "QS Stars" auditində 5 ulduz ilə qiymətləndirildiyini xatırladıb, beynəlxalq uğurların daha da artırılacağını deyib. O, tələbələri günü-gündən güclənən qalib Azərbaycan üçün çalışmağa və layiqli vətəndaş olmağa çağırıb.

Novruz tonqalı qalanandan sonra bayram şənliyi BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı konsert proqramı ilə davam edib.

# BDU THİK-in təşkilatçılığı ilə Novruz konserti

***Martın 17-də BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş konsert keçirilib.***

Tədbirdə universitetin istedadlı tələbələri milli rəqslər ifa edib, Novruza, bahara həsr olunmuş musiqi nömrələri səsləndiriblər. BDU-nun Mədəniyyət və Yaradıcılıq Mərkəzinin dəstəyi ilə keçirilən tədbir boyunca Novruzun rəmzləri olan Kosa və Keçəlin şən zarafatları mərasimə xüsusi ab-hava qatıb.

Tədbirin sonunda tanınmış müğənni Rüfət Axundov və "Star band" qrupunun sevilən ifaları tələbələr tərəfindən xüsusi coşqu ilə qarşılanıb.

# BDU tələbələri Novruz bayramının tarixi barədə məlumatlandırılıb

***Martın 17-də BDU-da fəaliyyət göstərən "Yeni klub" və Tarix fakültəsinin nəzdindəki "İstiqlal klubu"nun birgə təşkilatçılığı ilə "Novruz bayramı və tarixi ənənələr" mövzusunda tədbir keçirilib.***

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Azərbaycan xalqının erkən əkinçilik, maldarlıq təsəvvürləri ilə bağlı olan Novruz bayramının tarixi təqvim bayramı olduğunu deyib. O bildirib ki, mifoloji bayramlar xalqlara öz qədim ənənələrini qoruyub saxlamağa imkan verir. Novruz bayramı yazın gəlişini simvolizə edən, çox qədim zamanlardan ənənəyə çevrilən, mədəni köklərə və mənəvi qaynaqlara bağlı olan qədim xalq bayramıdır. Novruz bayramı türk xalqlarının el bayramı kimi "Bozqurd, Çağan, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz" və s. kimi adlandırılıb.

Məruzəçi qeyd edib ki, türk xalqlarının etnoqrafiyasında, mifik dünyagörüşündə "Novruz"un "Yaradılış bayramı" olması xüsusilə vurğulanır. İnanca görə, əski türklərin 400 il əziyyət çəkərək qaldıqları yerdən bir bozqurdun yol göstərməsi ilə xilas olduqları gün martın 21-nə təsadüf etdiyindən, onlar üçün yeni həyat başlanıb.

Daha sonra məruzəçi müxtəlif türk xalqlarının Novruz adətləri barədə məlumat verib:

# "Tələbə evi"ndə Yel çərşənbəsi qeyd olunub

***Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə BDU-nun "Tələbə evi"ndə Yel çərşənbəsi qeyd olunub.***

Tədbir zamanı BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev tələbələrə təbriklərini çatdırıb. Bayram tonqalı qalanandan sonra tələbələr üçün çay süfrəsi təşkil edilib.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 01.04.2025

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08